MARİYA SUVOROVSKAYA

# Xəzər üzərində yelləncək

Nəşriyyat - Mətbəə
APOSTROF-A
Publishing & Printing
BAKI-2019

**Naşir**
**Akif Dənzizadə**

**MARİYA SUVOROVSKAYA**

S97 **XƏZƏR ÜZƏRİNDƏ YELLƏNCƏK**. Bakı, **“APOSTROF-A“,** 2019, - səh. 128.

**ISBN 978-9952-527-10-0**

Hər birimiz həyatımız boyu heç olmasa bircə dəfə də olsa, taleyüklü yelləncəyin girovuna çevrilmək, bizə rahatlıq verməyən emosiyalarla dolu qəlbimizi sonsuzluğa aparmaq arzusunda olmuşuq. Lakin, bu zaman dayanmaq və seçmək imkanımız da var. Yaşadığımız adrenalini özümüzə yaxın bildiyimiz sakitlik və sabitliklə əvəz edə bilərik. Hansı yaxşıdır, sakitlik, yoxsa qəfil zərbə? Ritorik sualdır, deyilmi?!

... Və bu povestin hər bir qəhrəmanı gələcəyini təyin etmək, həyatının istiqamətini dəyişdirmək naminə özü qərar verir. Povestdə təsvir olunan qadınları Xəzər dənizi sahillərində daim mövcud olan vahid güclü və dərin hisslər birləşdirir.

Siz də Xəzərin ətrini sinənizə çəkin, Şərq şirniyyatının dadından doyunca həzz alın və povestin baş qəhrəmanı olan – Sevgi ilə yaşayın.

**© MARİYA SUVOROVSKAYA, 2019**

## MÜNDƏRİCAT


"Xəzər üzərində yelləncək" kitabı sevgi haqqındadır... ..............4
Küləkli şəhərin sevgiləri ..........................................................5
Şəkərbura..........................................................................6
Şəkərbura resepti .............................................................25
Nar şirəsi .........................................................................29
Nar şirəsinin hazırlanması ...............................................51
Dolma...............................................................................53
Dolmanın hazırlanması .....................................................63
Paxlava.............................................................................66
Paxlavanın hazırlanması ...................................................82
Şakşuka ...........................................................................84
Şakşukanın hazırlanması...................................................99
Plov ...............................................................................101
Quru meyvələrlə hazırlanan Bakı plovu..........................112
Qutab (epiloq) ...............................................................114
Azərbaycan qutabının hazırlıq mərhələsi.......................117
Şeirlər............................................................................119

## "XƏZƏR ÜZƏRİNDƏ YELLƏNCƏK"
## kitabı sevgi haqqındadır...

Hər şeydən əvvəl, önəmli olan həyata olan sevgidir, çünki qalan hər şey elə həmin həyat sevgisinin - kişi və qadınlar arasında, valideynlər və uşaqlar arasında, insan və təbiət arasındakı münasibətlərin tərkib hissələridir…

Müəllif üçün sevgi ruh halından daha mühüm əhəmiyyət kəsb edir. Mən deyərdim ki, bu, həyat təcrübəsi, çoxillik müşahidələrlə, həmişə dərhal açılmayan aşkar həqiqətləri dərk etməklə gələn bütöv bir fəlsəfədir.

Suvorovskayanın qəhrəmanları "Məhəbbət o qədər çoxşaxəlidir ki, zaman, məkan, ənənə, həyat və ölümdən kənarda yaşaya bilər..." – deyə anlamağa çalışırlar. Lakin onlar müxtəlif yollarla, bəzən güclü sarsıntılar, dramatik hadisələr və özləri üzərində çətin işlər vasitəsilə bu nəticəyə gəlirlər. Bütün kitabın leytmotivi vacib bir fikirdir: "Harmoniya özü ilə uğurlu danışıqlardır".

Müəllifin Azərbaycan mədəniyyətinə, ənənələrinə, məişətinə olan marağını, sadəcə öyrənmək deyil, onun üçün adət etdiyi ətraf aləmdən çox fərqli olan şeyləri, həqiqətən dərindən dərk etmək və mahiyyətinə nüfuz etmək həvəsini yüksək qiymətləndirirəm.

Mariya Suvorovskayanın bədii nəsri onun real həyatda aktiv fəaliyyətinin davamıdır. Azərbaycan-Rusiya layihələrinin bir qədər uğurla həyata keçirilməsi və yaxın gələcək üçün nəzərdə tutulan bir çox layihələr Azərbaycanın Mariya üçün müvəqqəti maraq olmadığını göstərir. Bizə qalır yalnız uğurlar diləmək və ənənəvi "Xoş gəlmisiniz" demək!

***Nigar Axundova***
***Sənətşünaslıq üzrə fəlsəfə doktoru***

## KÜLƏKLİ ŞƏHƏRİN SEVGİLƏRİ

Bakı haqqında orta əsrlərdən bəri müxtəlif səyyahlar, alimlər, şairlər öz əsərlərində maraqlı fikirlər yazmış, fərqli hiss və duyğularını bəyan etmişdilər. 20-ci əsrdə Bakıya gələn bir çox şair və yazıçılar da şəhərimizin gözəlliklərini, insanlarının xoş xasiyyətlərini əks etdirən şeir və hekayələr, müxtəlif ədəbi əsərlər ortaya qoymuşlar. Rusiyanın tanınmış jurnalisti və publisisti Mariya Suvorovskaya tərəfindən qələmə alınan «Xəzər üzərində yelləncək» kitabı da bu silsilədən olan kitablardan biridir. Əsər sırf bədii üslubda qələmə alınıb və çoxsaylı sevgi hekayətlərini əks elətdirir. Baş qəhrəman Taşa Bakını sadəcə sıradan bir şəhər kimi görmür, onun nəzərində Bakı ilk olaraq işıq şəhəridir. Əsərin içindən götürülən bu sitat da dediklərimizi təsdiq edir.

«Bakı günəşli şəhərdir, ona görə burada insanlar daha çox gülümsəyir, kədərli adam azdır.»

Bəli, yazarın nəzərini ilk olaraq cəlb edən Bakının işığıdır, günəşidir. Lakin onun fikrincə bu işıq sadəcə işıq təbiət hadisəsi olaraq qalmır. Burada yaşayan insanların ruhuna, qəlbinə, sevgilərinə, hiss və duyğularına hopur, surətlərinə təzahür edir, sakit, şirin və saf təbəssümlərə çevrilir. Yazar məhz bu təbəssümləri diqqətə çəkir, ona elə gəlir ki, Bakıda kədərli adam yoxdur. Əsərdə Bakının təsvirləri həm baş qəhrəmanın, həm də digər qəhrəmanların sevgi hekayətləri, başlarına gələn müxtəlif səpkili hadisələrin fonunda təqdim edilir. Bütün bu hiss və duyğuların arasında isə sanki qırmızı xətlə milli mətbəximizin çoxlu maraqlı nümunələrin reseptləri, hazırlanma qaydaları keçir ki, bu da əsərə xüsusi bəzək verir. Müxtəlif dramatik situasiyaların içində paxlava, şəkərbura kimi şirniyyatlar, dolma, qutab, plov kimi yeməklər barədə geniş məlumatlar sanki təsvirə və hadisələrə öz dadını qatır; sevgilər şəkərbura dadı verir, duyğulardan plov ətri gəlir, təəssüratlar paxlava kimi şirin olur. Ümumiyyətlə, bu priyom zənnimcə çox maraqlıdır, əsərdə xüsusi bir atmosfer yaradır.

Əsərin oxucularımız tərəfindən maraqla qarşılanacağına şübhə etmirəm və tanınmış jurnalist Mariya Suvorovskaya dərin təşəkkürümü bildirirəm. Əminəm ki, Bakıya olan sevgisi onu əbədi olaraq Azərbaycan xalqının əvəzsiz dostlarından birinə çevirəcək.

***İlqar Fəhmi***
***AYB-nin katibi, Yazıçı-dramaturq***

# Şəkərbura

İçi qozla doldurulmuş şirin şəkərburadan bir dişdəm alıb onu bir qədər acıtəhər dadan qovrulmuş dənəciklərlə qarışdırılmış ətirli qəhvə ilə içəndə payızı başqa cür hiss edirsən. Adamda mütləq rahatlıq yaranır, həyatdan zövq alırsan. Şirin fındıq və badam içi daxilini sehrli dadla doydurur və bu an zaman dayanır.

Şəkərbura – Azərbaycanın milli mətbəx mədəniyyətinə aid olub, əsasən Novruz bayramının (gecə ilə gündüzün bərabərlik günü) simvollarından sayılan Ayın rəmzidir. Onun hazırlanması və bişirilməsi qaydası Xəzərsahili xalqlarda müxtəlifdir. Azərbaycanda isə şəkərburanın hazırlanması əsl xalq mərasiminə çevrilir.

Azərbaycan xanımlarının əli ilə hazırlanan şəkərbura bizim Taşada sehrli duyğular oyadır, sanki üfüqdən boylanan bahar günəşini qarşılayır. Elə bil nə vaxtsa sevdiyi insan ona sabahı belə qarşılamağı öyrədib.

Xəzərboyu xalqlarda qış fəsli kişilərin oturaq dövrü sayılır. Bu zaman kişilər evdə qalırlar. Buna görə də mart ayında artıq qadınların əksəriyyəti 2-3 aylıq hamiləlik dövrünü yaşayır. Bunun da simvolu şəkərburadır, çünki bu şirniyyat qadın qarnı formasındadır.

İndi də yorğunluq Taşaya güc gələndə bütün pəhriz normalarını pozub tünd qəhvə dəmləyir və kalorili şirniyyatdan yeməyə başlayır. Cinahinin naxışlarına saatlarla tamaşa etmək Taşanın çox xoşuna gəlir. Sünbülə bənzəyən bu naxışlar maqqaş vasitəsilə şirniyyatın üz tərəfinə vurulur. Üstündəki sümbülvari naxışlar hadisələr zənciri kimi vahid mərkəzdə, vahid həyati hadisədə birləşdirilib. Bu həyatda hər şey necə olmalıdırsa, elədir. Bu günün səbəbi dünən deyil, sabahdır.

Payız yüngül sərin küləklə paytaxta gəlişi barədə xəbər verir. Günəş şüaları rahatlıq və dinclik gətirərək evlər arasında gizlənib yox olur. Yarpaqlar töküləndə hər şeyin dövri olması hissi daha da güclənir. Hər şey bir-birini əvəz edir. Həyat və ölüm. Keçmiş və indi. İndi və gələcək. Gənclik və qocalıq. Heç kim qocalmaq istəmir. Fiziki cəhətdən. Mənəvi cəhətdən. Haradasa, keçmişin də qocalmasını istəmirik. Bununla belə, məgər keçmişin qocalması barədə biz danışa bilərik? Keçmiş donur. "Stop" düyməsini basdığın anda dayanır ki, sonra yenə və yenə də xəyalında canlandıra biləsən. Onu yenidən yaşaya, qiymətləndirə, əsəbiləşə biləsən. Xatirələrin yelləncəyində sevinə, kədərlənə, səhvlər üçün peşmanlıq çəkə və təbii ki, sevə biləsən. Təki, o an sevdiyin kimi sevə biləsən. Nəvazişlə, riqqətlə, ürəyin hər döyüntüsünü aydın eşidərək sevəsən. Ciyərlərinə nəfəslə bərabər sehir çəkəsən. Orada hər şey başqa cürdür. Keçmiş heç vaxt köhnəlmir. O, yaxşı konyak kimidir, ildən ilə keyfiyyəti daha da artır. Çünki pis xatirələrin yavaş-yavaş unudulmaq, yaxşı xatirələrin isə daha da dolğunlaşmaq kimi xüsusiyyəti var.

Taşa əmin idi ki, bizi əbədi gənc saxlaya bilən tək şey keçmişdir. Biz uzaqlarda, o xatirələrdə qalırıq. Başqalarının da xatirəsində əsas həyata paralel olan həyatı yaşayırıq.

Taşanın oğlu mırıldayan şpisi cinsli iti qapıya tərəf dartaraq dedi:

– İfyitə.

– Qoşa, iti burax. Pis sözləri sənə kim öyrədib? – deyə Taşa ciddi tərzdə soruşdu.

– Oğlu donquldanaraq: – Bilmiyəm, – dedi.

Bütün diqqəti itə yönəlmişdi. İt zingildəyirdi, Qoşa isə onu gah qucağına götürür, gah da yorulub özünə dartaraq qapıya tərəf sürüyürdü.

Üç yaşı təzəcə tamam olan Qoşa deyilən sözləri, ifadələri, frazeoloji birləşmələri havada tutub onları dərhal leksikonuna daxil edirdi. "R" hərfini deyə bilmirdi, ona görə də "heyvərə" sözünü gülməli və ironik tərzdə tələffüz edirdi. Jurnaldakı şəkildə gördüyü Şpis onun xoşuna gəlmişdi, odur ki, Taşa uşağını sevindirmək üçün gedib it almışdı. Evdə ***alabay, çixuaxua və meyn-kun*** adlı pişikləri də vardı. Amma... Bəzən böyüklər özlərini məmnun etmək üçün uşaqlarını sevindirirlər. Böyüyən nəslin təşəbbüslərini dəstəkləyən yaxşı valideyn olduqlarını təsdiqləməyə çalışırlar. Taşa uşaq olanda bu qədər heyvanı yox idi. Bütün ailənin bircə heyvanı melanxolik fars pişiyi idi, o da divanda uzandığı qəşəng pozada daha çox oyuncağı xatırladırdı. İndi isə Taşa tabeliyində olan əhliləşdirdiyi bütün heyvanların məsuliyyətini daşımaq sevinci yaşayırdı.

– Bəsdir, iti burax. Getməliyik. Biz artıq gecikirik.

Taşa Kirpini götürdü. Oğlu iti belə adlandırmışdı.

Yağışsız, palçıqsız oktyabr qəribə idi. Payızın ortaları olduğunu xatırladan yüngül külək əssə də, sarı yarpaqların və yeni səhərin seyrinə dalmaq üçün pencək və ya yüngül paltoda gəzmək olardı. Səhər, yeri gəlmişkən, yaxşı başlamamışdı. Kofe maşını işləmədi. İlişgidən istifadə etməli oldu. Qoşa bağçaya getmək istəmədiyi üçün yarı geyinmiş halda çarpayının üstündə oturmuşdu. İndi də alt paltarda, çılpaq ayağına geyindiyi çəkmədə iti incidirdi. Onların geniş otağı səhər saatlarında xaosa çevrilirdi, hamı qaçır, harasa

tələsir, qarşısına çıxan hər şeyi vurub yıxırdı. Yalnız bir məqsəd vardı – gecikməmək, harasa vaxtında çatmaq. Bu gün hamı tez getmişdi, ona görə də tələsmədən hazırlaşmaq olardı. Ancaq, bağçaya hamıdan iki saat sonra gəlmək düzgün deyildi. Taşa həmişə dəqiqliyi ilə seçilirdi, ona görə gecikməkdən, xüsusilə səbəbsiz gecikmələrdən zəhləsi gedirdi. Lakin indi pəncərənin qarşısında durub payızın seyrinə dalarkən, məişət çətinliklərinə tüpürüb heç yerə getmək istəmirdi. Qəhvə dolu fincanla əllərini qızdırırdı. Xəyal onu uzaqlara aparmışdı. Onun hələ bir müddət geri qayıtmaq niyyəti yox idi. Şəkərburanın dadı ona günəşli Bakı küçələrini xatırladırdı. Özünə qapılıb xatirələr dolanbacında gəzmək, ötən günləri, hadisələri xırdalıqlarına qədər xatırlamaq, günəş şüasının toxunduğu hər yerdə onun istisini hiss etmək istəyirdi. Bu isti onu həyəcanlandırır, ümidləndirirdi. Taşa hələ də duyğulanır və sevə bilirdi. Onu xumarlandıran yayın isti keçən günləri xatırladır. Lakin, Taşa reallığa qayıtmalı idi, dərindən nəfəs alıb dedi:

– Qoşa, tez çəkmələrini çıxar. Corabını, cins şalvarını gey. Hamısı çarpayının üstündədir.

Taşa bilirdi ki, Qoşa diqqət çəkmək üçün ağlayıb ayaqlarını yerə çırpsa da, özü geyinəcək və on dəqiqə sonra hazır olacaq. Deməli, onun makiaj etmək, saçlarını qaydaya salmaq üçün hələ vaxtı var. Həyatının son beş ayı ərzində onun güzəranı çox dəyişmişdi. Evində bu möcüzənin, yəni balaca uşağın olmağını çox arzulamışdı. Həmin uşağın məhz belə fəal, səs-küylü, enerjili təsəvvür edirdi. Anadan olandan bir neçə ay sonra o, məhz belə olmalı idi. Ancaq Taşanın birdən-birə üçyaşlı oğlu oldu. Oğlu. Necə gözəl səslənir! Bu sözü işlədəndə adamın qəlbi fəxrlə dolur. O, kişi böyüdür. Və bu kişi üçün hər şeyə hazırdır. Qoşik ondan istifadə etməyə çalışır və bu, Taşanın xoşuna gəlir. Oğlana olan məhəbbət kişiyə olan məhəbbətin xüsusi növüdür. Qoşa yayın ilk günləri, ümidlərin puç olduğu vaxt onun həyatına daxil oldu. Hə-

yatın kinayəsi: əgər dörd il əvvəl hər şey başqa cür olsaydı, onun belə bioloji oğlu ola bilərdi. Keçmişdəki Taşanın hansısa paralel kainatda sevməyə davam etdiyi birinin oğlu. Ancaq həyat xəbəri arzu şəklində olan cümlələri sevmir.

Taşa və Qoşa hazırlaşıb maşına mindilər. Payız günəşi mavi rəngdə səmadan boylanırdı. Pəncərələri açmaq, mahnı qoşub uzun səyahətə çıxmaq, yol kənarındakı narıncı, tünd rəngli meşənin seyrinə dalmaq istəyirdi. Şəhər kənarında yaşamaq möhtəşəmdir. Orada təbiətin necə dəyişdiyini, fəsillərin bir-birini əvəz etməsini müşahidə etmək olur. Radioda səsləndirilən musiqili kompozisiyanı dinləyicilərlə bölüşən, dinləyicini pozitiv əhval-ruhiyyəyə kökləməyə çalışan aparıcı payız depressiyasına qarşı mübarizədə səhər saatlarındakı bir fincan qəhvənin kömək olacağını deyirdi. Adi günlərdə belə səfərlərə çıxmaq bütün narahatlığı, təlaşı yox edərək onu romantika ilə doldurur. Əgər gündəlik həyatımızda kiçik xoşbəxtlik mənbələri aşkarlaya bilsək, daha xoşbəxt, daha azad və daha ahəngdar olarıq. Ahəngdarlıq insanın özüylə razılığa gəlməsidir. Bəzən həyat yoldaşı ilə, partnyorla, müştəri ilə necə razılığa gələcəyimizi bilirik... Lakin daha yaxşı, sakit və şad yaşamaq üçün özümüzə nə təklif edəcəyimizi bilmirik. Gərəksiz yaşantı və özünütəhlil ilə özümüzü üzərək mənəvi mikrofloramızı yandırırıq. Bununla belə, yandırdığımız sahədə bağ-bağça olmasını istəyirik. Belə olmur. Yalnız özümüzü sakitləşdirərək, şüurumuzdakı ən yaxşı ağacları sulayaraq onların bir gün çiçək açacağına ümid edə bilərik. Sadə xoşbəxtlik. Əsəbdən titrəməmək, narahat olmamaq, qorxmamaq, fobiyaların narahat etmədiyi bir xoşbəxtlikdir. Vaxt vardı, Taşa özünü incitməmək, yandırıcı lava olan nifrət uçurumuna yıxılmamaq üçün nə edəcəyini bilmirdi. Ürəyiaçıq, mehriban balaca qızcığaz. Məhz balaca adam. Hələ beş il qabaq Taşa hava kimi yüngül, sevgiyə, emosiyalara, dünyaya, insanlara açıq olan birisi idi. O, hər səhər sevgi və yaradıcılıq ar-

zusu ilə oyanır, hər gecə növbəti günlər üçün xəyallar quraraq yatırdı. O zaman ki, ürəkdən inandığı planlar alt-üst oldu, qəlbini incitdi, dünyası çilik-çilik oldu. O zaman anestezioloq Taşadan soruşmuşdu:

– Siz nə isə içmisiz?

– Bir qurtum meyvə şirəsi, – deyə Taşa cavab vermişdi.

Həkim, cərrahiyə otağındakı hər kəsə eyni anda müraciət edərək qəzəblə dedi:

– Kim ona icazə verdi? Niyə xəbərdar etmədiz?

– Hirslənməyin. Mənə demişdilər. Mən bilmədən içdim... Düşünmədim...

– Yaxşı, hazırlaşaq... Sizə narkoz vurulacaq, ondan geriyə sayın.

Həmin cərrahiyyə lampasının işığını heç vaxt unutmayacaq. O geri sayımı da. Ondan sonra başqa həyat başladı. Hə, o, meyvə şirəsi içmişdi. Çünki heç nəyi dərk edə bilmirdi. Əllər sözünə baxmırdı, göz yaşları dayanmırdı, UZİ kabinetindən palataya necə qalxdığını xatırlamırdı. Həmin kabinetdə daşürəkli bir xala onun Ruslandan olan oğlunun ürəyinin döyünmədiyini demişdi. Sadəcə ürəyi döyünmür. Onun üçün bu adi haldır. Aparatı işə saldı, dedi, sonra çıxmasını istədi. Heç bir təəssüf, təsəlli olmadan. Adi şəhər xəstəxanası. Yəqin, burada yaxşı sözlər demək heç kimin borcu deyil. Ya da o səhər həmin xalanın kefi yox idi, Taşa isə ilk pasienti olduğuna bu qədər soyuq idi.

– Natalya, – Taşanın pasportda və tibbi kartda adı belə yazılmışdı, – palataya qalxın. Mən lazımi məlumatı sizi müayinə edən həkimə çatdıracam.

– Bəlkə döyünər? Bəlkə gözləyək? Belə olur? Mən oxumuşam...

– Gözləyib ya gözləməmək sizin işinizdir. Məncə, gözləməyə dəyməz, əməliyyat edilməlidir. Məni yubatmayın, növbədə on

nəfər gözləyir.

Taşa heç bir fikri olmadan, öz dərdinin boşluğu ilə yuxarı qalxdı. Ondan əvvəlki gecə çox dua etmişdi, inanmışdı. Səhər hər şeyin yaxşı olacağına inanmışdı. Hərçənd, fəhmi tam fərqli şeylərdən xəbər verirdi – ürəyi dayanıb. Qarnından aşağı soyuq idi. Ümumiyyətlə, hər yer soyuq idi. Bəlkə, xəstəxana pis qızdırılıb. Soyuq bədənə yayıldı, əl və ayaq barmaqları keyidi. Titrəyirdi. Taşa asta səslə ağlayırdı. Başa düşürdü ki, uşaqla birlikdə Ruslanla gələcəyə olan ümidlər də yox olacaq. Taşa qadınların ən axmaq mifinə, kişini uşaqla özünə bağlamaq fikrinə həmişə şübhə ilə yanaşıb, lakin məhz bu fikir onu cəlb etdi, çünki onun şüuruna hakim kəsilən ehtiras bəslədiyi kişiylə bir ömür bərabər olmaq perspektivliyi onu yoldan çıxartmışdı.

Natalya Sergeyevna İvanova o günə qədər yaxşı qız hesab edilirdi: əlaçı, medalçı, mükafatlar laureatı, profesional mükafatlar sahibi, ictimai xadim, təqlid nümunəsi, ailənin fəxri. Taşa məktəb partası arxasında oturduğu vaxtdan yalnız tərif eşidirdi. Hər yerdə onu seçir, onu fərqləndirir, onu dəstəkləyirdilər. Həmişə yüz ölçüb, bir biçərdi. Əslində isə onun qərarlarını hərəkətə gətirən impulsivlik və emosionallıq idi. Taşa hər addımını şüurlu olaraq atırdı. Ruslandan düşüncəli olaraq və qəti qərarla hamilə qaldı. Taşa həmin günü dəqiq xatırlayır. Nəticəni bərkitmək üçün uzun müddət ayaqları yuxarı vəziyyətdə uzanmış və kosmosa siqnallar göndərmişdi. Heç cür bir nöqtədə birləşə bilməyən parçaları birləşdirmək, hər şeyi yoluna qoymaq istəyirdi.

Yataqda uzanarkən Ruslandan soruşardı:

– Oğluna nə ad qoymaq istəyərsən?

– Murad, gözəl addır...

Onu daha da qıcıqlandıraraq təkrar edərdi:

– Mu-rad – adı hecalara bölən Taşa sanki onu yoxlayırdı.

– Hə, gözəl səslənir. Xoşuma gəlir.

– O, mənim kimi ciddi, sənin kimi tərs olacaq. Bir də onun səndə olan kimi uzun kiprikləri olacaq, İfritə İvanova...

Taşa onların bir-birini zarafatla belə adlandırmağa nə vaxt başladıqlarını artıq xatırlamır. Çünki bu müraciət formasının öz kodu vardı, sanki bu onların gizli dünyasının şifrəsi idi. Bu dünyaya kimsə daxil ola bilməzdi. Ora heç kimi buraxmırdılar. Hər yarım ildə gündəlik həyatdan qopardıqları bir neçə həftə yalnız onlara məxsus idi. Bir-birlərindən həzz alırdılar. İş üçün başqa şəhərlərə səfər edəndə telefon və ya skayp vasitəsilə gələcək görüşlərə dair şirin planlar qururdular. Görüşdən görüşə olan həyat Taşa üçün mənasını itirdi. İş, insanlar və hətta uğur son dərəcə adi idi. Bütün bunlardan yeni qucaqlaşmanın verdiyi sevinc xətrinə keçməyə dəyərdi.

Xəstəxanaya düşməzdən ay yarım qabaq Natalya İvanovna dövlət korporasiyasında fəaliyyətini dayandırdı. Bu çox yaxşı vəzifə idi. Ona bu pilləyə çatmaq üçün on il vaxt lazım olmuşdu. Heçliyə qərq oldu. Rəfiqəsinin ofisində öz işini qurmağa çalışdı. Reklam agentliyi o vaxtlar müəssisəyə çox az bənzəyirdi. Nataşa daha çox bir neçə nəşriyyatı birləşdirən və fərasəti hesabına mövcud olan agentliyə oxşayırdı. Yeni iş axtarmaq, şəxsi məlumatlar hazırlamaq, istirahət etmək... Taşa bunlara vaxt ayıra bilməzdi. Ana... qız... kirayə mənzil... Bütün baş verənlərə görə ailəsi qarşısında özünü günahkar hiss edirdi. Evdəkiləri hər şeyin yaxşı olacağına, işlərin yaxşı gedəcəyinə, biznesin qurulacağına, kifayət qədər pulun olacağına və narahatlıq üçün səbəb olmadığına inandırmaq istəyirdi. Özü isə hər səhər məbədə yollanır, Nikolay Uqodnikin ikonası qarşısında əlində şam tutaraq dayanır və hər şeyin düzəlməsi üçün dua edirdi. Müqəddəsə, Tanrıya və özünə hər şeyin necə olmalı olduğunu izah edə bilmirdi, çünki Taşa çox dolaşmışdı. Doğradığı odunlar bir şəhər tikməyə bəs edərdi. İşdən növbəti dəfə Bakıya getməyə icazə ala bilmədiyi üçün Taşa ərizə

yazmışdı. Azərbaycanın günəşli paytaxtı isə onu çağırırdı. Soyuq qış Moskvasını atıb getmək, Bakının günəşli yanvarı, gülərüz insanları, Xəzərin çəhrayi üfüqü və sevdiyi kişinin yanına getmək eşqi- bütün bunlar üçün ürəyi gedirdi. Sükan arxasına keçib rəisinin yanına getməsi, Bakıya səfərin vacibliyi barədə danışması yadındadır. Ona qədər həmişə vəziyyəti anlayışla qarşılayardı. Taşa dəyərli əməkdaş idi, o çox sürətlə işləyirdi, on işçini əvəz edirdi. Buna görə, çox şeyi ona bağışlayırdılar. Əlaqələr şöbəsinin vitse-prezidenti Mariya Mixaylovna bu alovlu, parlaq münasibətlərin gedişatını maraqla izləyirdi. Belə məhəbbət hər kəsə nəsib olmur. Ancaq bu dəfə qəti şəkildə Taşanı buraxmaqdan imtina etdi. Natalyanın daha taqəti qalmamışdı. Gözləməyə səbri çatmırdı. Psixoloji asılılıq sağlamlığa təsir edirdi. Özünü pis hiss edirdi, daha ləng işləyirdi, işə və layihələrə marağını itirirdi.

– Yox, Taşa. Bilirsən ki, həmişə vəziyyəti anlayışla qarşılamışam. Amma sən təzəlikcə getmisən. Biz hələ indi xeyriyyə marafonuna başlamışıq. Onu kim aparacaq?

– Mən oradan distant şəkildə işə qoşulacam.

Taşa özünə bəraət qazandırmağa çalışırdı.

– Bunu necə təsəvvür edirsən? Hökumət evinə distant olaraq qoşulacaqsan? Ya sponsorlarla distant olaraq görüşəcəksən?

Onun səsindəki sarkazm Nataşanı Bakı şənliyindən uzaqlaşdırırdı.

– Öz hesabıma məzuniyyət götürəcəm.

– Yox. Qəti qərarımdır. Dil tökmə, yalvarma, nə özünün, nə də mənim vaxtımı alma.

– Xahiş edirəm. Mən xəstəyəm. Dincəlməli, müalicə olunmalıyam... Sonra daha çox işləyəcəm. Mən on il ərzində bir dəfə də olsun xəstəlik haqqında arayış almamışam!

Taşa israrla müdirini yola gətirməyə çalışırdı.

– Yox. Məsələ bağlandı.

Mariya Mixaylovna söhbəti tamamladı. Və telefon söndürüldü. Emosialarının təsiri altında olan Taşa gedib Bakıya bilet götürdü. Mağazaya yollanıb özünə təzə don, çəkmə, aksesuarlar aldı. Əhvalı o qədər də yaxşı deyildi. Prinsipləri adlayıb keçmək, pozmaq, qaydalara qarşı çıxmaq çətin idi. Ancaq o, qərarını vermişdi. Anası razı olmasa da görünməz qüvvə onu düz hava limanına aparırdı. Anasının məsləhətləri faydasız idi. Bütün Bakı reysləri ləğv olunsaydı belə, maşınla, maşın xarab olsaydı, piyada gedərdi. Qərarı dəyişməz idi.

Mariya Mixaylovnanı aldatmaq çətin idi. Bu qadın on il ərzində kompaniyada onunla bir ana kimi davranırdı. Onu böyütdü, tərbiyə verdi, öyrətdi. Taşa üçün çox zəhmət çəkdi. Onun daha yaxşı, daha böyük, indi dəbdə olan, biznes bilicilərinin dediyi kimi, daha səmərəli fəaliyyət meydanına atılmasına  kömək etdi. Müdir Ruslanla olan əhvalatın bütün təfərrüatlarından xəbərdar idi. Ona məsləhətlər verirdi. Demək olar ki, dost idilər. Bu dostluq iş ilə bir-birinə bağlı iki qadının dostluğu idi. Onların həmişə danışmaq üçün mövzuları, müzakirə üçün səbəbləri olurdu. Bu sıx əlaqə onların işini hərəkətə gətirirdi. Birlyin belə münasibətlər üzərində qurulması layihə və təşəbbüslərin inkişaf etdirilməsi kimi məsələlərdə özünü biruzə verirdi. Bir-birinə dəstək olaraq intriqa və xarici təsirlərin qarşısını almaqda uğurlu strategiyanın hazırlanmasında bir idilər. Birinci ərindən boşandığı dövrdə Mariya Mixaylovna onu sakitləşdirir, ona mükafatlar ayırır, maraqlı yerlərə ezamiyyətə göndərirdi. Taşaya digərlərindən daha çox imtiyaz verilmişdi. Natalya bunu qiymətləndirirdi. Hansı işə əl atsa, kompaniyanın qələbəsi və rəhbərliyin sevinci ilə nəticələnirdi. Bilet alıb uçmaq birdəfəlik getmək demək idi. Bu, rəhbərliyə, özünə, taleyə, gələcəyə meydan oxumaq demək idi. O an Taşa nə etdiyini tam olaraq dərk etmir, bu hərəkətinin nə ilə nəticələnəcəyini bilmirdi. İllər ötəndən sonra müdiri ilə ürəkdən söhbət

etmədiyi üçün peşman olacaqdı, baxmayaraq ki, sonrakı peşmançılıq fayda vermir.

Bakıda keçirdiyi üçüncü gün daha ayıq başla düşünməyə başladı. Vannada uzanan Taşa nəhayət, işdən qovula biləcəyini anladı. O, öz hesabına məzuniyyət götürmək ərizəsi yazıb elektron poçt ilə yolladı... Əlbəttə, qayıdandan iki həftə sonra onu işdən kənarlaşdırdılar. Ancaq mədəni surətdə, öz istəyi ilə. Ofisdəki məzar səssizliyi, şəxsi əşyaların qutulara yığıldığı vaxt gözləri dolan əməkdaşların qaçırdığı nəzərlər. Bir qədər sonra bu hadisəyə başqa cür yanaşacaq və ümumiyyətlə, hadisələrin bu cür inkişafına minnətdar olacaqdı. Amma o vaxtlar özünü havada hiss edirdi. Dayaq nöqtəsi yox idi. Dirənirdi. Öz işini qurmağa çalışırdı. Yaxşı ki, əlaqələr, inadkarlıq və onun öz gücünə inamı vardı.

Hə, hamiləliyini əvvəlcədən planlamışdı. Hə, Rəhimovdan uşağının olmasını istəyirdi. Hə, bu uşağın möcüzəvi şəkildə onu birdəfəlik Bakıda saxlayacağına əmin idi. Hacıbəyov küçəsindəki evdə oyanacaq, panoramlı pəncərədən Xəzərə baxacaq, hamiləlik vaxtı Dənizkənarı bulvarda gəzişəcəkdi. Özü üçün maraqlı məşğuliyyət tapacaqdı. Məsələn, kitablar yazacaq, geyim kolleksiyası hazırlayacaq, ya da uşaq oyuncaqları mağazası açacaq. İlahi, onun dərrakəsi hara yox olmuşdu? Arzular, xoşbəxtlik illüziyası ilə yuxuya gedirdi. Bu xoşbəxtlik isə ona çox yaxın, əlçatan görünürdü.

Günlərin birində Taşa qara rəngli uzun donunu geyinib İçərişəhərdəki “Ləzgi məscidi”nə gəldi. Allahdan kömək dilədi. Axşam çağı kənarda yerləşən pravoslav kilsələrindən birinə getməyə ürək etmədi. İçərişəhər çox yaxın idi. Özü də, Taşa hardasa oxumuşdu ki, özgə dinə məxsus məbəddə edilən dua daha tez qəbul olur. Onu rahatlıqla məscidin qadınlara aid hissəsinə buraxdılar. Taşa bir saat Allaha dua etdi. Onun yanındakı müsəlman qadınları namaz qıldığı halda, o, əlini göylərə qaldıraraq xatırladığı bütün pravoslav dualarını oxuyurdu. Taşa bədənində gizilti, titrəyiş hiss edirdi,

duaların qəbul olacağına və Tanrının ona övlad bəxş edəcəyinə inanırdı. Bu uşaq onu Ruslana yaxınlaşdırmalı idi. O daha Ruslanı itirmək qorxusu ilə yaşamayacaqdı.

"Aşur məscidi" olduqca qədimdir. Deyilənə görə, onu 1169-cu ildə Nəcəf Aşur İbrahim oğlu tikdirib. Sadə xalq arasında ona "Ləzgi məscidi" də deyirlər. XIX əsrdə neft yataqlarının aşkarlanması ilə əlaqədar böyük fəhlə qüvvəsinin, eləcə də çoxlu sayda dağıstanlı fəhlələrin Bakıya gəlməsi sayəsində məscidə bu adın verilməsi təbii idi. Bu məsciddə dini ayinləri yerinə yetirmək üçün əsasən ləzgilər gəlirdilər.

Bina quruluş etibarı ilə paralelopipedi xatırladır. Sonradan cənub tərəfdən iki pəncərə açılıb. Şiş tağ formalı giriş qapısı məscidin şimal-şərq hissəsində yerləşir. Həmin alaqapı bir otaqdan ibarət olan ibadət otağına aparır...

Taşa Ruslanın ləzgi olduğunu, Dağıstanla sərhəddə yerləşən Xaçmazda anadan olduğunu bilirdi. Taşa ləzgi məscidinə gəlməklə, sanki Ruslana onun dini, onun dünyası ilə təsir etmək istəyirdi. Amma, özü heç vaxt onun dünyasının tam üzvü ola bilmədi.

Həmin axşam Bakıda sərt küləklər əsirdi. Külək adamın sümüklərinə işləyirdi. Ruslan birlikdə şam edəcəyinə söz vermişdi, amma gəlmədi. Taşa tənha şəhərdə gəzişirdi. Bu şəhər ona həm yad, həm də doğma idi. Yumruqlarını sıxıb nazik bürüncəyi bərk-bərk bağladı. O vaxt kiçik, lakin arzu olunan embrionun çoxəsrlik sistemlə mübarizə apara bilməyəcəyindən agah deyildi. Bu sistemə din, ənənələr, dəyərlər, ictimai fikir daxildir.

– Mənə ərə gələrdin?
– Bu təklifdir..? - sevincək Rəhimovdan soruşdu.
– Demək olar ki... Sadəcə maraqlıdır.
– Əgər təklifdirsə, onda...

Bir qədər duruxdu...

– Yəqin ki, hə. Sənə necə "Yox" deyə bilərəm? Özü də, Nataşa

Rəhimova ifadəsi məzəli səslənir.

Uşaq sadəlövhlüyü və gənclik maksimalizmi ilə “Hə” deyən bu sərsəm ağıllı qız... Bir müddətdən sonra özü-özündən soruşacaq: o niyə bu sualı verdi? Deyəsən, onların münasibətlərində elə bir məqam vardı ki, sanki Ruslan valideynlərinə, ətrafına qarşı çıxmağa hazır idi. Özündə güc və iradə hiss edirdi. Hamiləliyindən yarım il əvvəl Ruslan onu təyyarəyə mindirərkən demişdi:

– Get özünə gəlinlik seç.

O sevincək halda uçurdu, bətnində kəpənəklərin uçuşduğunu hiss edirdi.

– Allo! Allo! İvanova, səni eşitmirəm. Ucadan danış. Ya da qoy mən zəng vurum, – xəttin o başından Ruslan tez-tez deyirdi:

– Bu vacibdir. Gözlə.

– Mən danışıqlar aparıram. Uyğun vaxt deyil. Bir azdan səni yığaram.

– Mən hamiləyəm, – Taşa sevincini gizlətməyə çalışaraq dedi.

– Nə? Eşitmirəm...

Taşa bu dəfə möhkəm səslə əminliklə qışqırdı:

– Uşağımız olacaq...

Xəttin o başından Ruslanın qəzəbli səsi eşidildi:

– Necə... sənə zəng vuraram. Gözlə...

Taşa söhbətdən sonra kirayələdiyi evin pəncərəsi önündə donub qaldı. Nə edəcəyini bilmirdi. Çay qaynatsın? Rəfiqəsinə zəng etsin? Ağlasınmı, gülsünmü..? Emosiyalar yelləncək kimi orqanizmini hərəkətə gətirirdi. Bir neçə saat sonra Ruslan zəng vurdu.

– Uşağı tələf etmək lazımdır. Sənə pul göndərim?

Ruslanın sözləri ox kimi qulaqlarından girib beyninə sancıldı.

– Dəli olmusan? Bu, mənim ciyərimin parasıdır, onu necə tələf edə bilərəm? Mən onu çox istəyirəm. Sənin nə düşünəcəyin artıq mənim üçün maraqlı deyil...

Taşa bilərəkdən onunla rəsmi şəkildə danışırdı... Ürəyi çır-

pınırdı. Mədəsi bulanırdı...

– Uşaq nədir? Hələ formalaşa bilməz... Xəstəxanaya get. Minlərlə qadın abort elətdirir.

Taşanın gözləri doldu.

– Mən o minlərlə qadından deyiləm.

– Sənə indi uşaq lazım deyil. Mənə lazım deyil.

Sözlər sillə kimi sərt idi.

– Sən biznes qurmağa başlamısan. Uşaq sənə mane olacaq.

– Biznes nədir? Mən uşaq barədə, uşağımız barədə danışıram...

Emosiyalar özünü büruzə verirdi.

– Bu canlı məxluq sənin və mənim qanımdandır. Bəyəm, başa düşmürsən? Ona heç rəhmin gəlmir?

Ruslan isə sakit tərzdə danışmaqda davam edirdi.

– Təəssüf. Ancaq indi vaxtı deyil. Vaxtı deyil, başa düşürsən?

– Səndən zəhləm gedir...

Taşa özünü zorlayıb son sözünü dedi və hirslə dəstəyi asdı.

İki günlük sükut. İki günlük isterika. Anası da uşağın tələf edilməsinin tərəfdarı idi. Çünki məsələnin absurdluğu heç bir çərçivəyə sığmırdı.

– Ər yox, düz-əməlli iş yox, öz evi yox... Yox, olmaz... Yenə də yox.

Taşa isə ona cavab verirdi:

– Hə! Mən onu dünyaya gətirəcəm.

O, uşağa həyat verərdi. Onu tərbiyə edərdi. Bunu bacarardı. Öhdəsindən gələrdi. Hamının fikirini dəyişərdi. Hamıya sübut edərdi ki, həyatda xəbəri arzu şəklində olan sözlərə yer yoxdur. Hər şey necə olmalıdırsa, elə də olacaq. Səbəb keçmişdə deyil. Səbəb gələcəkdədir, Taşa başqa bir rolu yerinə yetirməlidir. Bu aksiomadır. Sübuta ehtiyacı olmayan teoremdir. Hər şey öz-özünə həll olur. Göylərin bizimlə bağlı öz planı var...

Ruslan bu xəbəri alandan iki gün sonra zəng vurdu. Taşa əvvəlcə cavab vermədi. Sonra dəstəyi qaldırdı.

– Bağışla. Bağışla məni...

Rəhimov kədərli tərzdə danışmağı bacarırdı. Ancaq Taşa soyuqqanlı davranmaq istəyirdi. Bir anlıq hər şeyi düzəltmək, əfv etmək istəyinin təsirinə qapılmamaqda israrlı idi.

– Nəyə görə? Sən seçimini etdin, Ruslan. Bağışlanmalı heç nə yoxdur.

– Uşağı saxla. Biz çıxış yolu taparıq. Mən kömək edəcəm.

– Sən mənimlə ailə qurmaq istəmirsənsə, bir yerdə yaşamaq təklif etmirsənsə... Haçansa nə isə fikirləşəcəksən... Nə dediklərini qulaqların eşidir?

Taşa üçün itirəcək heç nə qalmırdı. Ruslan isə, görünür, bu söhbətə özünü əvvəlcədən hazırlamışdı, onun emosional tarazlığını pozmaq heç də asan deyildi.

– Ruslan, mən uşağı saxladım. Bu mənim qərarımdır. Öz həyatını yaşa.

Səni heç nəyə məcbur etmirəm. Hələ ki, uşaqla birlikdə necə bir həyat yaşayacağımı bilmirəm. Ancaq, zaman hər şeyi yerbəyer edəcək...

– Sevirəm səni, İfritə.

– Lazım deyil...

Qəhər Taşanı boğurdu. Nə edəcəyini bilmirdi...

Anası ona təzyiq göstərirdi. Pul ehtiyatı tükənirdi. İşləmək, işgüzar görüşlərə getmək lazım idi. Soyuq fevral ayı, ictimai nəqliyyat. Taşa yalnız öz evi tərəflərdə maşından istifadə etməyə cəsarət edirdi. İndi Avropada, Moskvada, ən sevdiyi Bakıda maşın sürər, özünü öz evindəki kimi rahat hiss edə bilərdi. O vaxt hər şey başqa cür idi... Moskva əyalətinin o biri başına sürət qatarıyla, sonra metro ilə, ardıyca avtobusla getdi. Görüşdü, Moskvadakı ofisinə qayıtdı. Donmuşdu, yorulmuşdu. Ayaqyoluna girdi və ...

qan gördü. Əlləri əsdi. Tez taksi çağırıb evə getdi. Ginekoloq rəfiqəsinə zəng etdi, bütün yol boyu dualar oxudu. Pəncərədən ilk baharın qəmgin mənzərəsinə baxdı. Palçıq, yağışa oxşayan sulu qar, ağır qara buludlar və depressiv boz səma. Təbiət hər detalı ilə hadisələrin yaxşı olmayacağı barədə xəbər verirdi.

Qoşa radiodakı mahnını oxuyurdu. Taşa isə maşını sürərkən oktyabr ayında payız səmasının gözəlliyi barədə düşünürdü. Məsum, təmiz, buludsuz səma. İşə aparan yol qəlbini fərəh hissi ilə doldururdu. Bir vaxtlar ona rahatlıq verməyən xatirələr daha ağır yük deyildi, əksinə, Taşanın keçmiş həyatına nəzər salmaq maraqlı idi.

O zamankı Taşa daha mehriban, daha sadədil idi. İndiki Nataşa isə insanları daha dürüst və adekvat qiymətləndirir. Bəzən şəraitin tələblərinə uyğun olaraq onları lazımsız və lazımlı təbəqəyə ayırır. Ondan istifadə, ya da manipulyasiya etmək istəyəndə, xoşuna gəlmir. Natalya İvanova artıq üç ildən çoxdur ki, evlidir. Həmin faciəli itkidən sonraki iki hamiləliyi də uğursuz nəticələndi. Analıq kodunda nəsə problem var idi, qəlbində nəsə parçalanmışdı. Saysız hesabsız analizlər verildi. Hər şey yaxşıdır, hər şey qaydasındadır, hər şey tamamilə yaxşıdır-dedilər. Müxtəlif klinikalar, güclü həkimlər. Hamısı bir ağızdan növbəti dəfə uğurlu olacağına inandırırdı.

Nəhayət, bu yaz qərara gəldi ki, orqanizm hamiləliyin əleyhinədirsə, onda başqa yol seçəcək. İllərlə gözləməli ola biləcəyini anlayan Taşa özü işə qarışdı. Bütün tanışlarına müraciət etdi. Valideyn nəzarətindən məhrum olan və övladlığa götürə biləcəyi uşaqlarla bağlı bütün sənədlərə göz gəzdirdi. bir-bir uşaq evlərini, kimsəsiz uşaqların himayə edildiyi təşkilatlara baş çəkdi. Kirill uzun müddət buna razı olmadı. Ərini yola gətirdi. Bazar günləri Taşa ilə məktəbi ziyarət edərkən yavaş-yavaş yola gəldi və razılaşdı. Gələcək üçün gərəkli insan böyütmək lazım olduğunu dərk etdi.

– Natalya, üç yaş yarımlıq oğlan var. Məncə, həyat yoldaşınızla ona baxmalısız.

Zəng gözlənilməz idi. Natalya lap sabah uçmağa hazır idi. Amma burada qərarın iki nəfərin razılığı olmalı idi. Kiril üçün də uyğun olacaq bir vaxt təyin edilməli idi.

– Gələn həftə sonunda gələ bilərik.

– Yaxşı, biz professional ailəni xəbərdar edəcəyik. Futbol məşqinə gəlib baxarsız. Ən balacalar üçün ayrılan hissədədir.

– Oldu. Özümü daha münasib aparmağım barədə psixoloqla məsləhətləşərəm...

Xəttin o başından sakitləşdirici sözlər eşidildi:

– Siz intuituv olaraq hər şeyi doğru edəcəksiz, ancaq sizi bir məsələ barədə xəbərdar etməliyik. Qoşa rusəsilli deyil. Milliyyətini dəqiq bilmirik. Lakin, siz başqa millətlərə qarşı olmadığınızı bildirmişdiz, doğrudur?

– Bunun əhəmiyyəti yoxdur. Mümkünsə, şəklini yollayın... Maraqlıdır...

Fotoda məzəli görkəmdə uşaq gülümsəyirdi. Qarabuğdayı uşağın gözləri çəp, burnu yastı idi, qaşları vahid xətt üzrə birləşmək istəyirdi, gözlərini qıymağından başa düşülürdü ki, heç də sakit uşağa bənzəmir. Taşa görüş üçün günləri və saatları sayırdı.

Gözəl bir yay günü idi. Taşa da, Kiril də çox həyəcanlı idilər. Lakin, balaca Qoşanı görən kimi dərhal anladılar ki, hə, bu uşaq onlarındı. Onunla keçirdikləri gün möhtəşəm idi. Kirillə Taşa çoxdan unutduqları qeyri-adi hissləri yenidən yaşadılar. Taşanın on bir yaşlı qızı, Kirilin Londonda yaşayan on yaşlı oğlu var. İkisi də çox gənc yaşlarında valideyn oldular. Bu rola öyrəşmək çox vaxt apardı. İyirmi yaş tamam olanda uşaqlara sonuncu oyuncağın kimi baxırsan. İndi isə Qoşaya möcüzə kimi baxırdılar.

Qeorqi – "qalib". "Murad" isə fars dilindən tərcümədə "hədəf" mənasını verir. Qalibiyyətə aparan hədəf. Taşa əvvəlcə ağlını itirdi-

yini düşündü. Ola bilməz, ona elə gəlir! Qoşa divanda eynən Rəhimov kimi uzanmışdı, bir ayağını o birinin üstünə aşırıb, dizləri bir qədər qatlanıb. Dörd yaşına az qalan uşaq, demək olar ki, Ruslan kimi zarafat edirdi. Ümumiyyətlə, onların aurası, energetikası, insani duyumu çox oxşar idi. Və bu oxşarlıq onu təəccübləndirməyə bilməzdi. Bunu necə qəbul etsin? Həyatın növbəti kinayəsi kimi?..

Şəhərin yolları yerə döşənmiş yarpaqlardan yaranan xalçaya bənzəyirdi. Elə bil yerə boya dağıdıblar.

Külək yarpaqları tərpədir, onları hərəkətə gətirirdi. "Mersedes"in pəncərəsindən payız fəslinin son günəşli günlərinin mənzərəsi açılırdı. Bundan sonra təbiət qışı qarşılamağa hazırlaşacaq. Taşa payızı sevir. Bu fəsildə fikirlər öz yerini tutur, ayıq başla qərarlar qəbul etmək, özünü anlamaq olur. "Hər şərdə bir xeyir var", – bu fikir yüzüncü dəfə Taşanın ağlından keçdi. Qəlb həyatın qərarlarını, əsaslı dəyişiklikləri qəbul etməyəndə gərək səbr edəsən. Əvvəl axırı çox ləng görünsə də, zaman keçəcək,. O, sanki xüsusi dərmandır. Dərd-sər yığılır, onunla birlikdə hər şeyi yenidən başlamaq, kədərin körpüsündən keçmək, sənə nəyin daha çox lazım olduğunu anlamaq potensialı yaranır. Və sonda yəqin ki, gözlədiyindən daha fərqli nəticə əldə edirsən.

Belə götürəndə, son ayları sakit keçirsə də, Taşa qəribə yuxular görürdü. Elə bil, göydən, kosmosdan hansısa qüvvə onu təhlükə barədə xəbərdar etmək istəyirdi. Ölən adamlar, xəbər lentlərinin qəribə transformasiyasını görür, təhtəlşüur nəsə deməyə çalışır, buna görə də dəhşətli kadrları göstərir. Beyin mənası hələ tam anlaşılmayan hansısa informasiyanı çatdırmağa çalışır.

Taşa ümid edir ki, bu payız bir neçə il öncəki payız kimi hər şeyi yoluna qoyacaq, hər şey necə olmalıdırsa, elə də olacaq.

Göydə quşlar süzürdü. Açıq, mavi səmada quşların yaratdığı qara haçalı zolaq. Taşa onların həmişə günəşli, isti, soyuq olmayan diyara uçduqlarına inanırdı. Bir zamanlar Bakıda, gün işığı ilə qı-

zan evlərində qalmaq istəyirdi. Hər gün dənizin seyrinə dalmaq. Gözü ilə dənizə toxuna bilər, qoxusunu içinə çəkər, xəyalən onun dərinliklərinə baş vura bilərdi. Bu dərinliklər bütün lazımsız emosiyaları özünə çəkər, ona isə daxili azadlıq bəxş edərdi. Bakının xüsusi qoxusu var. Deyilənə görə, neftin iyidir, lakin Taşaya görə, bu, rahatlığın, qayğısızlığın qoxusudur. Hava limanından çıxan kimi, bu havayla nəfəs alır və tamam fərqli adama çevrilirsən. Qəzəb, gərginlik, kədər yerini şənliyə və yüngül həyəcana verir. Taşa Heydər Əliyev adına hava limanından Bakının mərkəzinə doğru getməyi sevir. Cənub bitkiləri, əhəng daşından hörülmüş qəşəng hasarlar. Şərq nağılı burada sənə daha yaxın olur. Taşa şəhərə gələn kimi sevimli restoranına yollanır, qəhvə və ya çayla birlikdə şirniyyatlar və mütləq şəkərbura sifariş edir. Şəkərburanın şirin dadı onu məst edir. Sonra uzun müddət Nizami küçəsində dolaşır. Və bəxtiyar halda yatmağa yollanır...

Yəqin quşlar da xoşbəxtlik tapmaq üçün uçurlar. Uça-uça səs salırlar, sanki öz sevinclərini bölüşürlər. Quşlar boz səma altında üşüməyə məcbur olan adamlara gülürlər. İnsanlar onlar kimi azad deyil. İnsanlar öhdəlik və prinsiplər, nişan üzükləri, müqavilələr, sazişlər ilə özlərini məhdudlaşdırırlar. Saysız qorxu hissi onların əngəlinə çevrilib. İtirmək və yalnız qalmaq qorxusu insanların əl-qolunu daha da bərk bağlayır...

Taşa dərindən nəfəs aldı, nəzərlərini quşlara yönəltdi.

# Şəkərbura resepti



**Xəmir üçün:**
*300 ml süd*
*1 yumurta*
*250 qr əridilmiş yağ*
*3 xörək qaşığı xama*
*1 çay qaşığı quru maya*
*1 xörək qaşığı şəkər*
*5 ədəd hil (üyüdülmüş)*
*850 qr un*

**İç üçün:**
*Qoz – 500 qr.*
*Fındıq – 250 qr.*
*Badam -250 qr.*
Şəkər tozu – 1 kq
*Hil – 5 ədəd (üyüdülmüş)*

Badamı beş dəqiqə qaynar suda saxlamaq.
Ələkdən keçirib qabığını təmizləmək.
Badamı 100 C dərəcədə sobada tez-tez qarışdıraraq qurutmaq (qızartmayın).

Fındığı 10 dəqiqə ərzində 100 C qızdırılmış sobada qurutmaq (qızartmayın).

Ləpəni dəsmala büküb oxlovu üstündə elə gəzdirin ki, qabıqları çıxsın. Soyudun.

Qozu və soyudulmuş çərəzləri üyüdücü maşından (blenderdən) keçirin.

Onu şəkərlə qarışdırın.

Əridilmiş kərə yağını yumurta və ılıq südlə çalın, sonra maya, şəkər, hil və xama əlavə edin.

Sonra ələkdən keçirilmiş unu qarışdıraraq az-az əlavə edin. On beş dəqiqə qarışdırın. Xəmir hamar, bir az bərk, elastik olmalı, ələ yapışmamalıdır. Süfrəyə bürüyüb 20 dəqiqəlik kənara qoyun. Xəmir qabarmamalıdır, yoxsa üstünə vuracağınız naxışlar bişən vaxtı yox olacaq.

Xəmiri uzunasına yayıb hissələrə ayırın.

Hissələri kündələyin, hər kündə tennis topundan böyük olmamalıdır.

Kündəni balaca yumru formada yaymaq (ölçüsü təqribən 10x10 sm, qalınlığı 1 sm olmalıdır) və üstünü örtmək lazımdır.

Hər dairənin içinə 1 qaşıq iç qoyub qıraqlarını bükün.

Qıraqları vintşəkilli burun.

Üstünə müxtəlif naxışlar vurun.

160-180C istilikdə bişirin.

Hazır olub-olmamasını altını qaldırmaqla bilmək olar. Şəkərbura bərk, altı isə bir az qızarmış olmalıdır. Çox saxlasaz, şəkərbura quru olar.

Şəkərbura mütləq ağ qalmalı, qızılı rəng almamalıdır.



# Nar şirəsi

*Mən səni mələklərdən və özümdən də çox sevirdim, bu səbəbdən sənə onlardan daha çox uzağam. Sevgilərlə.*

*İosif Brodski*

Nar şirəsinin tünd rəngi dəhşətlidir. Axan qan kimi, ya da isti yay günündə batan günəş kimidir. Şirə axır, onun şirinliyini yalnız çətin və qarışıq yolları keçən kəs anlaya bilər. Qədim Qafqaz əfsanələrindən birinə görə, bir-birini sevən qızla oğlan varmış. Valideynləri onlara öz xeyir-dualarını vermişdilər. Nişanlanandan sonra gənclər müqəddəs yerləri ziyarət etməyə getdilər. Bu, ətrafda dolaşan şər qüvvələrin xoşuna gəlmədi. Və birdən dəhşətli qasırğa qopdu. Qasırğa sevgililəri doğma yerlərindən didərgin saldı. Onlar bir-birini səhrada tapdılar. Burada nə cığır görünür,

nə də quşların nəğməsi eşidilirdi. Nə yaşıllıq vardı, nə də şırıltılı çayların zümzüməsi. Evi tapmaq üçün uzun yol qət etdilər, amma əbəs yerə. Haldan düşmüş qız yatdı, oğlan isə gözlərini qapayanda nəsə gördü; bilmədi, bu yuxudur, yoxsa həqiqət – onun qarşısında bir nəfər dayanıb dedi:

– İkiniz birlikdə xilas ola bilməyəcəksiz, onu öldür və mən səni bu tilsimlənmiş yerdən çıxarım.

Gənc oğlan düşündü ki, əgər onlardan yalnız biri sağ qala biləcəksə, o zaman qoy sevgilisi yaşasın, ona görə xəncəri ürəyinə sancdı və ölərkən pıçıldadı:

– Xoşbəxt ol, ailə qur və dünyaya uşaqlar gətir.

Ancaq gənc oğlan ölmədi, o, nar ağacına çevrildi. Və qız ağlayaraq ağacdan nar dərdiyi vaxt tilsim sındı, o, evinə gedən yolu tapdı. Sevgilisinin arzu etdiyi kimi ailə qurdu, çoxlu övladı oldu. O, elə uzun ömür sürdü ki, hətta nəvələrinin nəvələrini gördü. Hamısına vəsiyyət etdi ki, nar ağacı əksinlər. Nəvələri bütün dünyaya yayıldı, nar ağacı da onları tərk etmədi. Onların yaşadıqları yerdə bitdi.

Beş il bundan qabaq tanış jurnallardan biri Taşadan xahiş etdi ki, həyatı qəribə şəkildə ölkədə baş verən faciələrlə çuğlaşan qadın barədə hekayə yazsın. Qadın federal telekanalda işləyirdi və bu əhvalatı uzun müddət hamıdan gizlədirdi. Lakin illər keçdikcə mühakimə olunmaq qorxusu onu tərk etmədi, qadının emosiyaları azadlığa çıxmağı tələb edirdi. Bir dəfə mətbəxdə söhbət əsnasında bu əhvalatı jurnalın redaktoruna danışdı, o isə bu əhvalatı paylaşmaq istədi.

Taşa əsas işindən əlavə boş vaxtında qadınların başına gələn əhvalatlardan bəhs edən hekayələr yazırdı. Bu hekayələrin baş qəhrəmanları, əsasən, aktrisalar, müğənnilər, cəsarət tələb edən peşələrlə məşğul olan qadınlar, bir sözlə, çətin şəraitdə sarsılmaz

ruh və güc nümayiş etdirən zərif cinsin nümayəndələri olurdular. Rubrika "Qadın taleləri" adlanırdı və Taşanın müsahibə əsasında aldığı məlumatları birinci şəxsin dilindən verdiyi hekayələrdən ibarət olurdu. Müsahibə yeddi saat davam etdi. Bu müddət ərzində onlar həm ağladılar, həm güldülər, iki şüşə şərab içdilər və rəfiqə kimi ayrıldılar. Bu müsahibə psixoanaliz seansına bənzəyirdi. Taşa onu xatırladı, çünki onun Qoşaya məhəbbəti artırdı, o isə bu duyğuları necə anlamalı olduğunu və onlarla necə yaşamalı olduğunu bilmirdi. Qoşaya olan məhəbbət özündə böyük simpatiya, balaca uşağa heyranlıq hisslərini birləşdirməklə yanaşı, Ruslana olan hisslərin proyeksiyası idi. O hisslər ki, çoxdan keçmişdə qalmalı idi. Amma onlar ağrılı şəkildə qanına nar şirəsi rəngli ümidlə axırdı. Nə vaxtsa, lap qocalıqda ona içində baş qaldıran fırtına barədə, xatirələrini, hər şeyi deyə biləcəyi ümidi idi o. Həmin köhnə məqaləni təkrar-təkrar oxuyurdu və öz qəhrəmanında öz analıq hisslərini tanıyırdı. Anlayırdı ki, sevgi elə möhtəşəm vergidir ki, zaman, məkan, ənənə, həyat və ölüm ona hökm edə bilməz.

**"PROJEKTOR" jurnalı, 34 nömrəli buraxılış, 21 sentyabr 2017-ci il.**

Kaş qanadlarım olardı... Heç nəyi çatdırmıram. Əlim rəfi gəzdi. Açarlar yoxdur. Tamaşanın başlanmasına yarım saatdan bir qədər çox vaxt qalıb, bu vaxt mənə bəs etmir. Moskvada saat yeddidə donan tıxacları bütün planları alt-üst etmək qabiliyyətindədir. Hanı açarlar? Axı, dəqiq yadımdadır: tələsik gəlib onları rəfə qoydum və paltarımı dəyişmək üçün yataq otağına keçdim. Əsəblərim tarıma çəkilib. Çatdırmasam, məndən inciyəcək. Mən onsuz da uşağı çox az-az görürəm, iş bütün günümü, gücümü, pozitiv enerjini əlimdən alır, oğlumun payına çətin efir günündən qalan yorğun halım düşür. Dayə oğlumu yeddiyə on beş dəqiqə qalmış gətirməlidir. Axı, bu açarlar hanı? Yataq otağına qaçdım. Bəlkə, tələsik onları

cibimə qoymuşam, sürüşüb düşdüyünü bilməmişəm... Dizi üstə oturub çarpayının altına baxdım. Budur! Açarların yanında üstündəki qalın toz qatına baxmayaraq parıldayan nə isə vardı. Yox, ola bilməz! O axı dörd il qabaq, mən bu mənzilə köçəndə itib. Balaca gümüş kulondan sanki hələ də Xəzər dənizinin, isti qutabların Mahaçkalanın isti tozunun qoxusu gəlir... Oktyabr ayında əlimdə uzaq yayın parçasını tutmuşam.

O yay çox kədərli yay idi, fikirlərim hələ cümlələrə çevrilə bilmirdi, hisslərim isə qəlbimi didən şübhələrlə savaşa çıxmışdı. Mənim iyirmi beş yaşım olardı. Sağlam ambisiyalar, ciddi sevgi və həyatda ilk qəti addımlar atmaq üçün ən uyğun yaş. Mən isə tarazlığımı itirmişdim. Tale xətti dəqiqliyi istədiyi qədər azaltdı, mən isə bundan sonra nə edəcəyimi bilmirdim. Həyat yoldaşımla ayrılıq dərdi məni söykənəcək və ağlaya biləcəyim daimi dayaq, möhkəm çiyin axtarmağa vadar edirdi. Ətrafdakı hər şey sanki nə isə bir reaksiya, depressiya, göz yaşları içində etiraf gözləyirdi. Mən isə getmək istəyirdim – uzağa, uzunmüddətli bir səfərə. Uzun müddət efirsiz heç olmasa bir neçə gün demək idi. Bir neçə gün mənim gündəlik həyatıma birbaşa aidiyyəti olan insanlardan əlaqəni kəsmək idi. Bunun üçün bəhanə tapmaq lazım idi. Elə bir bəhanə ki, işə yarasın və vacib olsun. Mən antiterror jurnalistikasını öyrənmək üçün Mərkəzə ezam olunmağı xahiş etdim. Əlimdə Mahaçkalaya olan, məni bu hisslərdən xilas edə biləcək biletim vardı. Təyyarədə dua edirdim, Allahdan diləyirdim ki, fikirlərimi başqa istiqamətə yönəltsin, özümə gələ bilim. Həmin səhər məndə elə bir hiss yarandı ki, sanki çiynimdə qanadlarım var. Mən uçuram, uçuş zolağından yuxarı qalxıram, sanki yuxarıda, Allahın yaxınlığında xilas yolu tapmaq mən daha asan olacaq. Günəşin şəfəqlərində üzən buludlar, yuxarı qalxdıqca uzaqlaşan problemlərlə dolu həyat və qanadları olan mən. Kədərli, yorğun, incidilən, lakin qanadlı, azadlığa can atan bir quş...

Kaş qanadlarım olardı... İndi... Moskvanın hay-küylü ballarında. Rusiya, yəqin Zoya Fyodorovna ilə teatr mərkəzi yaxınlığında dayanıb məni gözləyir. Mən isə hələ sürünməliyəm. Rusiya, mələyim mənim. O yay sən hələ yox idin. Əgər olsaydın, mən heç yerə getməzdim. Hərçənd... Sən daha gec gəlməli idin dünyaya... Həmin isti iyun günlərində yanına uçmaq üçün sən səmadan mənə qanadlar göndərdin.

Günlərlə yaşadığım isti yorğunluğun kəskin iyi, küçələrin boğucu qəmzəsi, şəhərin səliqəsiz görünüşü. Sanki kiməsə təmiz görünmək, səliqəli olmaq borcu yoxdur. O, çoxsaylı döngələrin birində rast gəldiyim qoca səfilə oxşayırdı. Onu taksinin pəncərəsindən gördüm. Ağarmış saqqalını sanki toz basıb, əynindəki paltarın forması yox idi. Yəqin ki, gənc vaxtlarında inanılmaz dərəcədə yaraşıqlı olub, onun sehrli qara gözləri güc və qüvvət enerjisi saçırdı. Şəhər asudə və qonaqpərvər idi, amma fikrən özgələri qəbul etmirdi. Mehmanxana, lüks nömrə. Müvəqqəti dislokasiya yeri, mənim mənəvi təcrid ərazim. Ətrafa səpələnmiş əşyalar və çiynimdəki qanadlar. Mən uçurdum. Ayaqqabıları çıxarıb yalın ayaqlarla yumşaq qum üzərində gəzməyə başladım. Xəzər dənizinin ılıq suyu ayaqlarımı oxşayırdı. Su ayağımı qıdıqlayırdı.

– Siz niyə tək gəzirsiz? Bu, təhlükəli ola bilər...

Mən çevrilib baxdım və qarşımda cavan bir o oğlanın dayandığını gördüm. Görünüşünə görə, yaşı iyirmini bir az keçmiş olardı.

– Mən qorxmuram, – dedim və bir anlıq özümü çox yaxşı hiss etdim, amma kimləsə söhbət etmək istəyim yox idi.

– Nahaq yerə... Qız. Təkcə. Sahildə. Bu, bizim qaydalara uyğun deyil.

– Bəs, sizin qaydalara uyğun olan nədir? – acılamamaq üçün özümü güclə saxlayırdım.

– Əvvəla, bizdə belə qısa donda gəzmək heç də xoş qarşılanmır. Adətən gəzməyə gələn hərbçilərin arvadları belə geyinirlər.

Biz bunu boş şey kimi qəbul edə bilmirik. Belə halda yoldaş tapmaq daha yaxşı olardı...

– Mənə yoldaş lazım deyil. Bura insanlardan qaçıb dincəlmək üçün gəlmişəm, yenilərini tapmaq üçün yox.

Mən söhbəti bitirməyə çalışırdım, ancaq gözlərimi ondan çəkə bilmirdim.

Orta boylu idi, bərk, zil qara rəngdə saçları vardı. Sanki qələmlə, ya da fırça ilə məharətlə çəkilən füsunkar mavi gözlər. O, inanılmaz dərəcədə yaraşıqlı idi. Bu yaraşıq adamı cəzb edirdi. Onun cazibədar gözləri asanlıqla qəlbimi ələ aldı. Və özümü itirdim. Getdikcə böyüyən qanadlarım ayaqlarımı yerdən qopardı. Mən hisslərin eyforiyasına qapılmışdım. Hiss edirdim ki, bu gün onun yanında qalacam...

Rəsul hüquq və tarix fakültəsini bitirmək üzrə olan tələbə idi. Duzlu dəniz havasını ciyərlərimizə çəkirdik və tezliklə ortaq mövzular tapdıq.

– Əlini mənə ver.

– Falıma baxmaq istəyirsən? – gülümsəyərək soruşdum.

– Yox. Heç bacarmıram da. Ver, – az qala pıçıltı ilə dedi.

Əlimi uzatdım. Əllərimi tutdu. Daha ondan qorxmurdum. Qətiyyən. Sanki milyon il tanıyırdım onu. Həmin an falıma baxsaydı, bəlkə hər şeyi görə bilərdi. Xəzərin qaçılmazlığını, gələcəyin dəyişdiyini, arzu olunanın mümkünsüzlüyü.

Bir-birimizə heç oxşamırdıq. Biz fərqli dillərdə dua edirdik, damarlarımızda fərqli qanlar axırdı. Mentalitet, ənənə və adətlər baxımından çox fərqli idik. O, tamamilə başqa cür idi, əvvəlki sevgilərimlə heç bir bənzərliyi yox idi. Məhz buna görə daha maraqlı idi. Qəlbinin dərinliklərində Rəsul hələ də gənclərə xas maksimalizmdən əziyyət çəkirdi. Biz nahardan sonra axşamın gəlişini xəbər edən havanı ciyərlərimizə çəkirdik, barmaqlarımızla qumda məzəli

şəkillər cızırdıq. Qanadlarım isə getdikcə böyüyürdü... Küçələrdə gəzib, şokoladlı və çiyələkli dondurma yediyimizi indiyədək xatırlayıram. Mən heç yerə tələsmirdim. Orada, sirli Dağıstan şəhərində heç kimə heç nə borclu deyildim. Məhz bu hissin ardıyca mən Moskvadan qaçdım. Soyuqqanlı, proqramlaşdırılmış Moskvadan.

Mahaçkalada vaxt başqa cür axırdı. Mən heç saata baxmırdım. Zaman adlı məfhum mənim vecsizliyimə cavab olaraq, çox asta keçirdi...

Rəsul mənə məscidi göstərdi. Möhtəşəm ağ bina. Nəcibliyi, lakonikliyi və genişliyi ilə adamı heyran edirdi. Təmiz mavi səma fonunda bu məscid açıqca kimi görünürdü.

Cümə məscidi Dağıstan Respublikasının mərkəzi məscidi idi, onu bu yaxınlarda – 1996-cı ildə inşa ediblər. Rəsul dedi ki, bu məscid İstanbuldakı Göy Məscidin nümunəsi əsasında tikilib. Tikili özünə yeddi min adamı sığdıra bilər. Yerli əhalidən başqa, yüzlərlə dindar namaz qılmaq üçün bu məscidə axışırdı. Gözlərimi məsciddən çəkə bilmirdim. Özgə, müqəddəs məkan məni heyrətləndirirdi. Rəsulun dinə öz yanaşması vardı. Onun Allaha inanmağı mənə ölkəmin içində yeni ölkə kəşf etməyə səbəb oldu.

– Biz Rusiyanı sizdən alacağıq, – söhbət əsnasında Rəsul dedi.

– Niyə? Belə böyük ölkə nəyinizə lazımdır? Öz respublikanız sizə bəs etmir? – qeyri-ciddi tərzdə soruşdum.

– İstəmirik ki, bizi federallar idarə etsin. Onlar bizi başa düşmürlər. Onlar hüquq-mühafizə orqanlarının zorakılığına haqq verirlər. Bizdə gecə kimisə evindən aparıb, bir daha onu geri qaytarmaya bilərlər... Siz ruslar bizim həyatımızı anlamırsız. Siz bizi idarə edə bilməzsiz.

– Rəsul... – mən deməyə söz axtarırdım, – sən haqlı deyilsən. Axı bizdə sizdəki kimi deyil. Bizdə partlayışlar olmur. İnsanları oğurlamırlar. Bağışla, amma mənə elə gəlir ki, bunda sizin barışmaz mövqeyiniz günahkardır. Ümumiyyətlə... – mən söhbəti

yüngülləşdirməyə cəhd edərək kinayə ilə dedim, – bu boyda ərazı sizin olsa, onunla nə edəcəksiz?

– Biz sizi idarə edəcəyik. Və siz düzgün yaşayacaqsız.

– İndiki yaşayışımızın nəyi səhvdir? – Rəsulun sözləri xətrimə dəymişdi. Özümə haqq qazandırmağa çalışırdım. Ancaq nə üçün belə olduğunu özüm də bilmirdim.

– Sizdə ailə institutu itirilib, sizdə çox şey doğru deyil... SİZİN dövlətdə bütövlük yoxdur. BİZDƏ inam var. Əsas odur. Ailədə də, siyasətdə də, düşüncədə də. BİZ hər yerdə və hər zaman Quran əsasında yaşayırıq. SİZ isə hərəniz öz qaydalarınıza əsasən yaşayırsız. SİZ Allaha inanırsız, amma kilsədən çıxan kimi, Allahın evindən on addım qıraqda günah əməllər edirsiz.

Mövzunu davam etdirmək istəmirdim. Mən yayın ortasında qızmar Dağıstana siyasət və ideologiyaya görə gəlməmişdim. Rəsula baxdım. Qürub edən günəşin şüaları onun üzünü işıqlandırırdı. İncə narıncı şüalar oturduğumuz ağacın budaqlarının arasından düşürdü. Parlaq işıq Rəsulun qarayanız üzünə düşürdü. Mən din barədə düşünmürdüm, mən ona bu cür gözləri bəxş edən tanrı barədə düşünürdüm. Dəniz rəngli, səma kimi gözlər. Mənə aydın olmayan siyasət nəyimə gərək? Bəlkə də jurnalist kimi bu sərt ifadələrə qarşı çıxmalı idim. Lakin istəmirdim. Qəti olaraq. Tamamilə. Rəsulun səsi getdikcə azalırdı, mən, demək olar ki, onu eşitmirdim. Sanki qanadlarım qulağıma "uç" deyə pıçıldayırdı. Və mən uçdum...

– Mən yorulmuşam. O qədər gəzmişik ki, uzanmaq istəyirəm. Uçuşdan sonra dincəlmədim heç. Ayaqlarım taqətdən düşüb, – Rəsulun sözünü kəsərək dedim.

– Sən harda qalırsan?

– "Lüksor"da. Kifayət qədər yaxşı oteldir. Nəyə görəsə daha pis olacağını gözləyirdim, – nazlana-nazlana dedim.

– Gedək, ötürüm səni, – sözləri əmr kimi səslənsə də, kişilərə

xas şəfqətlə səsləndi.

Biz mənim otelimə yollandıq. Nar şirəsi aldıq. Gecə yavaş-yavaş Mahaçkalanı öz ağuşuna alırdı. Və hər dəqiqə şəhər daha çox dəyişirdi. Dənizin iyi şəhəri məst edirdi. Dəniz sanki səmalara özündən bir parça bəxş etmək istəyirdi. Xəzərin dumanı bütün şəhərə, hər küçəsinə, hər abidəsinə, hər evinə və maşınına hökm edirdi. Biz əl-ələ tutub gəzirdik. Rəsul bütün adətləri pozurdu. Mən isə azad idim. Şərtilikdən azad idim. Ovucları barmaqlarımı zərif şəkildə sıxırdı. Özümü yad şəhərin sakini kimi hiss edirdim. Rəsuldan dağ çiçəklərinin və səhər mehinin ətri gəlirdi. Yorğunluğuma baxmayaraq, otelə gedən yolun mümkün qədər çox uzanmasını istəyirdim. Hər bir qadın həyatında müxtəlif kişilərlə rastlaşır. Amma hər birinin öz missiyası var – kimsə incitmək, kimsə öyrətmək, kimsə xəyanət etmək, kimsə yalnızlığına yoldaş olmaq və xilas etmək üçün qarşına çıxır... Əslində, həmin anda niyə Rəsulla əl-ələ gəzdiyimi başa düşmürdüm. Sözün düzü, mən heç gəzmirdim ki, mən uçurdum.

– Qalxmaq istəyirsən? – dodaqlarımdan qopan bu söz özümü belə təəccübləndirdi.

Rəsul diqqətlə baxdı. Dediklərimi sanki ölçüb-biçirdi.

– Sən səhv başa düşdün. Mənim çox yaxşı eyvanım var, orada çay içə bilərik. Məcburiyyət yoxdur, – pərtliyimi gizlətməyə çalışdım. – Gəzinti üçün təşəkkürlər.

– Mən başqa cür düşünməmişdim heç. Tək darıxarsan... Gedək,-dedi.

Pilləkənləri qalxanda o, telefonla danışırdı. Deyəsən, valideynlərinə zəng vurmuşdu. Dedi ki, bu gecə dostu gildə qalacaq. Dostuna maşınını təmir etməkdə kömək edəcək. Maraqlıdır, görəsən həmin gecə onu doğrudan dostu gözləyirdimi? Otaq isti idi, kondisioneri işə saldım. Resepşnə zəng vurub çat və şokolad sifariş etdik. Rəsul eyvana çıxdı. Mən isə gələndə ətrafa atdığım

əşyalarımı tez bir zamanda şkafa yerləşdirməyə çalışırdım. Mən yaranmış vəziyyəti təhlil etməməyə çalışırdım. Nə olacaqsa, olsun. Biz Moskvadan minlərlə kilometr uzaqdayıq. Bunun necə sonunclanacağının heç bir əhəmiyyəti yoxdur. Söhbət edərik, çay içərik. Nəticədə, mənim beynimi həmişə sağlam düşüncələr idarə edib. Lakin, qoy bu gün beynim sadəcə minimal təhlükəsizlik barədə düşünsün. Qürub edən günəşin son şüaları eyvanın taybatay açıq qapılarından otağa düşürdü. Mən Rəsulun yanına getdim.

– Birazdan çay gətirəcəklər. Ürəyim yaman çay istəyir.

– Qeyri-adi axşamdır, elə deyilmi? – Rəsul mənə tərəf döndü.

– Yəqin. Bilirsən, Brodskinin bir misrasında deyilir ki, havaya görə Yerin kənarı hər yerdir. Mənə elə gəlir ki, o məhz buradır.

Rəsul gülümsədi. Gülüşü isti və çoxmənalı idi. Bu gülüşdə xoşbəxtlik və nostalji, həyəcan və utancaqlıq, təkcə Yerin deyil, bütün kainatın kənarı bura olmasının təsdiqi öz əksini tapmışdı. Ona yaxınlaşdım. Əlimi dodaqlarına yaxınlaşdırdı. Dodaqlarını əllərimə toxundurdu, amma bunu öpüş adlandırmaq olmazdı. Bu, pərvanənin toxunuşu kimi o qədər yüngül idi ki, güclə hiss edilirdi. Rəsul mənə baxdı.

– Bilirsən, İslamda kişi və qadın münasibətini əl və göz arasındakı əlaqəyə bənzədirlər. Əl kişidir. Göz isə qadın. Əlin ağrıyanda, gözlər ağlayır. Gözlər ağlayanda isə əllər yaşları silir.

– Gözəl sözlərdir...

Qapı döyüldü. Gözlənilən an gəlib çatdı. Hesabı ödədim, sifarişləri eyvandakı kiçik masanın üzərinə qoymasını xahiş etdim. Rəsulun yanına qayıtdım.

– Sənin bu sözlərin, əslində bir az qəribə səslənir, çünki sizdə üç dəfə evlənmək olar.

– Hazırda belə adamlar azdır. Bu, daha çox sevgililəri olan imkanlı və vəzifəli şəxslərin bəraətidir. İkinci ailəyə bizdə nadir hallarda rast gəlinir.

– Bəs sən evlisən? – çəkinmədən soruşdum.

– Yox. Bəlkə gələn yay evli olacam. O vaxta institutu da bitirərəm. Valideynlərim mənim üçün birini taparlar. Şübhəsiz, avar millətindən olan bir qızla evlənəcəm. Bizdə hər şey sizdəki qədər sadə deyil.

– Bizdə də sadə heç nə yoxdur... – şokoladdan bir parça qopararaq onun sözünü kəsdim.

– Bizdə gərəkdir ki, bakirəliyi nikaha qədər qoruyasan, – bir qədər təkəbbürlə dedi.

– Prinsipcə, bizdə də.

– Məsələ də elə ondadır. Sizin bu prinsipinizə çox vaxt kimsə məhəl qoymur.

Sizdə belə... Bizdə belə... Əbədi mübahisə. Rəsul evli deyil. Bu, yaxşı xəbər idi. Bir qadın kimi buna şad idim. Niyəsini bilmirdim, amma elə idi. Mənim vicdanım rahat idi. Mən, özgəsinə aid kişi ilə deyildim. Bu da bir üstünlük. Hava getdikcə daha da qaralırdı. Çarpayının yanındakı gecə lampalarını yandırdım. Bu dəfə boğuq bir işıq otaqdan eyvana yayıldı. Biz oturub çox dadlı çay içirdik. Bəlkə də çay dadlı deyildi, sadəcə mənə elə gəlirdi. Birdən, küçədəki avtomobilin yüksək səsli siqnalı eşidildi, gözləmədiyim üçün dik atıldım, qaynar çay isə paltarıma töküldü. Çığırıb ayağa qalxdım. Rəsul yanıma gəldi.

– Sən yanmısan. Qorxulu deyil, amma qızarıb. Yağ sürtmək lazımdır, – dedi.

– Məndə yağ hardandır? – ayağımdakı ağrı getdikcə artırdı. – Bir dəqiqə, deyəsən çantamda aromatlı yağın qutusu olmalıdır. Mən ondan ətir kimi istifadə edirəm. Bəlkə kömək edər...

Otağa getdim. Yağı tapdım. Rəsul ardımca gəldi. Yağı açmağa çalışarkən Rəsul kürəyimdən öpdü.

– Yağı mənə ver, – dedi, – çarpayıya əyləş. Mən kömək edərəm.

Ayağımdakı yanığa krem çəkməsi üçün donumu bir qədər qaldırmalı idim. Rəsul kremi yanan hissəyə nəvazişlə çəkirdi. Ayağımın ağrımağına baxmayaraq, bu hiss möhtəşəm idi.

– İncidir?

– Bir az. Sənin toxunuşun keyidici kimi təsir etdi.

Rəsul yağı çarpayının yanındakı dolabçanın üstünə qoydu və mənim ayağımı öpdü. Yanımda əyləşdi. Onun gözləri. İlahi, bağışla, özümü saxlaya bilmədim. Mənim qanadlarım mələk qanadları deyildi. O, qadın qanadları idi. Günahkar və ehtiyatsız qadının. Barmaqlarını üzümdə, dodaqlarımda gəzdirdi.

– Bu, səndə heç vaxt olmayıb, elədir? Düzünü de, – cəsarətimi toplayaraq soruşdum.

– Yox. Heç vaxt. Buna heç yol verməzdim... Amma sən. Səni istəyirəm. Çox, – bu qırıq cümlələr beynimi söndürdü, bütün təhlükəsizlik tədbirlərini, qadağaları və hesabları alt-üst etdi.

Mən özüm dodaqlarımı onun dodaqlarına toxundurdum. O da intuitiv və cəsarətlə mənə qoşuldu. Məni özünə sıxdı, boynumu öpüşlərə qərq etdi. Donumun düyməsini açdı və o, sürüşüb yerə düşdü. Hər hüceyrəm onu hiss edirdi. Qanadlarım pırıldayırdı, mənə elə gəlirdi ki, başqa fəza yoxdur. Sadəcə mən və o mövcuddur. Onun gücü. Heyrətamiz gücü. Bəzən mənə elə gəlirdi ki, boğacaq məni, havam çatmırdı. Ancaq bədənimdə qaynar dalğalar cərəyan edirdi. Mənə hava lazım deyildi...

Qonşu maşında təxminən qırx yaşı olan işçi əsəbi şəkildə siqaret çəkirdi. Boşluğa gözünü zilləyib siqaretin tüstüsünü içinə çəkirdi. Yəqin, o da gecikir. Mənim yarım kilometr yolum qalmışdı. Rüstəm donacaq. Mənim birinci sinifdə oxuyan oğlum gödəkcəsinin altından nazik məktəbli köynəyi geyinib. Zoya Fyodorovna, təbii ki, öz-özlüyündə belə məsuliyyətsiz ananı danlayır, təkcə evə deyil, tamaşaya belə gecikən ananı tənqid edir. "Mələyin uçuşu"

– dəbdə olan ailəvi müzikldir. Mən çoxdan bu müziklə Rüstəmlə birlikdə getmək arzusunda idim. Rüstəm də bu axşamı uzun müddətdir ki, gözləyirdi. Nə dayanmısız? Hərəkət edin. Yaşıl işıq yandı. Teatrın yanında onları görmədim. Maşını park edib içəri qaçdım. Budur, mənim əzizlərim. Soyuqdan qaçıblar, afərin.

– Ana, bizi içəri buraxdılar. Özü də biletsiz. Biz donurduq, girişdəki dayıya dedik ki, sən mütləq gələcəksən, – Rüstəm mövcud vəziyyəti mənə izah etməyə çalışırdı

– Ağıllı balam, – Rüstəmi öpdüm. – Zoya Fyodorovna, çox sağ olun ki, gözlədiz. Tıxaclar, özünüz də başa düşürsüz, – mən əşyaları dayədən aldım və gözləməkdən bezmiş Zoya Fyodorovnanı evə buraxdım. Biz paltolarımızı qarderoba təhvil verdik və maraqlı tamaşa intizarında zaldakı yerlərimizi tutduq.

Mahaçkaladakı ilk səhərim xoşbəxtlik rayihəsi saçırdı. Daha doğrusu, xoşbəxtləyin iyinin necə olduğunu artıq bilirdim. Kofe və kökə. Gözümü açanda Rəsul artıq hər şeyi sifariş etmişdi, kofe ətri otel otağını ev kimi rahat bir yerə çevirirdi. Lap kinolardakı kimi. Belə olmur. Yəqin düşünürdüm ki, məğrur avar belə şeylərə qadir deyil. Mən nazik yay ədyalına bürünüb çarpayıda əyləşdim.

– Hardan bildin ki, kofeni sevirəm? – mənə espresso süzməyə çalışan Rəsuldan soruşdum.

– Moskvadan olan jurnalist başqa nəyi sevə bilər ki? Siz axı öz Moskvanızda bu dopinq olmadan yaşaya bilmirsiz, – fincanı mənə ötürdü. – Ehtiyatlı ol, yoxsa yenə yanarsan.

– Eybi yox, müalicə mənim xoşuma gəldi, – mən gülümsədim.

Rəsul kofe içməyimə baxırdı. İncəsənət əsərlərinə, balaca uşaqlara, dünya möcüzəsinə necə baxırlarsa, o da mənə elə baxırdı – heyrətlə, mərhəmətlə, özəlləşdirmək və qorumaq arzusu ilə. Onun sapfir rəngli gözləri üzərimdə gəzirdi. Kofeni içib kökələr olan masaya yaxınlaşdım, bir əlimlə əynimdən düşən ədyalı tutur-

dum. Rəsulun yanında dayanıb əlindəki kökədən bir diş götürdüm. Onun saçlarını düzəltmək istəyərkən ədyal yerə düşdü və məni çılpaq qoydu. Rəsul qarnımdan öpdü. Sonra qucağına alıb yatağa apardı. Həyatımdakı ən gözəl səhər belə davam etdi...

– Ana, tez başlayacaq? – Rüstəm səbirsizcə yerində fırlanırdı.

Sanki oğlumun sualına cavab olaraq musiqi – təntənəli yüksək notlar səsləndi. Pərdələr açıldı, otuza yaxın məsum və günahsız uşaq mələk paltarında səhnəyə daxil oldular. Onlar rəqsdə dövrə vurmağa başladılar. Ruslan aktyorlara diqqətlə baxırdı. Onların qanadları çəkisiz ağ lələklərdən düzəldilmişdi. Hərdən adama elə gəlirdi ki, onlar sanki uçurlar.

Biz rahat yerimizi ancaq nahardan sonra tərk etmək qərarına gəldik. Coşan həyatın saysız-hesabsız səsləri bizi küçəyə çıxardı. Çox isti idi. Mənim istiyə dözümüm yoxdur, özümü dərhal pis hiss etməyə başladım. Bürkü başımı gicəlləndirirdi, dikdaban ayaqqabı isə tezliklə ayaqlarımı yordu.

– Gedək, az qaldı. Bir az da səbr et. Sənə bir yer göstərmək istəyirəm, – Rəsul israrla dedi.

– Ümidvaram ki, bu qədər əziyyətə dəyər, – dedim.

Rəsul günəşin qızdırdığı alnımdan öpdü. Onun dodaqları sərin idi. Özümü daha yaxşı hiss etdim. Dolanbac yollardan keçərək ikimərtəbəli bina qarşısında dayandıq. Binanın birinci mərtəbəsi, lövhəyə əsasən, zərgər emalatxanası idi. Gənc oğlan lampanın işıqlandırdığı kiçik masanın üstündə diqqətlə işləyirdi. Gəncin adı Şamil idi, o, məşhur gümüş ustası sayılırdı. Öz respublikasının ən yaxşılarından biri hesab olunurdu. O, Rəsulla bir qrupda, hüquq fakültəsində oxuyurdu, boş vaxtlarında isə gümüşdən şedevrlər hazırlayırdı. Onun işlərini başqa cür adlandırmaq qeyri-mümkündür. Güllər, monoqramlar, mürəkkəb həndəsi kombinasiyalar. Belə bir şey yaratmaq üçün ideal görmə qabiliyyətinə və solaxay

adamın istedadına sahib olmaq lazımdır. Mən Şamilin işlərini nəzərdən keçirirdim, Rəsul isə zərgərlə nə isə müzakirə edirdi.

– Katya, sənin arzun var? – Rəsul soruşdu.

– Başa düşmədim... – fikrimi toplamağa macal tapmadım.

– Sən nə barədəsə xəyal qurursan?

– Hə, mən uçmaq istəyirəm. Dənizlər və yer üstündə uçmaq. Dünyanın bütün gözəllikləri üstündə, – gümüş əşyalara baxa-baxa cavab verdim.

Nəhayət, fikirlərim söz axınına yetişdi və mən dediyimi anladım. Cəfəngiyyat! Yəqin, gün dəyib, boş-boş şeylər danışıram. Açığı, iki gündür ki, kürəyimdə nə isə hiss edirəm və o, məni yerdən qoparmaq istəyir. Amma bütün bunları niyə ucadan səsləndirirəm ki?

– Aydındır, tapdım, – Rəsul pıçıltı ilə Şamilə nə isə izah etməyə başladı. Zərgər diqqətlə qulaq asırdı. Mən onları müşahidə edirdim. Otağın divarları sərin idi, başımı divara söykədim və elə ordaca yuxuya getdim. Göylərdən enən xəyallar pərdəsi məni başqa dünyaya apardı. Yuxuda inanılmaz təbiət gördüm. Nəhəng mavi göl ağ-yaşıl yarpaqları olan ağaclarla əhatələnmişdi. Suda qəribə balıqlar üzürdü. Onların sayı hədsiz çox idi. Müxtəlif rənglərdə olan bu balıqlar daha çox dəniz sakinlərinə bənzəyirdilər. Bu göldə çox cazibədar görünürdülər. Sahildə oturub onlara baxırdım. Balaca qırmızı balıq qəfildən sudan sıçrayıb mənə tərəf gəldi və dodaqlarımdan öpdü. Gözlərimi açdım. Rəsul üstümə əyilmişdi.

– Sən yuxuya getdin, əzizim, – o dedi, – gəl dənizə gedək.

Avtobusla Xəzər sahillərinə getdik. Uzaqdan dağların zirvəsi görünürdü. Qum üstündə oturduq, başımı onun çiyninə söykədim.

– Buranın möhtəşəm mənzərəsi var... Bu dəqiqdir ki, Yerin kənarı Mahaçkaladır, – Rəsula baxdım.

– Sahili sənə göstərmək istədim, bura reallıqla gələcəyin sərhəddidir. Su bütün pislikləri özünə götürür və təmizləyir. Rahatlıq

tapmaq istəyəndə bura gəlirəm.

– Bir neçə gün öncə özümü çox pis hiss edirdim. İndi elə yaxşıyam ki, izah edə bilmirəm, – mən üfüqdə göylərlə birləşən dənizə baxırdım.

– Mən də özümü sənlə olanda yaxşı hiss edirəm. Əgər qoca vaxtımda məndən ideal qadın tapıb-tapmadığımı soruşsalar, cavabım "hə" olar. Onun adı Katya idi, deyəcəm, – dodaqları ilə dodaqlarıma toxundu.

– Mən idealam? Mən adi insanam, – bir anlıq gözlərimi yumub onu öpdüm.

Rəsul aralanıb cibindən kiçik kisə çıxardı, kisədən kiçik gümüş kulon əlinə düşdü. Bu, ortada birləşən iki qanad idi.

– Uç və heç vaxt qorxma. Söz verirəm ki, həyatında hər şey yaxşı olacaq. Hər halda, sənin hamıdan xoşbəxt olmağını səmimi qəlbdən arzu edirəm. Unutma ki, hamının qanadları var. Bu qanadları tanrı bəxş edib. Onlardan istifadə etməyi vaxtında bilmək lazımdır. Çətinlik qarşısında qalanda tarazlığı itirmə. Öz xoşbəxtliyinin ardınca uç.

– Sabah geri uçuram. Səhər səkkizdə təyyarə qalxır... – bir qədər ara verdim. – Getmək istəmirəm. Burada qalmaq istəyirəm. Səninlə.

– Bu qeyri-mümkündür. Sən burada yaşaya bilməzsən. Üstəlik, bağışla, mən valideynlərimin istəklərinə qarşı çıxa bilmərəm. Mən də səni buraxmaq istəmirəm. Ancaq, başa düş ki, bizim ortaq gələcəyimiz ola bilməz. Hərəmizin öz yolu var. Bu yollar paralel xətlər kimidir, onlar heç vaxt qovuşmayacaq. Ən yaxşısı da elə budur. Sən zamanla bunu anlayacaqsan.

Tamaşa Rüstəmin çox xoşuna gəlirdi. O, mən tərəfə heç baxmırdı. Qəflətən musiqi kəsildi, işıqlar bir neçə saniyəlik söndü. Sonra yenidən yandı. Səhnədə qara maskalı qəribə adamlar pey-

da oldular. Heç nə başa düşmürdüm. Bu nədir, ssenari? Rejissor fantaziyaları? Hamıya telefonları söndürmək, olduqları yerdə qalmaq əmri verildi. Soyuq titrəmə belimdən qalxaraq başıma vurdu. Mən ömrümdə ilk dəfə ölüm təhlükəsi hiss etdim. Həyat və ölümün kəsişdiyi an. Nə etməli? Nəsə etmək istəyirəm. Zalda qara maskalı və silahlı adamların sayı çoxalırdı. Bu yuxudur, dəhşətli yuxu. Özümü çimdikləsəm ayılacam, hər şey yox olacaq. Ağlayan insanlar, vahimə... Bu həyəcan heç nə ilə müqayisə edilə bilməz. Hər şey yavaşıldılmış kinodur sanki.

Həmin sonuncu gecə dözülməz idi. Bilmirəm, otaqda kondisioner işləyirdi deyə soyuq idi, ya məni üşütmə tutmuşdu. O, məni özünə sıxdı. Rəsulun hər hərəkətində snayper dəqiqliyi, hər toxunuşunda mənə duyulurdu. Fiziki həzz və ürək nahiyəsindəki ağrı. Orada qəlbim üsyan edirdi. O qəlb ki, onsuz yaşamaq istəmirdi. İndiyə kimi sevginin nə olduğunu bilmədiyimi anladım. Amma qanadların olduğunu, bu qanadların məni raketlərdən, təyyarələrdən, ulduzlardan və aydan daha yuxarı qaldırdığını hiss edirəm. Mən ondan tutub asılmağa çalışırdım. İnanırdım ki, üzümüzə açılan səhər hər şey dəyişəcək və mən burada qalacam. Gözümdən yaş iri damlalarla axırdı. Göz yaşları dodaqlarıma axırdı və mən Rəsulu duzlu öpüşlərə qərq edirdim. O isə sevgimizin son akkordunda deyilə biləcək bütün gözəl sözləri pıçıldayırdı.

Mən Ruslana baxdım. İlahi, kaş o, heç nə başa düşməyə. Qoy elə bilsin ki, tamaşanın bir hissəsidir. Elə bilsin ki, belə qeyri-adi tamaşadır. Rusya diqqətlə mənim reaksiyamı gözləyirdi. Uşaqlara xas açıq nəzərlərini mənə zilləmişdi. Əllərim əsirdi. Durub qaçmaq istəyirdim. Bəlkə, bizi heç kim görməz, burada axı çox adam yoxdur. Zaldakı bir neçə adam məhz belə etdi. Ayağa qalxıb qaçmağa cəhd etdilər. Onları qəddarca dayandırıb yerlərinə qaytardılar. Hələ hamı affekt halında idi, donmuşdular, baş verənlərin nə ol-

duğunu tam anlaya bilmirdilər. Bu, əsir almaq idi. Bu mövzunu bir neçə dəfə tədqiq edən biri kimi pazzlın hissələrini tamamlayıb vəziyyəti qiymətləndirə bilmişdim. Bilirdim ki, buradan çıxış yoxdur. Daha heç nə bizdən asılı deyil. Sadəcə dua edə bilərik. Və dodaqlar "Atamız bizim" duasını avtomatik oxumağa başladı. Rüstəmin balaca əllərindən tutdum. O an başa düşdüm ki, sağ qalmaqdan özgə heç nə istəmirəm. Həyat ülgüc qırağı kimi iti düz xəttə çevrilmişdi, bütün ağrılara və qorxulara baxmayaraq bu yolu getmək gərəkdir.

Səhər əşyalarımı çantaya yerləşdirərkən qəsdən ləng hərəkət edirdim. Rəsula baxanda pəncərəyə sarı çevrildi, özünü elə apardı ki, guya tamam başqa bir şey haqda düşünür. Sübh çağı idi, eyvandan sərin meh otağa süzülürdü.

– Səni nə vaxtsa görəcəm? – ondan soruşdum.

– Əgər sağ qalsaq...

– Bu nə axmaq sözlərdir? Əlbəttə, sağ qalacağıq, biz hələ çox gəncik, bütün həyatımız qarşıdadır, biz çox şey edə bilərik...

– Nə qədər yaşayacağımızı heç kim bilmir, - Rəsul arzularımı susdurdu. – Səni sevirəm, - yaxınlaşıb məni öpməyə başladı. Onun nəfəsi cəzbedici idi, o qədər canlı idi ki, ölüm haqqında düşünmək belə istəmirdim. Doğma adam idi, məni anlayan, təsəlli olan yeganə adam, onunla, sonsuz güvəndiyim adamla birlikdə qocalmaq istərdim. Rəsulu qucaqladım. Burnumu çiynində gizlətdim:

– Hava limanına gedək, vaxtdır.

Təyyarəyə tərəf gedərkən ona baxmadım. Tab gətirə bilməyəcəyimdən qorxurdum. Pambığa dönmüş ayaqlarımla addımlarımı sayırdım. Bir, iki, üç, dörd... Qəlbimi Mahaçkalada qoyub gedirdim, boynumdan isə bir cüt qanad asılmışdı. Və mən uçdum... Jurnalistika mərkəzinə baş çəkməyi belə unutdum. Bağışlayarlar, yəqin.

Artıq neçə saatdır ki, zal susurdu. Məzar səssizliyində yalnız

terroristlərin addımlarının səsi eşidilirdi. Danışıqlar çox ləng gedirdi. Ya da yox. Danışığı onlar düzgün aparılmırdılar. Bu, insanlığa meydanoxuma idi. Onun hədəfi yoxdur. Siyasətçilər, deputatlar və hətta teatr səhnəsi önünə toplaşan aktyorlar da kompromis tapmağa çalışırdılar. Hansı kompromis...? Terrorçular çox şey tələb edirdilər. Siz isə bütün bunları onlara verən deyilsiz. Rüstəm zorakılığı görürdü, bunun tamaşa olmadığını başa düşürdü. Zalın qaranlığı əsəblərə güclü təzyiq göstərirdi. Yuxu. Bu yuxudur. Hər şey sonlanacaq. Rusya, əzizim, bir az səbr et, biz buradan sağ çıxacağıq. Qorxma. Allahım, bağışla məni. Bağışla. Rəhm et, əfv et, qoru.

– Ana, su istəyirəm.

Çantada nəsə axtarsam, görəcəklər. Nə fikirləşəcəklər, kim bilir.

– Rusya, döz bir az, – deyə pıçıldadım.

– Mən su istəyirəm. Xahiş edirəm. Ver.

Su şüşəsini çantadan götürməyə cəhd etdim. İki nəfər dərhal bizə yaxınlaşdı.

– Yaşamaq istəyirsizsə, çantanı yerə qoyun, – onlardan biri yüngül ləhcəsi ilə rusca xəbərdarlıq etdi.

Mexaniki olaraq çantanı kənara qoydum. İkincisi diqqətlə mənə baxırdı. Bu səbəbdən də damarlarımdakı qan dondu. İlahi, sən özün kömək ol. Mən daha yaxşı olacam. Nə isə et. Qara gödəkçə və qorxulu maskası olan kişi isə mənə baxmaqda davam edirdi. Çantamı atmağı tələb edən o biri də bu kişinin niyə mənə belə diqqətlə baxdığını anlaya bilmirdi. O, sıra ilə mənə, Rüstəmə, sonra yenidən mənə baxdı. "Oğluma dəyməyin. Buraxın bizi" düşüncə tərzi ilə siqnallar ötürməyə çalışırdım. Bu adama baxa bilmirəm, nəzərlərimi ona yönəldə bilmirəm. Birdən heç düşünmədən öldürər, atəş açar. Dərindən nəfəs alıb düz gözlərinin içinə baxdım. Qoy nə düşündüyümü gözlərimdən oxusun. Daha

heç nəyin əhəmiyyəti yoxdur, müdafiə olunmaq lazımdır, başqa yol yoxdur. Və bizim baxışlarımız toqquşur. O gözlərdə düşündüyüm aqressiya yoxdur. Onun gözlərində qəzəb yoxdur. Onun əqiq kimi qapqara gözlərinin olacağını düşündüm. Zülmət kimi qara rəngli, ölüm rəngli gözlər xəyalımda canlandı. Amma... Yox, bu ola bilməz. İxtiyarsız olaraq gözlərimi qapadım və yenidən açdım. Bu gözlər Xəzər sahilində gördüyüm, keçmişin xəyalı olan həmin gözlər idi.

O, yanında dayanan adama sarı döndü.

– Bu qadın beynəlxalq ictimai təşkilatın nümayəndəsidir. Onu tanıyıram. Onu və oğlunu buraxmalıyıq.

Elə bu vaxt zala terroristlərin danışıqlar aparmaq üçün gəlişinə razılıq verdikləri xalq artisti daxil oldu. Əla fürsətdi. Dəhlizdən keçərək binadan çıxarıldıq. Əvvəlcə biz. Bu xoşbəxtlikdir. Mühasirə, təcili yardım, qorxu – hamısı hansısa dəhşətli filmin kadrlarına bənzəyirdi... Biz maşına mindik. Xüsusi xidmət əməkdaşları bizə yaxınlaşdılar, suallar verdilər. Nə qədər adam var, hardadırlar və başqa suallar. Mən suallara mexaniki olaraq cavab verirdim. “Siz dünyaya köynəkdə gəlmisiz”, – kimsə dedi. Telefonu götürmək üçün əlimi cibimə saldım. Anama zəng vurub sağ olduğumuzu xəbər verməliydim... Telefonla birlikdə bugünkü həyati qənimətim olan kulon da cibimdən düşdü. Qanadlar... Mən yenə uçdum... Bu dəfə ölümün caynağından. Sonradan gördüklərim televizor ekranındakı triller janrında olan filmləri xatırladırdı.

Xəbər xidmətlərinin təfərrüatlı izahları ürək parçalayırdı. Mən Rusyanı anamın yanına apardım, özüm isə televizor qarşısında oturub baxırdım. Baxıb və hönkürtü ilə ağlayırdım. Ölümlə üz-üzə qaldığım üçün deyil, mənim və oğlumun aqibətinin zalda qalan və xilas ola bilməyən onlarla adam kimi ola biləcəyi üçün də deyil. Mən terroristlərin heç birinin sağ qalmadığını xəbər verən muxbirin sözlərindən ağlayırdım. Heç kim. Onlara nifrət

edirdilər. Onlar öldülər, qətlə yetirildilər, partladıldılar. Nə fərqi? Onlar düşməndilər. Milyonların düşməni. Mənim oğlumu öldürə biləcək qədər qatillər idi. Xilasetmə əməliyyatı, qazdan istifadə... Teatrın işıqları, ağlayan qadınlar və analar...

Mən bir həftə divanda uzanıb qaldım, demək olar ki, heç nə yemirdim, özümə gələ bilmirdim. Bütün dünyaya nifrət edirdim, mən bunu anlamırdım ki, müharibə qartalları yenə sülh göyərçinlərinə qalib gəldilər. Yenə kimsə Yer kürəsindən nə isə qopartmaq, neft mədənləri ələ keçirmək istəyir... Kimə nəyin lazım olduğunu bilmirəm. Ən əsası, onun hansı şəraitdə orada olmasını heç vaxt bilməyəcəm... O daha yoxdur. Sağ qalanlar arasında adı çəkilmirdi. Bilirəm, oradan heç kim sağ çıxmadı. Ürəyim bulanırdı. Acından, stressdən yox, çarəsizlikdən düşkün hal keçirirdim.

Yeddi il qabaq çox çətin avqust ayını yaşadım. İşləyə bilmirdim, toksikoz xəstəliyi məni çox narahat edirdi. Dözülməz idi. Efirdə verilişləri apara bilmirdim, ürəyim bulanırdı. Hər dəfə iş prosesini dayandırmalı olurdum. Rüstəm mənim sürətli ritmimə qarşı çıxırdı və daxilən məni istirahət etməyə məcbur edirdi. Amma mən fasiləsiz işləyirdim, əks halda dəli olardım. Mahaçkalaya qayıtmaq hissi dözülməz idi.

Yaz tətilində Rüstəmlə birlikdə Moskvanı tərk etdik. İki saatlıq uçuş.

– Dənizə gedək, – çemodanları yerbəyer edərkən dedim.

Biz Rusya ilə dənizin dağlara qovuşduğu, üfüq xəttinin daha aydın göründüyü, iki fəzanın – keçmişin və gələcəyin kəsişdiyi yerə gəldik. Boynumdakı kulonu çıxarıb qanadları oğlumun boynuna taxdım. Onun açıq-mavi gözlərində buludsuz Dağıstan səması əks olunmuşdu. Rəsul, əgər məni eşidirsənsə...

*Füsunkar Xəzərin sahillərində*
*başımıza gələn olaylar*
*qaçılmaz bir həqiqət,*
*yaddaşıma hopan*
*bir röya.*
*Müxtəlif dillərdə yalvarırdıq,*
*müxtəlif dillərdə dua edirdik*
*sən Allaha, mən İsaya.*
*O zaman bir deyildik hələ,*
*həyatda ömürlük bir olmaq üçün,*
*gözlərimizdə ləpələnən dumanı*
*dağıtmaq üçün,*
*tarixən əjdadlarımızın*
*damarlarında çağlayan qana*
*müxtəlif dillərdə dua edirdik,*
*and içirdik, yalvarırdıq*
*sən Allaha, mən İsaya.*
*O zaman, o vaxt bilmirdik,*
*inanmaq istəmirdik,*
*iki yarımçıq taleyin uyğunsuzluğuna.*
*Sənin temperamentin,*
*mənim sadəlövh qəlbimdən qopan*
*ehtiyatsız sözlərimin açıqlığı*
*dumanlandırdı məhəbbətin kor gözlərini.*
*O zaman, o vaxt dönmədən, usanmadan*
*müxtəlif dillərdə dua edirdik, yalvarırdıq*
*Sən Allaha, mən İsaya...*

# Nar şirəsinin hazırlanması



**Tərkibi:**
Nar – 1 kq
Su – 250 ml
Şəkər, zövqə görə

Əvvəlcə, narları su altında yaxşıca yuyun. Sonra, təmiz narları taxtanın üzərinə qoyun (meyvələri qurutmağa ehtiyac yoxdur).

Sonra onları yarıya bölün, dərin qaba yerləşdirin və təmiz əllərlə səliqə ilə narı dənələyin. Nar dənələrini ağ nazik qat-membrandan keçirin.

Dənələri sıxma lazımdır. Amma bunun üçün əl əməyindən yox, blenderdən istifadə edin.

Diqqət: dənələri çox sıxmaq lazım deyil, buna bir neçə saniyə kifayətdir, yoxsa şirə dadlı olmaz. Xırdalanmış toxumları ələkdən keçirin ki, bərk çəyirdəklərdən azad olasız.

Növbəti mərhələ – şəkərin əlavə edilməsidir. Nar çox turş olduğu üçün şəkər mütləq əlavə edilməlidir (şəkəri zövqə görə əlavə edirik, lakin ən optimal variant – 4 stəkan qatılaşdırılmış şirəyə 1 stəkan şəkər əlavə olunmalıdır).

Bütün bunları qarışdırıb su əlavə edin (hər nara 250 ml su lazımdır). Yenə hamısını qarışdırıb qaynama həddinə çatdırın. Ancaq qaynatmayın. Şirəni bankalara doldurub ağzını bağlayın.

# Dolma

Qələm kağız üzərində süzərək yavaş-yavaş tanış cizgiləri ortaya çıxarırdı. Ərinin gözəl badamı gözlərini həmişə daha yaxşı çəkərdi. Uşaq vaxtı rəssamlıq məktəbində oxuyanda müəllimi tez-tez deyərdi:

– Leyla, xətləri hiss et. Xətlər sənin yaradıcılıq səsindir. Əllərin, rəsmlərin sənin şəxsi ifadəndir. Qanunlar, qaydalar səmimiyyət qədər əhəmiyyətli deyil. Kağız süniliyi qəbul etmir. Onunla səmimi ol.

Uşaqlar nahardan sonra günorta yuxusundadır. Deməli, sevimli işlə məşğul olmaq üçün hələ bir neçə saat var. Şəkillər həmişə qəmgin xəyalları qovur. Son zamanlar həmişəkindən daha çox valideynlərini görmək istəyir. Evə, doğma Bakıya qayıtmaq istəyir. Bura – Divqorod sakit, dinc, özünə görə rahatdır. Ancaq çox tənhadır. Əri həmişə işdə, səfərlərdə, ezamiyyətlərdədir. Tanışlar azdır, dostlar isə, demək olar ki, yoxdur. Buradakı rəfiqələri də Divqoroda həyat yoldaşlarının işlə bağlı məsələlərinə görə gəliblər, diaspora vasitəçiliyi ilə əlaqə qururlar. Onlar evdən nadir hallarda

çıxırlar. Uşaqlarını da bayıra çıxarmırlar. Leyla isə rəsm çəkmək, sərgilərə getmək, yeni texniki üsullar öyrənmək istəyir. Ancaq Ukraynanın qərbində yerləşən bu kiçik şəhərdə bütün bunları həyata keçirmək qəliz məsələdir. Üstəlik təsərrüfat işləri, yemək hazırlamaq, iki oğlana və əlavə iki itə qulluq etmək var, sənin isə cəmi iyirmi iki yaşın var.

Molberti götürüb qəsrləri çəkməyə yollanasan. Ya da Zakarpatyenin əsrarəngiz təbiətini kətana köçürəsən. Divqorod kiçik rayon mərkəzidir. Amma təbiəti füsunkardır. Zakarpatye müxtəlif mədəniyyət və ənənələrin bir-birinə qovuşduğu gözəl diyardır. Zəngin tarixi, uca dağları və Qafqaz kimi qonaqpərvərdir. Leyla ilk dəfə bura gələndə kiçik şəhərcikdə bu qədər görməli yerin olduğunu ağlına belə, gətirməzdi. Qədim qala, çoxsaylı muzeylər, botanika bağı və sahil. Şəhər ayrı-ayrı tarixi dövrlərdə Çexoslovakiyanın və Macarıstanın hakimiyyəti altında olub. Bu da öz izini qoyub. Divqorod ilin istənilən vaxtı möhtəşəmdir. Məsələn, yazda sakura ağacının çiçəkləməsini görərsən. Ətrafda qalalar çoxdur – Divqorod, Nevis, Mukaçev qalalarının hər birini Leyla kətana köçürməyi arzulayır. Bunun üçün çox vaxt tələb olunur. Gənc ananın isə bu qədər vaxtı yoxdur. Mukaçevodakı Polanok qalası Leylanı heyran etmişdi. Təpə üstündə tikildiyi üçün onun gözəlliyinə gözəllik qatır. Ukrayna Karpatının ən hündür dağı Qoverla... Günəşli havada dağa çıxsaz, şimaldan İvano-Frankovsk və Kolomiyanı, cənubda rumın Sıqit və Pop İvanı, qərbdə Petrosu, cənub-şərqdə isə Çernoqorun zirvəsini aydın görə bilərsiz. Leylanın rəssam ürəyi Nərgiz vadisinə biganə qala bilməzdi. O, Xustdan bir qədər aralıqda yerləşir. Təbiətdə belə yerlər getdikcə azalır, onlara Alp dağlarında, Rumınyanın dağlıq rayonlarında, bəzi Balkan ölkələrində rast gəlmək olar, amma sahəsi çox kiçikdir. Keçən ilin may ayında onlar ailəvi olaraq həmin bölgəyə getmişdilər. Nərgizgülü hələ təzə-təzə çiçək açırdı. Adətən mayın ortalarında çiçək

açırlar, amma həmin yazda havalar isti keçdiyindən vaxtından əvvəl dünyanı gözəlləşdirmək qərarına gəliblər. Ana təbiət necə boyalar seçir! Zakarpatye parıldayır, işıq saçır! Dağlarla, meşələrlə əhatələnmiş Sinevir gölü o qədər şəffafdır ki, gölün dibini görmək mümkündür. Bir vaxtlar göl ətrafında tanış olan kişi ilə qadının sonsuz məhəbbəti yavaş-yavaş əfsanəyə çevrilir.

Qızın həyat yoldaşı ilə tanışlıq hekayəsi romantik çalarlardan məhrumdur. Onun yenicə 18 yaşı tamam olmuşdu. Atası ona çox yaxşı bir adamın elçi düşdüyünü və onların tezliklə tanış olacaqlarını dedi. Atasının şəhərətrafı qəsəbədə yaşayan dostu öz oğlu üçün ona elçi düşmüşdü. Düzdür, Azərbaycan müasirləşir, ancaq bir çox köhnə ənənələr hələ də qalır.  Yüz illər boyu əsası qoyulmuş adətləri olduğu kimi qoruyub saxlamaq qəliz məsələdir. Ancaq ənənələrin məğzi dəyişməz olaraq qalırdı, bütün vacib hadisələr tarixi köklərə söykənir. Xüsusilə də ailə həyatı, nikah ilə bağlı ənənələr. Bəli, nənələrimiz və ulu nənələrimiz üçün həyat daha çətin olub. Adətlər daha ağır idi, qadınlar çətinliklərlə rastlaşırdılar. Qədim zamanlarda nikah sadəcə qadınla kişi arasında ittifaq demək deyildi. O, ailələrin qohumluğu demək idi. Oğlunun kimlə evlənəcəyinə valideynlər qərar verirdilər. Bəzən bu qərar uşaqlar hələ körpə ikən verilirdi. Göbək-kəsdi adlanan bu mərasim adətən bir-biriylə çox yaxın olan ailələr arasında baş tuturdu. Bəzən elə olurdu ki, valideynlər bəyəndikləri qızın şəklini oğlana göstərirdilər. O, gələcək həyat yoldaşını uzaqdan müşahidə edir, yalnız toy günü tanış olmağa macal tapırdı. Bəzən də gənc oğlan evlənəcəyi qızı özü seçirdi. O zaman bu barədə valideynlərinə xəbər verirdi. Bundan sonra elçiliyin digər mərhələsinə keçid edirlər. Oğlanın valideynləri tanış olmaq üçün qız evinə yollanırlar. Amma, təbii ki, getməzdən əvvəl qız və ailəsi haqqında ətraflı məlumat öyrənirlər. Adətən, oğlan evinin qadın üzvləri öncədən qız evinə yaxın olan adamlardan qız evi barədə informasiya toplayırdılar.



Qızgörmə – qıza baxırlar. Qızbəyənmə – razılıq. Əgər qadınlar bu izdivaca razılıq verirdilərsə, məsələnin növbəti mərhələsinə kişilər qoşulurlar. Elçilik – kişilərdən yaşca ən böyüyü söhbətə başlayır, məqamı yetişəndə gəlişinin məqsədi barədə məlumat verir. Qızın özü bu vaxt evdə olmamalı idi. Adətən, qızı elçilikdən qabaq aparır, elçilikdən sonra evə qaytarırdılar. Xalq bu prosesi müxtəlif əlamətlərlə daha da qəlizləşdirirdi. Məsələn, alatoranlıqda elçi getmək olmaz, elçilik vaxtı ilk çayı içmək olmaz və başqa bu kimi əlamətlər.Yeri gəlmişkən, qızın valideynləri fikirləşmək üçün vaxt ala bilərdilər, bu qiyməti qaldırmaq məqsədi güdürdü. “Başlıq” adlanan bu adət bu günümüzdə aktual deyil. “Başlıq” oğlan evinin qız evinə ödədiyi müəyyən məbləğdir. Sovet vaxtlarında başlıq almaq qanunla qadağan edildi.

Leyla həmişə sakit qız olub. Odur ki, atası özü bu məsələni həll etmək qərarına gəldi. Əlbəttə, qızın fikri də nəzərə alınacaqdı, kimsə onu zorla ərə vermək niyyətində deyildi. Leylanın gələcək həyat yoldaşı Yeni il ərəfəsində onu parka gəzməyə dəvət etdi.

– Nə ilə məşğul olursan? – o, söhbətə başlamaq üçün gülümsəyərək soruşdu.

– Şəkil çəkirəm. Rəssamlıq texnikumunda oxuyuram. Rəssam-dekorator olmaq istəyirəm.

– Mənim şəklimi çəkə bilərsən? – diqqətlə Leylanın gözlərinə baxdı.

– Əlbəttə, – cəsarətlə dedi. Leyla ondan qətiyyən çəkinmirdi. Ruslan ondan on yaş böyük idi deyə Leyla onu yaşlı kişi hesab edirdi. Lakin sevgi və əmin-amanlıq şəraitində böyümüş Leyla sakit qız olsa da, fikirlərini açıq şəkildə söyləyirdi.

Həmin gün ilk dəfə Ruslanın şəklini çəkdi. Yaxşı ki, yanında qələm və dəftərçə vardı. Bacardığı kimi çəkdi. Ruslan şəkli bəyəndi. Leyla kağız parçası üzərində gələcək ərinin şəklini həkk etməyə çalışarkən Ruslan onu süzürdü. Zərif, incə, xoşsifət Leyla, şübhəsiz,

onun xoşuna gəlmişdi. Həyat yoldaşı roluna çox yaraşırdı. Yemək bişirə bilir, uşaqları sevir. Leyla şəkil çəkə-çəkə öz arzuları barədə danışır, üç övladının – iki oğlunun, bir qızının olmasını istədiyini bildirmişdi. Bu arzular onun üzündə təbəssüm yaradırdı. Və Ruslan seçiminin doğru olduğuna bir daha əmin oldu.

Leyla üçün çox düzgün nümunə var idi. Onun ailəsi. Anasıyla atasını da onların valideynləri tanış edib, otuz il bir yastığa baş qoyublar. Onların arasında çox şey baş vermişdi, lakin Leyla onların bir-birini sevdiyinə, qayğı göstərdiyinə, dəyər verdiklərinə əmin idi. Bu sevgidən beş övlad dünyaya gəlmişdi. Leyla atasının yeganə qızı, anasının köməkçisi idi. Atası onu tez ərə vermək istəyirdi. Ruslan yaxşı namizəd idi. Gənc sahibkar tanış ailədəndir, uğurlu, qürurlu və imkanlıdır. Evi, maşını, şəxsi ofisi var. Niyə də olmasın..?

Toy çalındı, Ruslanın evinə köçdülər. İlk övladı dünyaya gələnə qədər hər şey yaxşı idi. Doqquz aylıq harmoniya və qayğı. Əri övladının yolunu səbirsizliklə gözləyirdi, arvadının hər istəyini yerinə yetirirdi...

İlk vaxtlar aralarında anlaşılmazlıqlar olurdu. Bir-birlərini anlamağı, kömək etməyi və məqamında susmağı öyrənirdilər. Ehtiras kitablardakı kimi deyildi. Leylanın Ruslanın istədiyi qədər azad olmağa cəsarəti çatmırdı. Hələ bu hamiləlik, uşaq barədə fikirlər... Ruslana lazımi diqqət yetirilmirdi. Ruslan hər gününü son gün kimi keçirən, ona daim diqqət göstərən qadın axtarırdı. Ömərin iki yaşı tamam olanda Ruslan Leyladan uzaqlaşmağa başladı. Uzunmüddətli ezamiyyətlərə yollanırdı. Gecələri öz kabinetində qalırdı. Leyla bu soyuq küləklərin səbəbsiz olduğunu anlayırdı.

– O, məni sevmir, – Leyla anasına dedi. – Mənimlə danışmır. Bütün günü körpə uşaqla evdə təkəm. O isə dostları ilə görüşür, Türkiyədəki zavoda baş çəkir. Məndən qaçmağa çalışır.

– Sakit ol. Haqlı deyilsən, – anası səbrlə ona təsəlli verdi. Ruslan sənin və oğlunuz barədə fikirləşir. Çox işləyir ki, heç nəyə

ehtiyacınız olmasın. Uşağına ən yaxşı oyuncaqlar alır. Kişiyə azadlıq ver. Onu qəfəsdə saxlama.

– Görünür, azadlığından istifadə edib başqa qadınlarla görüşür, – deyə Leyla burnunu çəkdi.

– Özünü ələ al. Həyəcanlanma, yoxsa südün kəsilər. Ağıllı ol, ona xüsusi diqqət ayır, daha dadlı yeməklər bişir, hər xırda məsələni böyütmə, artıq suallar vermə.

– Mən daha bacarmıram. Son səkkiz ayda bir dəfə də olsun mənə toxunmayıb. İşi çoxdur, başa düşürəm. Bəs mən? Doğrudanmı, mənə toxunmaq istəmir?.. Onun göz yaşlar dayanmırdı.

– Su iç, – anası stəkanı ona uzatdı.

Susduqca artan kədər söz və emosiya axınına çevrilmişdi. Ürəyini boşaltmaq, hər şeyi doğma adama danışmaq istəyirdi. Demədiyi bütün sözlər, bu səssizlik Ruslanın gərgin iş günlərindən daha ağır idi.

– Hər səhər yuxudan duranda bilmirəm hansı tərəfə dönüm ki, məni görsün. O isə kofe içir, başını telefondan qaldırmır. Sanki ovsunlanıb. Ömər ağlayanda onun yanına gedir, oğlu ilə söhbət edir. Mən isə sanki yoxam. Mən sadəcə oğlumu yedirmək, yemək bişirmək, paltar yumaq üçün lazımam...

Leyla davam etmək istəyəndə anası onun sözünü kəsdi:

– Sən heç vaxt mənim atanla necə yaşadığımı soruşmamısan...

– Siz həmişə xoşbəxt olmusuz. – bu dəfə Leyla anasının sözünü kəsərək dedi.

– Əgər, beş uşağın, ortaq evin, qayğı və problemlərin varsa, qaçacaq yerin olmadığını anlayırsan. Sənin əlindən yalnız hisslərini qorumaq, vəziyyəti gərginləşdirməmək gəlir. İlk çətinlikdən qaçmaq olmaz...

– Mən isə qaçmaq istəyirəm. Ömərlə birlikdə sizin yanınıza qayıtmaq istəyirəm. Mənim evim buradır. Bura mənim üçün isti

və rahatdır. Mənim evim buradır. Ruslanın mənzili mənim üçün doğma ola bilmədi. Mən orada rahat deyiləm, bura gətirin məni...

– Qızım, sən ərinin həyat yoldaşısan. Leyla, sən mən də atanın da ən dəyərli gülüsən. Arzumuz odur ki, dərd, kədər görməyəsən...

– Mən sakit göz yaşlarıyla, qəmlə, qüssə ilə yaşayıram. Niyə başa düşmürsən..?

– Bu, evdar qadının depressiyasıdır. Sənə elə gəlir. Ruslan işləyir. Sən uşağını böyüdürsən. O, səni döymür, söymür. Leyla, sən ailə qurmusan. Birdəfəlik... Ortaq dil tapmağa çalış. Elə bir arvad ol ki, o, başqa qadınlar barədə heç düşünməsin...

O, əvəzolunmaz birinə necə çevrilsin? Daha nə etsin? O, gəncdir, gözəldir. İpək kimi qara saçlar, uzun ayaqlar, incə bel, qəşəng sinəsi, mələk baxışları. Uşağı ilə gəzəndə kişilərin ona necə baxdığını hiss edir. Hamiləlik belə, onun əndamına xələl gətirmədi. Bəli, o, öz mövqeyini sonadək müdafiə edə bilər, özünü başqa cür apara bilməz. O təbii və dürüstdür. Dəyişmək fikri yoxdur. Əgər ona başqa qadın lazımdırsa, qoy getsin. Amma... buna dözə biləcəkmi?

Leyla fikirli halda valideynlərinin evindən çıxıb öz evinə yollandı. Bakı gecələri təntənəlidir. İşıqlar, bəzəkli vitrinlər, yüzlərlə lampası olan geniş küçələr. Uşaqları ilə gəzməyə çıxan ərlə arvad. Axşama yaxın Bakı küçələrinə ailələr axışır. Leyla bu xoşbəxtliyin paxıllığını çəkirdi. Onun ailəsi dağılmaq üzrədir, necə xilas edəcəyini isə bilmir. O, hər şeyi anasına danışa bilməzdi, böyük dava-dalaş yaranardı. Anası atasına danışar, o isə Ruslanın yanına gedərdi. Buna yol verə bilməzdi. Oğluna olan ana məhəbbəti, Ruslana olan sevgisi qisas və müdafiə arasında seçim etməyə onu vadar edərdi. O, Ruslanın bir ay bundan qabaq Bursada olmadığını, Bakıda rus millətindən olan bir qadınla yaşadığını çox yaxşı bilirdi. Qadın gözəl və cazibədar idi. Onları görmüşdü. O vaxt Leyla

Ömərlə “Torqovı” küçəsində gəzirdi. Ruslan qəsdən həmin qadınla tək gəzmirdi. Həmişə dostu yanında olardı. Beləliklə şübhələrdən yayınmağa çalışırdı...

Getmədiyi Bursadan qayıdıb Leylanın yanına gəldiyi gün Leyla ona dolma verib sakitcə soruşdu:

– Ruslan, o kimdir?

– Nə mənada? Kimi nəzərdə tutursan? – Ruslan dolmanı yeyə-yeyə təəccüblə soruşdu.

– Məni dəyişdiyin qadını deyirəm.

– Sənin başın xarab olub, – o, hücuma keçdi.

– Dəli olmamışam, amma çemodanlarımı yığıb gedə bilərəm. Atam sənin xəyanətini öyrənsə, məni qəbul edər.

– Nə uydurursan? Mən istirahət etmədən, hər gün on dörd saat işləyirəm, zavodda yatıram. Sən isə məni nədəsə təqsirləndirməyə çalışırsan.

– Mən sizi görmüşəm, – Leyla sakit tərzdə davam etdi. O, həqiqəti öyrənmək istəyirdi, sonadək təkid edəcəkdi.

Ruslan etiraf etmirdi. Sanki xəyanət haqqında milyonlarla kitab oxumuşdu. Bu kitablarda isə ağıllı psixoloqlar etiraf etməməli olduğunu, sonadək inkar etməyi, acı həqiqəti danmağı məsləhət görürdülər, əks halda sizi əfv etsə və yanınızda qalsa belə, ömrünüzün sonunadək bunu sizə xatırladacaqlarını yazırdılar. O an Leyla az qalırdı ki, həmin qızın Anarın sevgilisi olduğuna inansın.

Leyla emosional vaxtlarında Ruslanın sevimli yeməyini – dolma bişirərdi. O, dolmanı həvəslə yeyərdi, bu Leylanı sevindirərdi. Onun atası zarafatla deyərdi: “Əgər xörəklərin şahı plovdursa, şahın ən birinci və ən gözəl arvadı dolmadır!” Yeri gəlmişkən, dolmanın hansı xalqa məxsus olması məsələsi hələ də mübahisəlidir. Azərbaycanlılar iddia edirlər ki, “dolma” türkmənşəli sözdür, “DOLdurMAQ” sözündən yaranıb. Sübut kimi dolma sözünün bütün türk xalqlarında eyni cür yazılıb və oxunması faktı göstərilir.

Dolmanı bişirmək ilk baxışdan asan görünsə də, zəhmət və səbir tələb edən bir xörəkdir. Leyla dolma bişirəndə sakitləşirdi. Hər dolmanı bükəndə, elə bil əzablarını, incikliyini, büküb kənara qoyur, problemlərini yavaş-yavaş unudurdu.

O vaxtlar bekarçılıqdan kulinariya kurslarına getməyə başladı. Öməri anasının yanında qoyurdu. Düşünürdü ki, dadlı yeməklər bişirməyi nə qədər tez öyrənsə, problemlər bir o qədər də tez həll olar. Kurslarda Lala adında çox optimist və gülərüz xanımla tanış oldu. Bu tanışlıq onun rus qadınlarına bəslədiyi neqativ-inqilabi mövqeyinin dəyişməsinə səbəb oldu. Əmin oldu ki, Lalanın ləyaqəti, qüruru ilə bağlı hər şey qaydasındadır. Lala - Olqa Moskvada əri ilə yaşayır, ana yurduna hər üç ayda bir həftəlik gəlir. Bu müddət ərzində çoxsaylı qohumlarla ünsiyyət və iş məsələlərinin həlli onu bezdirir. Yemək bişirmək Lala üçün dincəlmək demək idi, odur ki, yorulmadan, həvəslə işləyirdi. Növbəti kulinar şedevrlərini yedikləri vaxt Lala öz hekayəsini danışdı.

# Dolmanın hazırlanması



**Lazım olan ərzaqlar:**
Qiymə (qoyun və mal əti) – 500 qr
Üzüm yarpaqları 600 – qr
Nanə - 1 dəstə
Keşniş – 1 dəstə
Şüyüd – 1 dəstə
Kərə yağı – 100 qr
Düyü – 4 xörək qaşığı
Baş soğan – 1 ədəd
Duz – zövqə görə
Üyüdülmüş qara istiot – zövqə görə

1.Təzə və ya duzlu tənək yarpaqlarını yaxşıca yuyun. Təzə yarpaqlardan ovuc içi boyda olan cavan yarpaqları seçin (yarpaqları yazda yığın). Yarpaq nə qədər tünd olarsa, demək qocadır. Dolma üçün əsasən işıqlı, ağ üzüm növlərinin yarpaqlarından istifadə edilir. Tünd və böyük yarpaqlardan istifadə etməyin. Belə halda duza qoyulmuş yarpaqlar daha yaxşıdır. Duzlu yarpaqları yazda özünüz hazırlaya, ya da bazardan və supermarketlərdən ala bilərsiz.

2. Tənək yarpaqlarını kasaya yerləşdirin, üzərinə qaynar su tökün və 5–7 dəqiqə gözləyin.

3. Yarpaqları süzgəcdən keçirin, gözləyin suyu tam axsın.

4. Suyu atın, yarpaqları yüngülvari çırpın ki, artıq sular olmasın. Hər yarpağın saplağını qoparın.

5. Soğanı təmizləyin və xırda-xırda doğrayın.

6. Kərə yağı ilə bitki yağını tavada qızdırın, soğan əlavə edin, duz qatın. Vam odda qızardın.

7. Düyünü yuyun.

8. Qazana düyünü və suyu əlavə edin (düyünün iki misli qədər su), qazın üstünə qoyun, qaynadın, qaynayandan 2-3 dəqiqə

sonra düyünü süzün.

9. Göyərtini yuyun, xırda-xırda doğrayın.

10. Kasaya qiymə, qızardılmış soğan, qaynanmış düyü, doğranmış göyərti, bir çimdik duz və istiot əlavə edin.

11. Dolma üçün qiymə, ənənəvi olaraq, qoyun ətindən olmalıdır, amma ona mal əti də əlavə etmək olar. Həmçinin, qiyməni donuz əti və mal ətindən də hazırlamaq olar.

12. Tənək yarpaqlarını stola elə qaydada düzün ki, hamar tərəfi altda, saplaqların aydın göründüyü tərəf üstdə olsun.

13. Qiyməni yarpağın üstünə qoyun. Dolmanı bükmək üçün əvvəlcə üst və alt qıraqlarını içəri qatlayın.

14. Sonra yarpağın yan tərəflərini içəri qatlayın. Nəhayət, dolmanı boruvari bükün. Digər dolmaları da beləcə bükün. Qazanın altına 1-2 qat yarpaq qoyun. Dolmaları sıx şəkildə elə düzün ki, bükük yeri aşağıda qalsın (bir neçə qat düzə bilərsiz).

15. Dolmalara bulyon və ya su əlavə edin.

16. Lazım olarsa, bulyon və ya ət suyunu duzlayın. Üstünü boşqabla örtün ki, dolmalar qaynayanda dağılmasın. Qazanı odun üstünə qoyun, qaynadın. Qaynayanda qazın yüksəkliyini minimuma endirin. Bu vəziyyətdə 1-1,5 saat bişsin. Hazır dolmaları qazın üstündən götürün, 10 dəqiqə dəm alsın (bu vaxt ərzində dolma bulyonu özünə hopduracaq və daha dadlı olacaq).

17. Sous hazırlayın: göyərtini yuyun, qurudun və doğrayın. Sarımsağı təmizləyib xırda-xırda doğrayın. Sarımsaq və göyərtiyə xama qatın, istəyə görə duz səpin və qarışdırın. Sousu soyuducuda 2-4 saat ərzində saxlayın. İsti dolma ilə sousu birlikdə masaya qoyun.

# Paxlava



Lala bu dəfə paxlava bişirmişdi. Bakıda olduğu beş gün ərzində bir kiloqram kökəldiyinə baxmayaraq, ləzzətlə paxlavadan bir diş aldı. Paxlavası şirəli və dadlı alınmışdı, lap elə Olqanın özünə oxşayırdı. Lalanın son bir neçə ili sevgilərlə keçmişdi, ona görə də əl atdığı hər bir işin öhdəsindən asanlıqla gəlirdi. Leylanın sakitliyi və düşüncəli olması onun xoşuna gəlirdi. Öz hekayəsini ətraflı danışırdı. İstəyirdi ki, ondan yaşca kiçik olan Leyla ən vacib həqiqəti anlasın – güclü məhəbbət olan yerdə yaşamaq çətindir, ancaq təkcə sevgi həyata məna qatır.

* * *

Ağır bir zərbə üzümə dəydi. Bu vaxta qədər heç kim məni döyməmişdi. Heç vaxt. Məni ən çox elə bu incidir. Sergeyin gözlərindən qığılcım çıxır, sanki beynindəki qarabasmalardan başqa heç nə görmürdü. Bu qarabasmalar isə, görünür, çox dəhşətli idi:

– Həyasız! – o dedi. – Nə etdiyini özün başa düşürsən?..

Cavab verə bilmirəm, qəhər boğazımı sıxır, səsim çıxmır. Özümü itirmişəm, ərimə baxıram. Sakitcə. Bununla onu daha da qəzəbləndirirəm. Həyatım boyu yerli -yersiz, lazımsız danışmışam. İndi isə susuram. O, nə edəcəyini bilmir. Məni tutub divara sıxır. Şillələr bir birinin ardınca gəlir. Ağrıdan qızdırmam qalxır. Göz yaşları yanağımdan süzülür.

– Bağışla. Bağışla, xahiş edirəm, – pıçıldayaraq əfv diləyirəm.

– Axmaq... Sənin kimiləri...

– Nə? Nə etmək lazımdı? Öldürmək? Öldür... Sən axı bacararsan. Elə et ki, heç kim heç nə bilməsin. Öldür, – sanki beynim fəaliyyətini dayandırır, ağlıma gələni deyirəm. Ona baxıram. Bununla da qısqanclıq damarının üstünə daha bərk basıram. Vəziyyətinin pis olduğunu görürəm. Yerə çöküb ağlamağa başlayır. Uşaq kimi,

balaca oğlan kimi. Yavaşca hönkürərək ağlayır. Barmaqlarımı dodaqlarıma toxundururam, dodağım parçalanıb. Ağzımda qanın tamı on dəqiqə qabaq içdiyim kofenin tamına qarışıb. Sergeyin yataq otağında, döşəmənin üstündə çarəsizlikdən ağlayacağını nə vaxtsa görəcəyim ağlıma gəlməzdi.

O yaz təbiət bir başqa cür gözəl idi. Əriyən qarın və yaz sularının qoxusu inanılmaz idi. Nəfis fransız üslubunda tərtib edilən qəhvəxanada oturmuşdum. Ləziz qara içki boğazımı azca yandırırdı. Pəncərə arxasında şütüyən maşınlara baxıb müştərimin hansı maşından düşəcəyini təxmin etməyə çalışırdım. Bekarçılıqdan, əylənirdim. Paytaxta mart ayı hökmranlıq edirdi. Çirkli qar, gölməçələr, mövsümi bozluq və istinin gələcəyinə olan ümid. İstilərin düşməsinə az qalır. Qəhvəxanada möhtəşəm karamelləşdirilmiş qəhvəyi şəkər olurdu. Onu fincana atıb yuxulayaraq qarışdırırdım. Həmin mart günü özümü gümrah və sakit hiss edirdim. Ona görə də görüşdən öncə qətiyyən həyəcanlanmır, sakitcə görüşü gözləyirdim. Belə gözəl havada, mart günəşinin müşayiəti ilə biznes-qrafikimdə yeni iş birliyi olacaqdı.

Martın xüsusi cazibəsi var. Əslində, yeni il yanvarın biri yox, martda başlayır.  Bu zaman təbiət sanki finişə çatır və yenidən yaşamağa başlamaq üçün hazır vəziyyətə gəlir. Martda hər şey yenidən başlayır. Qarma-qarışığa görə üzr istəyirəm. Amma hər şey məhz bu cür baş verir. Hamı Moskva küçələri boyu qaçır, meqapolisin ümumi təlaşına qoşulur, ancaq özü-özlüyündə hamı problemlərini, ailə məişət qayğıları barədə düşünür. Kimsə pəncərə önündə şitil əkmək üçün hazırlaşır, kimsə sessiyanı uğurla başa vurub yoldaşları ilə Krıma getmək barədə xəyallar qurur, kimsə də çoxdandır xoşuna gələn, lakin hər bir səkkizinci sinifdə oxuyan yeniyetmə kimi mübahisə edib küsüşdüyü Petya ilə barışmaq barədə düşünür. Kimsə logistika bölməsindəki Katyanı cəlb etmək istəyir. Deməyim odur  ki, yazda gərginlik müşahidə edilsə

də, planların əksəriyyəti müsbət xarakterli və safniyyətlidir.

O, böyük, bahalı maşında gəldi. Maşının dizaynındakı cəlbediciliyi, nömrənin meydan oxuyan, yaddaqalan kombinasiyası və digər atributlar sahibinin kifayət qədər zəngin olduğundan xəbər verirdi. Sükan arxasında sürücü əyləşmişdi. Müştərim sakitcə maşından düşdü, ehtiyatla gölməçənin yanından keçdi və qəhvəxanaya daxil oldu. İxtiyari olaraq, ya da ola bilər ki, burada oturanları saya salmadan mənim masamın yanına gəldi. Biz çəkilişləri müzakirə etdik. Çəkiliş yerini və vaxtını dəqiqləşdirdik, ssenarini müəyyənləşdirdik. Sergey çox maraqlı həmsöhbət idi. Onda sünilik, hədsiz lovğalıq, özünü hamıdan üstün saymaq, hamıya yuxarıdan aşağı baxmaq kimi xüsusiyyətlər yox idi. O, özünə bir fincan qəhvə sifariş etdi. Görünür, Serj – bundan sonra onu belə adlandıracam – çox yorulmuşdu, qayıtmağa tələsmirdi, oturub pəncərədən baxır və mənə nəsə danışırdı. Mənim mart yüngüllüyüm ona da keçmişdi... Dörd saatın necə keçdiyini hiss etmədik. Mən o zaman azad quş kimi idim. Ədəbsizcəsinə giriş qapısının yanında oturub xoşbəxtlikdən havalanan mart pişiyi kimi.

– Sabah Dubaya uçaq? – Serj soruşdu.

– Bağışlayın, hara, – təklifi anlamadığım üçün soruşdum.

– Dubaya. Sabah orada investisiya forumun açılışı olacaq. Mənə yoldaşlıq et.

– O, hiss olunmadan “sən”ə keçmişdi.

– Uçaq. Özün hər şeyi təşkil edəcəksən, –deyə onun kimi rahat soruşdum.

– Xətrimə dəyirsən... Pasportun yanındadı?..

Və biz Moskvanı tərk etdik. Ağlımı başımdan alan Dubay, okeanın qoxusu, Moskvanın səbirsizliklə gözlədiyi o isti hava. Serj mənim qeydimə qalmağa çox da cəhd göstərmirdi, mən ondan istifadə etməyə çalışmırdım. Mənə maşın, dizayn geyimlər, bahalı

brilliantlar lazım deyildi. Ondan heç nə gözləmirdim, hətta bircə gül də. Buna görə də özümü artıq yük, ya da ondan betər – eskort kimi hiss etmirdim. Sıxılma, riyakarlıq, etiraflar yox idi. Biz bir nömrədə qalırdıq. Sanki elə belə də olmalıdır. Mən ilk gecəmizi yaxşı xatırlayıram. Mənə elə gəlirdi ki, biz bunları artıq keçmişik. Rahatlıq, sadəlik, onun tanış ətri. Hər şey çox sakit idi. Belə sakitcə Rusiyaya qayıtdıq, həmçinin, o, uzun müddətdir ayrı yaşadığı həyat yoldaşından sakitcə boşandı, sakitcə VVAQ-a ərizə verdik, evləndik. Beş il nümunəvi ailə həyatımız oldu. Serj mənim biznesimin inkişafı üçün vəsait ayırırdı, şirkətimi beynəlxaql səviyyəyə qaldırdım. Hər birimizin karyera ilə bağlı öz planı vardı, biz o planları böyük həvəslə həyata keçirirdik. Bizim planımızda dünyaya uşaq gətirmək yox idi. Həyatımız öz axarı ilə davam edirdi. Dostlar (əsasən, onun dostları), şəhərətrafı gəzintilər, qışda Alp dağları, yayda Fransa sahilləri. Yəqin ki, ömrümüzün sonunadək belə yaşayardıq. Əgər yenilik xəbərçisi olan bir başqa yaz və həmin yazın daha cəsarətli addım atdığı Bakıya ezamiyyətim olmasaydı. Oradakı ətir inanılmaz idi, qəhvələri, daha dadlı idi.

Azərbaycanda dolğun qrafik planlaşdırılmışdı. Mənim köməkçim Lena elə bir plan qurmuşdu ki, orada bir saat belə boş vaxt qalmırdı. Səhhətimlə əlaqədar icazə verdiyi tək istirahət 10 saatlıq yuxu idi. Ona görə də təyyarədə fürsətdən istifadə edib bir az yatmaq fikrində idim. Təyyarənin qalxmasına on dəqiqə qalmış bələdçi qız daha bir biznes-klas sərnişini qarşıladı. Onun yeri mənim yanımda idi. Gözümü yumub yuxulayırdım. Kim oturursa otursun, mənə maraqlı deyildi. Artıq yuxuda neon-yaşıl rəngli sahə və harasa sıçrayan atlar görürdüm. Birdən səs eşitdim...

– Lala... Lala, bu sənsən? – kimsə ehtiyatla, saitləri uzadaraq adımı səsləyirdi, amma adət etdiyim Olqa yox, məhz “Lala” deyə səsləyirdi.

Gözümü açıb, əyilib mənə baxan kişiyə nəzər saldım. Onun

yaşı mənimki kimi otuzu adlamış olardı. Mən onu nə vaxtsa görmüşdüm. Bir dəqiqəlik dalğınlıq. Hə, düzdür. Bu ki Nurandır. Bir vaxtlar bizi romantik dalğa bürümüşdü, Nijni Novqorodda iki möhtəşəm günümüz olmuşdu. Tələbə konfransı, biz həyatdan ən yaxşı şeyləri qoparmağı bacaran iki tələbə idik. Amma ən yaxşı xüsusiyyət hər şeyi vaxtında sonlandırmağı bacarmaqdır. Və biz ayrıldıq. Şairanə, kədərli bir ayrılıq.

– Salam, – sakitcə dedim.

– Salam. Gör ha, necə bir qarşılaşma, – o, xoşbəxtliyini gizləməyə çalışmırdı.

– Mən də səni görməyimə şadam, – tarazlığımı qoruyaraq cavab verdim.

– Bağışla, deyəsən səni yuxudan oyatdım. Min dəfə üzr istəyirəm. Bütün uçuş vaxtı yatmağına icazə verə bilməzdim. Danış görüm, necəsən..?

– Gördüyün kimi, pis deyiləm. İş üçün uçuram. Sən nə ilə məşğulsan?

– Müsahibə üçün Bakıya gedirəm. Beynəlxalq televiziyada müəllif proqramım var. Gedirəm növbəti buraxılışı hazırlamağa.

– Əla, – diplomatik tərzdə dedim.

Bakı bizi qızmar günəşlə qarşıladı. Oranın yazı Moskva yazına heç oxşamır. Adama elə gəlir ki, dünyanın rəngləri burada daha parlaqdır. Havada yenicə oyanmağa başlayan təbiətin nəfəsi duyulurdu. Öz yaşıllığını qoruyan çəmənlikdə yazın ilk xəbərçiləri olan mavi və sarı çiçəklər açılırdı. Yazın gəlişi bu şəhərdə güllərin rahiyəsini yayırdı. Biz Bakıya saat on birdə çatdıq, ilk görüşüm saat on ikiyə planlaşdırılmışdı.

– Yaxşı, – Nuranın yanağından öpdüm, – sağ ol. Mən böyük məmnuniyyətlə sənlə bir fincan qəhvə içərdim. Amma işlərim var.

O, gülərək məni qucaqladı.

– Görüşənədək.

Axşamadək onun sözlərinə əhəmiyyət vermədim. Kirayələdiyim "Audi" avtomobilindən yorğun halda çıxdım. Lenaya afərin. O, möcüzəvi şəkildə mənim istənilən yerdə rahat olmağımı təmin edir. "Hyatt Regency Baku" otelindəki nömrə, mənim maşınıma bənzəyən maşın özümü Moskvada hiss etməyimə kömək edir. Hərçənd, vərdiş etdiyin şəraitdə nə qədər çox yaşasan, yeni şəhərlərə bir o qədər asanlıqla öyrəşirsən. Yalnız indi "dünya sakini" sözünün tam mənasını anlaya bilirəm. Tədricən nə yeni marşrutlar, nə də yad dillər səni təəccübləndirmir. Elə həmin gecə otelə müvəqqəti evimə gedirmiş kimi yollandım. Vannanı doldurub rahatlaşmağı, çay içməyi və televizora baxa-baxa yuxulamaq barədə xəyallar qururdum.

– Lala... – arxamca bir səs eşitdim, – hara tələsirsən?

Arxaya dönəndə Nuranı gördüm. O, əlində sarı qızılgül dəstəsi səkinin üstündə dayanmışdı.

– Gəl, gəzək bir az.

Qəribədir, o hələ də sarı qızılgülləri xatırlayır. Nijni Novqorodda olanda, getməyimə az qalmış mənə sarı qızılgüllər almışdı. Biz elə gənc, elə müstəqil, elə xoşbəxt idik ki... Sonra necə olacağını bilmirdik. Bizim evimiz yox idi. Mən Sankt-Peterburq Universitetinin yataqxanasında, o isə Moskva Dövlət Universitetinin yataqxanasında qalırdı. Köçəri məhəbbətin ömrü yoxdur. Onun sinəsinə qısılıb ağlayırdım, göz yaşlarım boğazlı köynəyimə hopurdu, o isə məni bərk-bərk qucaqlayırdı. Sonra qatara əyləşib yola düşdüm, o isə uzaqlaşan perronda qaldı. Qəmli və eyni zamanda işıqlı xatirələr.

Ətirli qızılgül dəstəsi əlimdə idi. Gecəyarısı yüzlərlə bakılı Xəzər sahillərində gəzir. Mərkəzdə hər bina təkrarolunmaz işıqları ilə bərq vurur. Ucalan teleqüllə müxtəlif rənglərə boyanaraq Azərbaycanın paytaxtının unikal obrazını yaradır. Bakının mərkəzindəki bütün binalar eyni rəng qammasında – qum rəngindədir. İşıqların rəngi binaların rəngi ilə həmahəngdir. Şəhər sarı işığa

qərq olub, onu sanki gözəgörünməz süni günəş işıqlandırır.

– Lala, səni tez-tez xatırlayırdım. Mən həmişə inanırdım ki, sənin kimi biri kölgədə qalmamalıdır. Sənin haqqında tez-tez yazırlar. Daha doğrusu, daha çox sənin şirkətin barədə. İndi səndən müsahibə almaq mənim üçün sənin sağlam və yaxşı yaşadığına, işlərinin yaxşı getdiyinə inanmaq fürsətidir... Lala, sən xoşbəxtsən?

– Nuran, bu, ritorik sualdır. Cavablandıra bilmərəm.

– Sənin çox yaxşı həyat yoldaşın var...

– Yaxşıdır, – Nuranın sözünü kəsərək təsdiqlədim.

– İmkanlıdır...

– Kasıb deyil, – düzəliş etdim.

– Çox gözəl görünürsən. Qıraqdan hər şey əla görünür. "İstin-media"nın açılış mərasimində olan şəkillərinizi görmüşəm. Bir-birinizə yaraşırsız...

– Elədir, hər şey yaxşıdır. İnan mənə. Sergey çox mehriban və qayğıkeşdir. Onun yanında özümü sakit hiss edirəm.

– "Sakit" – qəribə sözdür. Kişi -qadın münasibətləri barədə belə demirlər.

– Müxtəlif cür deyirlər. Beş ildir həyəcan və təlaşsız yaşayıram. Çox rahatam. Bəzən bu rahatlıq məni qorxudur. Bilirsən, səhər yuxudan duranda ilk işim iş barədə düşünməkdir. Serj haqqında nadir hallarda düşünürəm. Onu sevib-sevmədiyim barədə, demək olar ki, heç düşünmürəm. Sanki, hər şey öz-özünə həll olunur.

– Sualıma görə üzr istəyirəm, niyə uşağınız yoxdur?

– Düzünü deyim? Bax indi bu barədə sual verdin, amma nə cavab verəcəyimi bilmirəm. Biz heç vaxt uşaq barədə danışmamışıq. Uşaq hayında olmamışıq. Biz hər zaman yeni başlanğıclara can atırıq. Bir iş bitir, əvəzinə digəri planlaşdırılır. Uşaqlar isə bu planlara daxil deyil.

– Qəribədir. Çox qəribədir. Lala, sən özünə oxşamırsan. Sən

çox həssas adamsan. Necə belə yaşaya bilirsən? Necə sevgi üçün yox, biznes-plan üçün yaşayırsan? Bəli, sərfəlidir, xoşbəxtlik isə... Ona görə də xoşbəxtlik barədə danışmırsan.

– Nə yapışmısan bu xoşbəxtlikdən? Lavrov mənim üçün çox şey edib. O olmasaydı, indiki mövqeyimə çatmazdım. O, məni sevgi ilə böyüdüb sənin qarşında dayanan Olqaya çevirdi.

– Niyə o vaxtı səndən əl çəkdim? – Nuran dayanıb mənə tərəf döndü. – De görüm, niyə?

Niyə o məni buraxdı? Novqoroddan qayıdanda qatarda dəfələrlə bu sualı özümə verdim. Qarşımda kupe qonşum, altmış yaşlı bir qadın dayanıb. Mən bütün yol boyu ağladım. Cins şalvarda olan balaca kürən qız. Yəqin, ağlamaqdan gözü qızarmış bədbəxt varlığa baxmağa cəsarəti çatmırdı. O, çay gətirdi, mənə konfet və ürək dərmanı verdi, kədərli sevgi hekayəmi dinləyib yatızdırdı.

– Onun üçün ki, – dərindən nəfəs alıb dedim, – mən daha çox şeyə nail olum. Qalsaydım, daha yaxşı olacaqdı? Fərz edək ki, o vaxtı səninlə qalsaydım, sonra? Yataqxanada yaşayacaqdıq? Ya ev kirayələyəcəkdik? Səhərdən axşamadək işləyəcəkdik. İnan ki, xoşbəxtlik və sevgi barədə düşünməyə vaxtımız belə qalmayacaqdı. Hətta sonrasını da deyim. Bir aydan sonra ayrılacaqdıq. Məhdud maddi imkanlar və yataqxana otaqlarındakı sərsəri həyat kimi sınaqdan keçə bilməyəcəkdik.

– Niyə belə cəsarətlə hamının, hətta Tanrının adından qərar verirsən? O bilən məsləhətdir. Bəlkə...

– Başlama. Həyat xəbəri arzu şəklində olan cümlələri sevmir. – Birdən özümü narahat hiss etdim. Sanki özümü aldadırdım. Kimisə aldatmaq çox pis hissdirsə, özünü aldatmaq ondan ikiqat betərdir. – Bəsdir fəlsəfi fikirlər yürütdün, keçmişi qurdalama. Mən ailəliyəm. Xoşbəxtəm. Bu, rəsmi versiyadır. Mən ona inanıram. Məni fikrimdən döndərməyə cəhd eləmə.

– Gəl öpüşək... Necə bilirsən? – o gülümsədi. – Evli qadın

köhnə dostu ilə öpüşə bilər?..

Heç nə demədim, yolumuza davam etdik. Dağüstü parka çatdıq. Dağüstü park şəhərin mərkəzində yerləşir, onları funiklyor birləşdirir. Parkdan şəhərə və Bakı buxtasına əsrarəngiz panorama açılır. Bütün bu fantastik işıqların, nəhəng şəhərin havası dəniz və neft iyinin kokteylidir. Neftin güclə duyulan iyi. Yalnız Bakıya xasdır. İkinci gün artıq onu hiss etmirdim. Anlaşılmaz Bakı varlığıma yavaş-yavaş nüfuz edirdi. Son illər ərzində romantik hisslərin itiliyini tamamilə itirmişdim. İndi isə qayıdırdı. Yavaş-yavaş, ağrılı halda. Xırda epizodlar kimi. O an mümkün olmayan bir şeyi istəyirdim. Nuran mənim arxamda dayanmışdı, əlimi arxaya uzatdım. Nuran əlimdən möhkəm tutdu. Boynumu asta-asta, nəvazişlə öpməyə başladı. Mən huşumu itirmək üzrə idim. Az qala, Bakı işıqları gözümün önündə böyük ləkəyə çevrilirdi. Başım partlayırdı, bədənim plastik əşyaya çevrilirdi...

– Lala, “Bufet” yadındadı?

– Hansı bufet? – Nurana tərəf dönmədən pıçıldadım.

– Novqoroddakı “Bufet”. O vaxtlar oturduğumuz art-kafe yadındadı? Yaxşı yer idi. Ordakı kişi hamı üçün ayrıca qəhvə və şərbət hazırlayırdı. O, sənə də qəhvə hazırlamışdı, elə deyilmi?

– Hə, darçın və mixəkli. Çox dadlı idi. Həm yumuşaq, həm də tünd.

– Üstəlik, deyilənə görə, bəzilərinə nə isə pıçıldayırdı. Təbii ki, mənim üçün şərbət hazırlamışdı. Amma heç nə deməmişdi. Sənə isə nəsə pıçıldadığını görmüşdüm..

Boynumu öpüşlərə qərq etməkdə davam edirdi, onun dəniz küləyinə qarışmış nəfəsini hiss edirdim.

– Necə güclü yaddaşın var, – güldüm.- Əlbəttə, “Bufet” yadımda idi. Belə maraqlı yerləri unutmaq çətin məsələdir. Bu cür əfsanəvi məkanın atmosferini təsvir etmək qeyri-mümkündür. Doxsanıncı illərin ortalarında bura müasir mədəniyyətin müntəzəm

fəaliyyət göstərən nadir dayaq mərkəzlərindən biri idi. O, iki gənc, gözəl, enerji ilə dolu, istedadlı rəssamın təşəbbüsü ilə yaradılmışdı. Əvvəlcə "Təsviri Əmək Emalatxanası" adlanan bu məkan zövqlü, dəbli art-məkana çevrildi. Sonra isə klub, kafe və qalereya birləşərək "Bufet" adı altında fəaliyyətə başladı. Orada həqiqətən də belə qəribə adam vardı. Və o adam həqiqətən də qulağıma nə isə pıçıldamışdı. O vaxtı biz Nuranla yaxşı vaxt keçirmişdik, küncdə bir-birimizi qucaqlayıb öpüşürdük, gələcək barədə qətiyyən düşünmürdük. Köhnə mebel, rəsmlər, qaraldılmış işıqlar. İlahi, o zamanlar necə yaxşı idi.

– De görüm. Mənə maraqlıdır, – Nuranın hər şeyi bilmək həvəsi ona rahatlıq vermirdi.

– O dedi ki, yaz qayıdacaq. Kaktusların gül açdığı yerdə qayıdacaq. Etiraf et, çətin simvolikadır. Bilirsənmi, biz Seryojka ilə bütün kurortları gəzmişik. Səyahət boyu gül açan kaktus axtarmışıq...

– Tapdın?

– Yox, deyəsən, qəlbimdəki yazı da itirmişəm, – düz onun gözlərinin içinə baxdım.

– Bizim Dənizkəranı parkda hər iyun ayının əvvəli kaktuslar çiçək açır. Bir neçə ay burda qal, özün görəcəksən.

– Gəl otelə qayıdaq. Doqquzda görüşüm var, yatıb qalmaq istəmirəm, sonradan peşman olacağımız yeni axmaqlıqlara yol vermədən qayıtmaq lazımdır.

Biz otelə qayıtdıq. Mən çəkinmədən Nuranı süzürdüm. O, hündür və aristokrat kimi zərif idi. Özünə inamlı, iri Serjə qətiyyən oxşamırdı. Həmin tələbəlik eşqindən sonra şüuraltı olaraq belə boy-buxunlu Qafqaz kişisi sevgilim olmasını istəmişəm. Amma canıbərk rus biznesmeninə ərə getdim. Həyatın kinayəsi. Nuran da diqqətlə mənə baxırdı.

– Sən heç dəyişməmisən. Daxilən. Xarici görünüşün, əlbəttə, bir qədər dəyişib. Saçlarını boyamısan. İndi sən sarışınsan.

– Ancaq sən heç dəyişməmisən. Sadəcə bir az daha özünə əminsən, böyümüsən.

– Lala, səni istəyirəm. Gedək nömrənə, – ədəbsizliyi məni qətiyyən təəccübləndirmirdi. Ən pisi isə mənim onun təklifini dəstəkləmək istəməyim idi.

– Yox, Nuran. Mənim kövrək sistemimi alt-üst eləməyə çalışma. Lazım deyil. Biz birlikdə ola bilmərik. Mən ailəliyəm. Qoy hər şey olduğu kimi qalsın. Gəzinti üçün çox sağ ol, – onu öpüb qaçdım. Lap ilk görüşdən qaçan on altı yaşlı qız kimi.

Səhər iri neft şirkətinin prezidenti ilə görüşdüm, sənədli filmlər silsiləsinin hazırlanması barədə razılıq əldə etdik. Daha sonra televiziya şirkətinin meneceri ilə görüşməli idim. Qısası, Bakını başdan-ayağa gəzirdim, birdən-birə gələn ahəngdarlıq hissi üzümü güldürürdü. Şəhər qış yuxusundan ayılıb yazı qarşılamağa hazırlaşırdı. İşlərim inanılmaz dərəcə sürətlə həll olunurdu. Yəqin, yaz əhvalı ilə coşan qəlbim iş ortaqları və müştəriləri cəlb edirdi. Dağüstü parkdan açılan mənzərə, gecə Bakısı gözümün önündən getmirdi. Axşam saat altıya az qalırdı. Son işim – radiostansiya üçün səs yazısı qalırdı. Səkkizin yarısı isə azad olacam. Mobil telefonuma zəng gəldi.

– Allo.

– Tanıdın?

– Deyəsən, – bir qədər gözlədim. – Əlbəttə, tanıdım.

Bu, Nuran idi. Hardansa nömrəmi tapmışdı. Hərçənd, onun jurnalist qabiliyyəti üçün bu, heç də çətin məsələ deyildi.

– At çapmağa gedək? – təklifi ilə məni təəccübləndirdi.

– Dəli olmusan? Mən at belində heç vaxt oturmamışam!

– Hər şeyin bir ilki var. Saat səkkizdə otelə gələcəm. Dress kod – demokratik. Əvvəlcədən xəbərdarlıq edim.

– Təklifini qəbul etməmək kimi bir şansım var?

– Yox. Seçim imkanın yoxdur. Hazırlaş. Hələlik, gözəl, – deyib

Nuran dəstəyi asdı.

Biz cıdır meydanına gəldik. Atları görən kimi, ətraf aləm yaddan çıxdı. Nuran yaraşıqlı, zil-qara cins atı mindi. "Peqas" ləqəbli atın belindəki Nuran hansısa uzaq, əlçatmaz krallığın şəhzadəsinə bənzəyirdi. Bəs mən nə edəcəm? Qorxu hissi bu şəhzadəyə nağıl uydurmaq hissini üstələyirdi. Özümü ələ almaq üçün xəyallara daldım, özümə yaraşan at seçməyə başladım. Ümumiyyətlə, bütün atlar çox gözəl idi, ancaq gözəllikləri müxtəlifdir. Məlum oldu ki, bir-biriylə eyni olan at yoxdur,  xarakterləri fərqlidir. Hər at fərdi yanaşma tələb edir. Məsələn, Peqas qamçı barədə ən kiçik xəbərdarlığı belə sevmirdi. O, aqressivləşir və idarə olunmaz ata çevrilirdi. Atın dördnala çapması üçün yüngül zərbə vurmaq istəyəndə, Peqas sürətlənirdi. O necə də Nurana bənzəyir! Ona da təzyiq göstərmək olmaz. Bunu dərhal anlamışdım, buna görə də Nijni Novqorodda ayrılanda hay-küy salmadım, sakitcə qatara mindim.

Mənim üçün ağ "Stela"nı seçdilər. Maraqlıdır ki, fikrən mən də onu seçmişdim. Kənardan sərt və sərbəst görünürdü. Təlimçi ata minməyimə kömək etdi. Atın məni yerə atacağı qorxusu özümü narahat və utancaq hiss etməyimə səbəb oldu. Atlar sənin yeni və ya at çapmaqda mahir biri olduğunu tez duyurlar. Əgər sən bu işə yeni başlamısansa, at özünü elə aparacaq ki, guya vəziyyətin ağası sənsən və özünü idarə etməyə icazə verəcək. Ona görə də məşqçi, daha itaətkar atı mənim üçün seçmişdi. Stela məni qəbul etdi. İki zərif cins olaraq, biz sadəcə qıraqdan qürurlu görünürdük. Nuranla asta-asta gəzişirdik. Axşam havası ruhu sakitləşdirirdi, atlar təmkinlə bizi gəzdirirdilər. Belə anda açıq söhbət təbii idi və sözlər bizim tabeçiliyimizdən çıxdı...

– Hər şeyi ata bilərsənmi? Bax belə, birdən?
– Səni başa düşmürəm...
– Ərini tərk elə. Sevgisizlikdən qurtul.
– Niyə belə düşünürsən? Bəlkə onu sevirəm?

– Hazırki dəbdəbəli həyatını, sevdiyinə şübhəm yoxdur. Amma onu...

– Sergey mənim üçün çox əhəmiyyətlidir...

– Bu vəziyyəti bəxş etdiyi üçün əhəmiyyətlidir. Məgər sən onsuz yaşaya bilməzsən? Özünlə bacara bilməzsən?

– Bilmirəm. Niyə ki?

– Mənimlə birlikdə olmaq üçün. Ömründə həmişə bahar olsun deyə. Mən səni sevirəm...

O an anladım ki, bu illər ərzində Sergey bir dəfə də olsun mənə "sevirəm" kəlməsini deməyib. Sanki hər şey onsuz da aydındır. Sanki, nə vaxtsa deyib, daha sonra təkrarlamağa ehtiyac qalmadığını düşünüb. Hər şey onsuz da aydındır.

Axşamlar Bakı səması necə möhtəşəmdir! Rəng çalarları dəyişərək əsrarəngiz görünüş yaradırdı. Nuranın sözləri barədə fikirləşərkən at belində olduğumu belə unutmuşdum. Stela da məni narahat etmədən melonxolik şəkildə addımlayırdı. Bahar qayıdırdı. Yazın ilin fəsli olmadığına inanırdım. Yaz insan qəlbinin vəziyyətidir. Mart və aprel ayları gəlsə belə, bəzən yaz gəlməyə bilər. Mənim beş il yazım olmadı. Bakıdakı həmin axşam anladım ki, Serj həyatımda mühüm rol oynayıb. Amma onun rolu həlledici deyil.

Sergeyə baxan kimi əhvalının yaxşı olmadığını anladım. Paltarlarını soyundu. Duşa girdi. Bir saat ordan çıxmadı. İlk dəfə idi. Şam yeməyini hazırladım, onun sevimli yeməyini – bal souslu qabırğaları hazırlamışdım. Bununla ağılsız mən günahımın bağışlanmasını gözləyirdim. Düzü, hər şeyi açıq-aydın, bütün izahı ilə özüm danışmaq istəyirdim. Sadəcə olaraq çatdırmadım. Hərçənd, hansının daha yaxşı olduğunu bilmirəm. Çəngəli əlinə almışdı, ancaq yeyə bilmirdi.

– Sənə bir şey göstərməliyəm...

Serj əşyalarını yerinə belə qoymamışdı. Pencəyi hələ də çar-

payının üstündə qalmışdı. Onun həqiqətən vəziyyəti yaxşı deyildi. Pencəyinin iç cibindən fotoşəkil çıxartdı.

– Mənə bu şəkillərin tarixini danışmaq istəmirsən? – hər şey adi sakit səs tonu ilə başladı.

Fotolar gözəl idi. Məhdud saylı dəb jurnalının üz qabığına əla yaraşardı. Nuranla mən at belində. Kənardan belə qəşəng, aşiq göründüyümüz ağlıma belə gəlməzdi. İnkar etmək mənasız idi...

Səhər Nuranla birlikdə Moskvaya qayıtdıq. O, məni Moskvadakı mənzilinə apardı. Bu qərara nə vaxt gəldiyimi bilmirəm. Onun kompüter masasına yaxınlaşdım. Monitorun yanında şəkil çərçivəsi vardı. Novqoroddan. Məndə də beləsi var. Brodskinin kitabının arasında gizlətmişəm, ondan ancaq mənim xəbərim var. Perronda xatirə şəkli çəkdirmişdik. Və mən çemodanlarımı Nuranın evində qoydum.

Sergey ağlayır. Onu bu halda görəcəyim heç vaxt ağlıma gəlməzdi. Bu qədər əmək sərf etdiyi adam yıxdı onu. Çarpayının yanında oturub, gözünü boşluğa zilləyib. Bir gün məni bağışlayacaq, bilirəm. Təbiətin qanunu belədir: yaz, yay, sonra payız və qış. Beş il öncə yazdan birbaşa payıza atıldıq. Amma həmişə belə yaşamaq olmaz. Belə, hətta, daha yaxşıdır, daha sakitdir. Dodağım ağrıyır. Amma Sergeyə qəzəblənmirəm. Bəlkə, nə vaxtsa onun üçün də yaz qayıdar. Mənim yazım isə artıq burdadır.

***

Leyla Lalanın həyatı haqqında çox düşünürdü. Onun həyatında hər şey nümunə hesab olunan qaydadan bir qədər fərqli şəkildə başlamışdı. Əsas odur ki, Lala sevir və sevilir. O, məhəbbəti və özü uğrunda mübarizə aparırdı.

Leyla hamiləliyin qarşısını alan dərmanların istifadəsini dayandırdı, uzun saçlarını kəsdirdi, özünə, xarici görünüşünə daha çox diqqət ayırmağa başladı, çox oxuyur, dua edir, var-gücü ilə

emosional fonu bərpa etməyə çalışırdı. Ruslan yenə yaxınlaşdı. Leylanın bir neçə aydan sonra yenidən ana olacağını öyrəndi. O vaxt Ruslana Ukraynada münasib qiymətə ağac emal edən müəssisə almaq təklif olundu. Onlar həyatlarında yeni səhifə açdılar.

Burada, Zakarpatyedə də ev işləri ilə məşğul olur, bəzən kədərlənsə də, yaradıcılıqla məşğul olmaq barədə xəyallara dalırdı. Uşaqlarının rəsmlərini çəkir, Ruslanı sevirdi. Onun cizgilərini kağız üzərində yaradarkən kimisə bu qədər ürəkdən sevməyəcəyini anlayırdı. Hiss edirdi ki, xəyanətlər geridə qaldı. İndi onların kiçik hovuzlu evləri, itləri, uşaqları...vardı.  Və hər bazar evdəkilər üçün bişirdiyi paxlavanın şirin dadından həzz alırdılar.

# Paxlavanın hazırlanması

**Lazımi ərzaqlar:**
Un – 500 qr
Yumurta – 2 ədəd
Xama – 150 qr
Süd – 150 qr
Kərə yağı – 50qr
Quru maya – 6 qr
Duz – 1 çimdik
Şəkər – 1 çay qaşığı
İçi üçün:
Qoz – 250 qr
Şəkər pudrası – 250 qr
Kərə yağı – 250qr
Hil – yarım çay qaşığı
Darçın – 1 çay qaşığı
Vanil

QLAZUR ÜÇÜN:
Yumurta – 1 ədəd
Qoz – 100 qr
Sirop üçün:
Bal – 150 qr
İsti su – 100 ml

**Hazırlama qaydası**

Mayalı xəmir yoğururuq: ılıq südə maya və 1 çay qaşığı şəkər əlavə edirik. Başqa qabda ələkdən keçirilmiş unu, yumurtanı, kərə yağını və duzu qarışdırırıq. Maya həll olunanda və südün üstündə köpük əmələ gələndə qarışığı digər qabdakı məhsullarla birləşdirir və xəmiri yoğururuq. Xəmir elə yoğrulmalıdır ki, ələ yapışmasın. Xəmirin gəlməsi üçün təxminən bir saatlıq qaranlıq yerə qoyun.

İçliyi hazırlamaq qaydası: çəkilmiş qozu şəkər pudrası ilə qarışdırın. Hil və darçın əlavə edin. İçin ikinci hissəsi kərə yağıdır. Onu istifadə etməzdən əvvəl əritmək lazımdır.

Xəmiri 12 hissəyə ayırırıq. Onlardan biri digərlərinə nisbətən bir az böyük olmalıdır. Bu hissəni çox nazik açırıq, formanın üstünü bağlamaq üçün kifayət olmalıdır. Yaxşı olar ki, formanın aşağısını və qıraqlarını bağlayasan, qıraqlardan 2 sm artıq qalsın. Bu qatı yağlayırıq, üstünə içdən tökürük. Digər kündələri də nazik açırıq, amma yaxşı olar ki, onlar formanın ölçülərinə uyğun gəlsin. İç və xəmiri sıralayırıq. Alt qatın artıq qalan xəmirini sonuncudan əvvəlki xəmirin üstünə qatlayırıq. Qıraqlarına çalınmış yumurta çəkirik. İç səpib ən sonuncu xəmir qatını qoyuruq. Paxlavanın üstünə yumurta çəkirik. İndi isə paxlavanı romblar şəklində kəsirik və hər rombun üstünə fındıq ləpəsinin yarısını yerləşdiririk.

Paxlavanın üstünü dəsmalla örtüb 15 dəqiqə saxlayırıq. Bundan sonra qızdırılmış sobaya yerləşdiririk. 15–20 dəqiqədən sonra formanı çıxarırıq, rombların aralarına əridilmiş kərə yağı gəzdiririk. Bişənə yaxın paxlavanın üstü qızaracaq, bu zaman onu yenə çıxarırıq, üstünə ballı şirənin üçdə bir hissəsini tökürük. Paxlavanı yenidən sobaya qoyuruq, tam hazır olana qədər orada qalır. Sonra çıxarırıq, soyumasını gözləyirik, sonra rombları bir-bir çıxarıb şirəyə batırırıq. Bununla da Azərbaycan paxlavasının bişirilmə prosesi sona çatır.

# Şakşuka

O, Taşanı hava limanında gözləyirdi. Əynində dama-dama köynək, cins şalvar vardı, kefi kök idi. Natalyanı qarşılamaqdan zövq alırdı. Bu, onun üçün bayram idi, əsas həyatla əlaqəsi olmayan həyata pəncərə idi. İsti çayı qurtum-qurtum içərək hava limanında qaynayan həyata baxır, qarşıda gözləyən iki sevinc dolu günlərin xəyalı onun ağlını başından alırdı. Onların eşq macərası ailə həyatına və ya birgəyaşayışa çevrilsəydi tez sonlanardı. Hər halda, Ruslan bu fikrə özünü inandırmağa çalışırdı, çünki Taşadan xoşu gəlirdi. Bəli, onu sevirdi. Özünəməxsus şəkildə sevirdi, Taşanın arzuladığı kimi yox. Sadəcə Taşa onu cəlb edirdi. Sevgi mürəkkəb hissdir, onun milyardlarla çaları var. Taşa onun üçün dəyərlidir. Əks halda, bütün işlərini, tədbirlərini, görüşlərini və ən nəhayət, ailəsini atıb burada niyə gözləsin ki?.. Ona görə ki, Taşa ilə keçirəcəyi iki həftə ona hava, su kimi gərəkli idi.

Hava limanında baş verənlərə başqa cür baxırdılar. Burada insanlar uzunmüddətli ayrılıqdan sonra qucaqlaşır, ya da uzunmüddətli, bəlkə də birdəfəlik ayrılırlar. Göz yaşları, xoşbəxtlik, qucaqlaşmalar, təbəssümlər, kədər, şadlıq, həyəcanlı ayrılıqlar və optimist salamlaşmalar. Təyyarələrin enib qalxdığı belə yerdə bütün bunlar tale kimi qaçılmazdır. Hekayələr, adətən, hava limanında başlayır və ya bitir. Səyahət, ezamiyyət, valideynlərlə

keçirilən həftə sonu. Burada başlanğıc və son qardaşdır. Və Ruslan səbirsizliklə öz başlanğıcını gözləyirdi.

– Natalya İvanovna sizsiz, – hava limanının işçisi Taşanı qarşılayanda məhz bu sualı verməli idi.

O mütləq təəccüblənəcək və Ruslanın bu kəşfi onu çox sevindirəcəkdi. VİP-görüş təşkil etmək yaxşı başlanğıcdır. Heç kim heç vaxt onu bu cür qarşılamayıb. O isə film qəhrəmanı, roman personajı, xəyallardakı kişi kimi qarşılayacaq. Taşa baqaj ardınca qaçmalı olmayacaq, onu birbaşa kafeyə gətirəcəklər. O özü də Ruslanı geniş təbəssümlə qarşılayacaq.

Hər şey belə də oldu. Taşa gülərək ona tərəf qaçdı, onu qucaqladı, amma hamının gözü önündə öpmədi, çünki Bakının Qafqaz şəhəri olduğunu və hisslərin belə açıq ifadəsinin bu tərəflərdə yaxşı qarşılanmadığı yadında idi. Taşanın əynində yüngül qara don, qəşəng qəhvəyi ayaqqabılar, son dəbə uyğun görünüşünü bir qədər ağırlaşdıran metalik pərçimləri olan dəri gödəkcə vardı.

“Mersedes”dən Taşanın şampununun və ətrinin iyi gəlirdi. Avtomobili Natalyanın gülüşü və inanılmaz ətri doldurmuşdu. Günəşin şəfəqləri onları oxşayırdı. Ruslan günəşin onun dərisinə toxunduğu hissələrdə kəpənəklərin uçuşduğunu hiss edirdi. Böyük məhəbbət bəslədiyin qadınla bir müddət birlikdə olmaq böyük səadətdir.

– Mən burda yaşayacam?

Bəzən Taşa acıdil olurdu. Ancaq bu nadir hallarda baş verirdi. Onun əhvalını sanki adi külək də dəyişə bilərdi.

– Hə, yaxşı evdir, bulvara yaxındır. Xoşuna gəlmədi?

– Yox, – səbəbini bildirmədən Taşa cavab verdi. Çox güman ki, uzunmüddətli ayrılıq onu hiddətləndirmişdi və bu üsulla Ruslanın diqqətini daha çox çəkməyə nail olmaq istəyirdi.

– Yaxşı, çalışacam başqa ev tapım. Əzizim, səni təəccübləndirmək getdikcə daha da çətinləşir.



Taşa divanda oturan Ruslana diqqətlə baxırdı, sanki iynələmək üçün bəhanə axtarırdı, ya da acılamaq istəyirdi, bəlkə, daha incitməmək üçün söhbəti bağlamaq barədə düşünürdü.

– Yaxşı, danışmaq istəmirəm. Get, yat, – deyə Ruslan incimiş kimi söylədi. O, dialoq oyununa başlamışdı.

– İstəmirəm, –deyə Taşa yaxına gəldi, Ruslanın dizləri üstünə oturub onu öpməyə başladı.

– Mən qətiyyən yatmaq istəmirəm.

Taşa Ruslanın üzünə busələr qondururdu.

Ruslan əlləri ilə onun ayağını sıxdı. Uzunboğaz corablarının bağını hiss edəndə nədən danışdığını unutdu. Onun müşk qoxulu ətrini ciyərlərinə çəkdi. Taşa onun əlləri arasında qıvrılırdı. Birlikdə ehtiraslı, dərin, tutqun Bakı gecəsinə qərq oldular. Qucaqlaşma, yuxu, yenə qucaqlaşma... Dəhşətli aclıq onları yuxudan oyatdı. Maşınla təzə kökə almağa yollandılar, kafedə yumurta-pomidor sifariş etdilər, sifariş etdiklərini götürüb birlikdə dənizə getdilər.

Dənizin üfüqü xəttinə baxan Taşa dedi:

– Bax, de görüm, bütün bunlar nəyimizə lazımdır? Biz nadir hallarda görüşürük. Hə, biz, deyəsən bir-birimizi sevirik. Amma sən mənlə evlənmək istəmirsən. Qətiyyən istəmirsən.

– Niyə istəmirəm ki? – Ruslan etiraz etdi. – Sadəcə indi vaxtı deyil, gözləməliyik.

– Soruşmaq ayıb olmasın, biz nəyi gözləyirik? – Taşa hücuma keçdi.

– Biz stabillik gözləyirik. Hələ ki işlər, səyahətlər çoxdur. Toy nədir! Sən çətin ki, indi Bakıya köçəsən.

– Bəlkə köçərəm! Sən axı özümdən soruşmamısan.

– Sənin Rusiyada qızın, anan var. Bunu necə təsəvvür edirsən?

– Onda sən Rusiyaya köç, – deyə Taşa əl çəkmirdi.

– Çətin ki, orada kiməsə lazım olam. Mənim işim Azərbaycanla bağlıdır. Zavodlar, Türkiyədə dizaynerlər. Üstəlik, burada

doğmalarım, dostlarım, valideynlərim var.

– Biz bir şey fikirləşərik. Moskvada mebel salonu açarsan.

– Çətin məsələdir. Burada özümüzküyəm, bazarı dərindən bilirəm. Orada hər şeyə sıfırdan başlamalıyam.

– Bəzən sıfırdan başlamaq faydalıdır. Mən fasilələrlə deyil, həmişə sənin yanında olmaq istəyirəm.

– Sən həmişə uça bilərsən, çətin deyil. Cəmi iki saatlıq uçuş və sən burdasan, dünənki kimi...

– Bu həyat deyil, sevgi deyil, mən sənə bağlanmışam. Ona görə də normal ailə həyatı qura bilmirəm.

– İvanova, əgər həyatında başqa kişi peyda olsa, səni öldürərəm, – Ruslan zarafatyana təhdid etdi.

Taşa kökədən bir parça kəsib onu yumurta-pomidora batırdı. Tikəni Ruslanın dodaqlarına yaxınlaşdırdı. Ruslan tikəni acgözlüklə uddu.

– Ənənəvi olan ən doğru olan deyil, – Ruslanın cümləsi güclə başa düşülürdü.

– Nə demək istəyirsən?

– Demək istəyirəm ki, bizim üçün belə də xoşdur, nəyisə dəyişməyə nə gərək var?

– Qadınlar belədir, – Taşa Ruslanın sözünü kəsdi, – qadın perspektivləri bilməlidir, mənim üçün həyatda dayaq nöqtəsinin, anlayışın, etibarlı kişinin yanımda olması vacibdir. Başa düşürsən?

– Məgər mən etibarsızam? – Ruslan suala sualla cavab verdi. – Mən sənə xəyanət eləmirəm...

– Mən xəyanət barədə danışmıram. Səninlə getməyə hazır olduğum uzun yol barədə danışıram, – Taşa gözlərini səmaya qaldırıb xəyallara daldı.

Günəş şəfəqləri suda rəqs edirdi. Bu an hər ikisi azad idi. Ailələrdən, şəraitdən, əziyyətli iş günlərindən qaçaraq qayda və şərtilik dünyası üzərində bir qağayıtək süzürdülər. Onlar yellən-

cəkdə yellənirdilər – reallıqdan arzuya və geri, bu yelləncəyi necə dayandıracaqlarını bilmirdilər, əvəzində sürəti daha da artırırdılar.

Ruslan anlayırdı ki, gec-tez Taşa öz xoşbəxtliyini, adi günlərdə naharı, bazar günləri gecikmiş səhər yeməyi olan əsl ailə qurmaq istəyəcək. Taşa öz arzularını danışmağa başladı:

– Təsəvvür et, bazar günüdür. Saat on birdir. İki övladımız olacaq, biri oğlan, biri qız, ikisi də dəcəl. Onların iri qəhvəyi gözləri, dolğun dodaqları və buruq saçları olacaq. Mətbəxə gedirik. Mən fəsəli qızardıram, kofe dəmləyirəm. Uşaqlar hoppanıb düşür, gülüşür, cizgi filmlərinə baxır, oyuncaqlarını ətrafa səpələyirlər. Ev səs-küylü və şəndir. Darçın və kofe qoxusu evə yayılıb. Biz dadlı və şən səhər yeməyindən sonra kinoya, oradan da attraksionlar parkına gedirik. Alış-veriş mərkəzindən oyuncaqlar və dadlı şirniyyatlar alırıq. İki itimiz var, biri balacadır,  biri böyük.

– Dayan, bəsdir. Bəsdir boş-boş danışdın. İvanova, bütün bunlar ancaq sənin beynində rahat görünür. Əslində, uşaqlar səhər yeməyimizi yeməyə imkan verməyəcəklər, itlər hürüb onlarla gəzməyə çıxmağımızı tələb edəcəklər, fəsəlilər yanacaq və sən televizorun səsinin çox yüksək olmasından qışqıra-qışqıra şikayət edəcəksən.

– Sən pessimistsən, – deyə Taşa əsəbləşdi.

– Mən yaxşı məlumatlandırılmış optimistəm, həm də realistəm. İndi haqqında coşqunluqla danışdıqların isə cəfəngiyyatdır. Belə şeylər ancaq reklamlarda olur. Sən rejissor təxəyyülünü reallıq kimi qəbul edirsən. Həyat televizorda göstərilən kimi deyil.

– Niyə hər şey mütləq pis olmalıdır ki? Kiçik mənzilində ahəngi qoruyub saxlaya bilən yüzlərlə ailə tanıyıram. Düzdür, çətindir, vaxt, anlayış, kompromisə getmək bacarığı tələb edir. Ancaq bunlara dəyər. Bütün bunlar ahəngdarlığa və sabahkı günə olan inama çevrilir.

– İnamın bunlara nə dəxli var, Taşa? Mən heç vaxt heç nəyə



əmin olmuram. Heç bir müqavilə, möhür, sözləşmə sənə xoşbəxt sabaha zəmanət vermir.  Hər şey dəyişir, həyat belədir. Bu gün sevə, sabah nifrət edə bilərsən. Ya da əksinə.

– Ruslan, bunları anlamaq üçün kifayət qədər yetkin deyilsən, – Taşa incidi.

– Gedək, ofisə baş çəkməliyəm. İşi tamamilə ata bilmərəm.

Axşamadək ofisdə oturdular. Taşa kitab oxuyur, qəşəng katibə ilə söhbət edirdi. Ruslan kimlərəsə zəng vurur, gah azərbaycanca, gah türkcə danışırdı. Gah qəzəblənir, qaşlarını çatır, gah gülümsəyirdi. Günün sonunda dostu Anar ofisə gəldi.

– Hələ yuxulamamısan? – Ruslan Taşanı kitablar aləmindən ayırdı.

– Yox, kitab maraqlıdır.

– Gedək, sənə sürprizim var.

Taşa uşaqlıqdan bəri milyonlarla lampanın işıqlandığı gecə panoramalarına xüsusi sevgi bəsləyirdi. Bu işıqlar onu valeh edirdi. Onun yaşadığı çoxmərtəbəli ev şəhərin yüksəkliyində idi, oradan axşamlar insanların evlərinə gəlib işıqları yandırdığını müşahidə etmək olurdu. Hər pəncərə arxasında bir həyat vardı. Bəzən Taşa pəncərə qarşısında oturub bu və ya digər pəncərə arxasında nə baş verdiyini təxmin etməyə çalışırdı. Fantaziyası intriqalar, dialoqlar, mübahisə və barışıq səhnələri qururdu. Niyə görəsə ona elə gəlirdi ki, hər ailənin maraqlı və qeyri-adi həyatı var. Taşanın həyatı kimi maraqsız deyil. Böyüdükcə anladı ki, demək olar hamının problemləri, qayğıları var. Və gecə pərdələrinin rəngli filtrindən süzülən işıq mənbəyində hər şey rəvan deyil. Məsələn, valideynləri Taşaya səhərə qədər televizora baxmağa icazə verməyəndə, qonşu evdə səhərədək işıq yananda düşünürdü ki, yəqin orada şənlikdir və gecə boyu maraqlı kinoya baxmaq olar. Sonralar qızının beşiyini yırğalayanda gülərək öz düşüncələrini xatırlayırdı.

Ruslan böyük həvəslə Taşanı Bakıyla tanış edirdi, onu heyrətləndirmək istəyirdi. Taşa isə gəzinti boyu həmişəlik burada qalmaq barədə düşünürdü. Ruslanın öpüşlərini hələ də hiss edirdi, istəyirdi ki, ancaq onun olsun, başqa heç kimin.

– Ruslan, buralar necə gözəl, necə əladır...

– Doğrudan da, Bakı şəhərlərin ən gözəlidir.

– Hə... Mən Bakını sevirəm. Amma mən Peterburqu da sevirəm... Güclü xarakteri olan şəhərləri sevirəm.

– Çoxu Parisi sevir. Amma məncə ora soyuq və çirklidir. Səni Parisə aparmayacam... – Ruslan qəhqəhə çəkdi.

Taşaya Paris heç lazım da deyildi. Bakıdan başqa heç yeri istəmirdi. Vaxt keçəcək, hətta Ruslansız belə, bu şəhər onun üçün əziz və doğma olacaq. Buraya gələcək, şəhər küçələrinin vurğunu olduğu qoxusunu ciyərlərinə çəkəcək, o, küçələr boyu gəzəcək, yavaş-yavaş şəhərin hər dalanı ilə tanış olacaq. Taşa üçün bura dadlı, isti, ahəngdar, parlaq və sakit olacaq. Taşa həmin axşam narahat idi, hər an Ruslanı itirə biləcəyi hissi onu narahat edirdi. Havada deyilməmiş sözlər asılıb qalanda ona elə gəlirdi ki, bir az da davam etsə, Ruslan onun əlindən çıxacaq.

Parkın yaxınlığındakı çoxmərtəbəli binaya çatdılar, əvvəlcə liftlə on səkkizinci mərtəbəyə qalxdılar, sonra pilləkənlə daha bir mərtəbə yuxarı çıxdılar. Qapı açılanda Taşa mətbəxlə bitişik, iki tərəfdən döşəmədən tavana qədər panoramlı pəncərələri olan qonaq otağını gördü. Gecə hər yer işıq saçırdı. Qonaq otağındakı qapı təxminən əlli metr olan geniş şüşəbənd eyvana açılırdı. Penthausda iki yataq otağı da vardı. Bəli, o məhz bu cür ev istəyirdi, amma bundan özünün belə xəbəri yox idi.

– Təəccübləndirdim? De ki, əladır! – Ruslan onun reaksiyasını gözləyirdi.

– Hə, inanılmazdır! – Taşa ətrafındakı barokko üslublu me-

bellərə böyük həzzlə baxaraq dedi.

– İki həftə burda yaşayacağıq.

– Nə yaxşı... – Taşa qaçaraq Ruslanın üstünə atıldı, onu bərk-bərk qucaqladı.

Ruslan onu özünə sıxdı. Taşa onun yanında olanda belə, ondan ötrü darıxırdı. Ona toxunmaq istəyirdi. Dodaqları ilə, əlləri ilə... İlk gündən bəri keçirdikləri gecələr və isti günlər unudulmaz idi. Onun bədəninin qoxusunu, qısa, oxşamağı sevdiyi sərt saçlarını hər zaman xatırlayacaq. Ruslan ona yanında olmağa icazə verirdi. O, həmişə seksə razı olmurdu. Buna görə Taşanın istəyi daha da artırdı. Ruslan mahircəsinə Taşanı idarə edirdi, onun üzərindəki hakimiyyətini duyur və ondan məharətlə istifadə edirdi. Taşa isə özünü, bədəninin hər hüceyrəsini bütünlüklə ona təslim etmişdi.

– Gəl sabah qonaq çağıraq. Anar pizza istəyir.

– Bakıda niyə pizza hazırlasın ki? Burada necə də dadlı Qafqaz yeməkləri var. Qoy İtaliya istirahət etsin...

– O qonaq gəlmək istəyir, gitara gətirəcək, çalıb oxuyarıq... Pizza bişirərik. Mədəni proqram, İvanova. Başa düşürsən?

– Başa düşürəm, əlbəttə...

– Səyahətini necə unudulmaz edəcəyimizi düşünürük,–deyə Ruslan izah etməyə çalışdı.

– Mən belə də günlərimi şən keçirirəm. Sənin varlığın mənə bəs edir.

– Bəlkə, sən də nəsə bişirəsən?

– Qutab bişirim? – Taşa soruşdu.

– Bişirə biləcəyindən əminsənsə, – Rəhimov təklifi qəbul etdi.

– Qoyun əti və göyərtili qutab, – Taşa qərar verdi.

– Əla, – Rəhimov təsdiqlədi.

Səhər Taşa Ruslandan əvvəl oyandı ki, duş qəbul etsin, saçlarını qaydaya salsın, yüngül makiyaj etsin və sevgilisinin qarşısına gümrah vəziyyətdə çıxsın. Ruslan bayquş kimi çox yatardı, yalnız

iş onu çarpayıdan ayıra bilərdi. Taşa qayğanaq bişirdi. Çörək və pendir doğradı, kofe dəmlədi. Yatan Ruslana baxmaq üçün onun yatağına yaxınlaşdı, daha on dəqiqə onu narahat etməmək qərarına gəldi. Özünə bir fincan qəhvə süzüb eyvana çıxdı. Şəhərdə səhər saat doqquz idi, hamı işə tələsirdi.

Bakı – günəşli şəhərdir. Yəqin ona görə burdakı insanlar daha çox gülümsəyirlər, kədərli adamlar daha azdır. Burada böyük məmnuniyyətlə yeyir, içir, dəniz havası udur, yaşanmış səhifələri ehtirasla vərəqləyir, lazım gələrsə hər şeyə yenidən başlayarlar. Burada həyata yüngül yanaşırlar. Bakıda tez-tez zaman barədə unudurlar, gecikmək bu şəhərə xas özəllikdir, çünki tələsmək, demək olar ki, pis davranış nümunəsi hesab olunur. Burada gecikməyən tək şey sevgidir. Sanki, sevmək üçün heç kim gecikmir.

Taşa kofeni başına çəkib xəyallara daldı. Pijamada on doqquzuncu mərtəbədə dayanmaq fantastik haldır. Elə bil, dünyanın mərkəzindəsən, aşağıdakı təlaşdan daha yüksəksən. Taşa həyat və qeyri-müəyyənlik haqqında düşünürdü ki, birdən arxasında səs eşitdi.

– Salam...

– Salam, – Taşa diksinərək cavab verdi.

Sən demə, alpinistlər fasadı boyayırdılar. Onlar Taşanı qorxutdular, o dərhal öz xəyallar aləmindən qopdu və Ruslanı oyatmağa getdi. Ruslan səhər yeməyi vaxtı adətən səssiz olurdu.

Nahara qədər günəşli şəhəri gəzdilər. May əhvalı ilə nəfəs alırdılar, bir-birlərinə baxır və gələcək barədə xəyallar qururdular. Hərçənd bu xəyallar heç vaxt həyata keçməyəcəkdi. Ruslanın telefonuna zəng gəldi, ekranda “Leyla” adı işıqlandı. Başa saldı ki, zəng edən keçmiş arvadıdır. Taşa yalanı hiss edirdi, lakin özünü hər şeyin yaxşı olduğuna inandırmağa çalışırdı. Qadın həmişə öz-özünə təsəlli verir və güvənməyə hazırdır. İstənilən qadın bütün həyatı boyu “səni bütün bunlardan uzaqlaşdırım...” deyən kişinin

gəlişini gözləyir. Və təqaüd yaşına az qalmış anlayır, kimsə onu həmişəlik və hər şeydən uzağa apara bilməz. İnsanların maddi qayğılarından, öz-özünü mühakimədən və pis xəbərlərdən azad olduğu, sevginin əbədi yaşadığı elə uzaq planet mövcud deyil. Ən həqiqisi utopiyadır. Ancaq Taşaya o an elə gəlirdi ki, Ruslanla məhz həmin planetdədir. Heç nəyə baxmayaraq yalnız burada – Bakının mərkəzində mövcud ola bilən sevgi ilə bir-birlərini sevirdilər.

Axşam qonaqlar buyurdular. Anar bir xanımla gəlmişdi. Xanım opera müğənnisi idi. Ustalıqla pizza bişirirdi, onu gitara sədaları müşayiət edirdi. Ruslan tanış və asan latınamerika motivlərini ifa edirdi. Havada baharın təravəti duyulurdu, aprelin sonları idi. Stolu verandaya çıxardılar, gecə Bakısına baxdılar. Taşa özünü ev yiyəsi kimi hiss edirdi. Külək saçlarını dağıdır, dənizin qoxusu onun ürəyini şirin dənizkənarı xoşbəxtliklə doldururdu. Dəniz sahilində olanda yalnız yaxşı şeylərə inanmaq istəyirsən. Taşa da şəhər işıqlarına, dənizə baxaraq bütün arzularının və planlarının mütləq həyata keçəcəyinə inanırdı. Müğənni Səadət caz kompozisiyası ifa etdi, bu ifa gözəllik və sevgi atmosferini uğurlu şəkildə tamamlayırdı.

– Siz necə də xoşbəxtsiz, – Anar dedi, – ikiniz də işıq saçırsız.

– Yaxşı görək, – Ruslan narazılıq etdi.

– Elədir, işıq saçırsız... İnkar etmə. Sizdə sevgi aşıb-daşır.

– Anar, bizi utandırırsan, – Taşa bu işığı qorumaq üçün sakitcə dedi.

– Bax mən heç vaxt belə olmamışam, aşiq ola bilməmişəm. Bu isə əsl xoşbəxtlikdir, – Anar mövzunu davam etdirirdi.

– Anar, sadəcə istəmək lazımdır. Buna açıq olmaq gərəkdir. O zaman sevgi özü sənin qəlbinə qonacaq, qəlbini işıqlandıracaq. Demək, sən hələ ciddi duyğular üçün hazır deyilsən.

– Kim bilir, bəlkə bir gün mən də ürəyimin qapılarını aça-

ram... – Anar Səadətə baxıb gülümsədi.

Səadət utandığından gözlərini aşağı dikdi. Sözsüz ki, Anarın diqqəti onun xoşuna gəlirdi. Onlar öz hekayələrinin başlanğıcında idilər.

Yenə mahnılar oxudular, şirniyyatla çay içdilər. Birdən Taşa Ruslanın tez-tez telefona baxdığına fikir verdi. Gizlədirdi, amma əsəbləşirdi.

– Nəsə olub?
– Hər şey yaxşıdır.
– Dəqiq?
– Nəsə olsa, gecə mənsiz qala bilərsən?
– Qala bilərəm, əlbəttə, amma istəməzdim...
– Anamın yanına getməliyəm. Deyəsən, vəziyyəti pisdir.

Taşa Ruslanın hələ sönməyə macal tapmamış telefonunun ekranına baxdı. Orada "Leyla" yazıldığını gördü. Başa düşürdü ki, arvadı artıq keçmişdədir. Ruslan belə dedi. Narahat olmağa ehtiyac yoxdur, deyəsən. Lakin içində nəsə narahatlıq baş qaldırmışdı. Göz yaşları azadlığa çıxmaq istəyirdi. O, axşam on birdə gedib bir də növbəti günün axşamı qayıtdı. Saat yeddidə zəng vurdu.

– Gedək gəzək.
– Gedək, – Taşa heç nə olmayıbmış kimi cavab verdi.
– Rahat geyin. Səni çox maraqlı bir yoldaşla tanış edəcəm

Taşa onun dediyi kimi geyindi, taksi ilə parka gəldi. Özündən razı görkəm alıb görüşə tələsdi, Ruslanın dünənki gedişinə əhəmiyyət vermədi. Ruslanın qucağında körpəni görəndə çox təəccübləndi. Uşağın iki yaşı vardı.

- Bu Ömərdir, - Ruslan dedi.

Uşaq iri qəhvəyi gözlərini Taşaya zilləmişdi. O, çox sakit halda diqqətlə Natalyanı süzürdü, onu öyrənirdi. Taşa onun balaca toppuş əllərinə toxundu. Ruslanın bu balaca uşağı tutaraq necə fərəhləndiyini Taşa görürdü və bu sevgini qəbul edə bilmirdi. Qısqanclıq

onu boğurdu, içini parçalayırdı. Bacardıqca uzağa qaçmaq istədi. Nə qədər uzaq olsa, o qədər yaxşıdır. Ruslanın kimisə ondan daha çox sevə biləcəyi fikri onu dəli edirdi.

– Sənin oğlundur?

– Hə, gəzməyə aparacam, – Ruslan sevincək halda dedi.

– Niyə onu bizimlə gəzməyə aparırsan ki? – Taşa özünü saxlaya bilmədi.

– Sizi tanış etmək istəyirdim. Onu tutmaq istəyirsən?

Taşa onu qucağına aldı. Sevimli, isti, mehriban körpə Ruslana çox oxşayırdı. Qara saçlar və qarabuğdayı dəri. Amma onu sevmirdi, əksinə, Ruslanı kimləsə paylaşmağa hazır deyildi.

Üçü birlikdə parkda gəzirdilər. Taşa isə qəmli idi. Kədərlənirdi, çünki Ruslanın başqa, ona məlum olmayan həyatla qırılmaz bağının olduğunu anlamağa başlamışdı. Hardasa orda o, çox xoşbəxtdir və bu dəhşətli idi. O, Taşasız yaxşı ola bilməz. Heç cür. Taşa belə hesab edirdi, onu fikrindən döndərmək mümkün deyildi. Taşanın özünün bu qəzəbindən zəhləsi gedirdi. Natalya bu neqativi körpəyə yox, başqa nəyəsə duyduğuna özünü inandırmağa çalışdı. Amma uşağa nifrət edirdi. İyrənc duyğular. O axı məsumdur, körpədir. Öməri necə sevməmək olar? Lakin heç bir arqument Taşanın fikrini dəyişə bilmədi.

Həmin axşam Ruslan uşağı öz evinə aparıb, onun yanına qayıtdı. Onu öpürdü, Taşa isə hönkürtü ilə ağlayırdı, sanki onu itirdiyini anlayırdı. Var-gücü ilə ona sarılırdı, nəfəsini içinə çəkirdi, bədəninin hər hissəciyi onu sevirdi. O gecə sehrli gecə idi. O qədər möhtəşəm idi ki, xoşbəxtlikdən özündən gedə bilərdi. Ruslanın zərif və güclü əlləri Taşanın bədənini özünə bənd edirdi. Taşa isə bu əllərin onu heç vaxt buraxmamasının xəyallarını qururdu.

Milyonlarla işığın əhatə etdiyi on doqquzuncu mərtəbədəki penthaus əbədi olaraq onların ehtiras dolu şəxsi dünyaları olaraq qalacaq. Bu gecə Taşanın yuxularına girəcək, onun ilham mənbəyi

olacaq. Bunu heç vaxt unutmayacaq. Çünki belə bir gecəni yaşayıb, sonra isə unutmaq özünə xəyanət etmək deməkdir.

– Məni sevirsən?

– Sevirəm, – Ruslan cavab verdi.

– Dünyadakı bütün qadınlardan daha çox?..

– Mənim ürəyim çoxmənzilli ev kimidir, çox yer var. Hər adam onun üçün ayrılan kiçik evdə yaşaya bilər. Sakinlər dəyişir, ürəyimdəki adamlar dəyişir. Sən isə onlardan fərqli olaraq qəlbimin penthausundasan. Ora əbədi olaraq sənindir.

# Şakşukanın hazırlanması



**Lazımi ərzaqlar**

Zeytun yağı – 1 çay qaşığı
Baş soğan – yarım ədəd
Sarımsaq – 1 diş
Şirin bibər -1 ədəd
Pomidor – 4 ədəd
Tomat pastası – 2 xörək qaşığı
Üyüdülmüş zirə -1 çay qaşığı
Qırmızı istiot – 1 çay qaşığı
Üyüdülmüş qara istiot – bir çimdik
Şəkər – bir çimdik
Duz – zövqə görə
Yumurta – 5 ədəd
Doğranmış cəfəri – zövqə görə

**Hazırlıq müddəti, 30 dəqiqə**

1. Zeytun yağını dərin tavada qızdırın. Soğan əlavə edin, şəffaflaşana qədər qızardın, sarımsaq əlavə edin və daha iki – üç dəqiqə qarışdırın.
2. Doğranmış bibəri əlavə edib daha 5–7 dəqiqə bişirin, daha sonra tavaya pomidorları və tomat pastasını atın və qarışdırın. İndi ədviyyatları və şəkəri əlavə edin. Yenə qarışdırıb 5–7 dəqiqə bişirin. Duz və istiot səpin, dadına baxın – əgər dadı sizi qane edirsə belə qalsın, etmirsə bir az da şəkər, duz və ya istiot əlavə edin.
3. Yumurtaları bir-bir tavadakı qarışığın üstünə qırın. Qapağı örtün, 10–15 dəqiqə belə bişsin.
4. Bu vaxt ərzində sous bir qədər buxarlanacaq. Diqqət edin ki, tam buxarlanmasın, yoxsa şakşuka yanar. Onu elə qazandaca yemək lazımdır. Qazanınız çuqundur, elə deyilmi?

# Plov

Keçmiş gözlərinin önünə gəlir, yaddaşı alt-üst edir. Piteri xatırlayıram... Soyuqlamış, qış öncəsi, rütubətli Peterburq. Keçmişin xatirələrinə bürünmüş dalanlar barmağını boş qalmış yol ayrıcına tuşlamışdı. Bir-birinə paradoksal şəkildə aşiq olmuş iki insanı xatırlayıram. Camaat Peterburq küçələrini perpendikulyar şəkildə gəzir. Məncə, gecəyarısı hamının yolları kəsişir. Bu zaman hərəkət dayanır, adamlar yarıyuxulu köpəklərini tumarlayır. Piteri xatırlayıram... Yolboyu rastlaşdıq, yarıdəli itkilər görüşdü... Aprel və penthausdan yeddi ay keçirdi. Yeddi ay boyu yazışmalar, küsüşmələr, anlaşılmazlıqlar. Sanki hər şey itirilə bilərdi, qırılmış boyunbağının muncuqları kimi ətrafa səpələnirdi. Onu daha yığa bilməzsən. Taşa ikiqat güclə döşəməni yuyurdu. Böyük şövqlə işləyirdi. Ona elə gəlirdi ki, bütün həyatı gözləməklə keçir. Özünü əlində çemodan vağzal perronunda gəzən adam kimi hiss edirdi. Nəyinsə baş verəcəyini gözləyirdi. Ruslanla telefon vasitəsilə əlaqə saxlayırdılar. Gah barışır, gah küsüşürdülər, gah bir-birlərinə sevgi etiraf edir, gah da qəzəblərini ifadə etmək üçün sözlər axtarırdılar.

Yelləncək. Güclü və anlaşılmayan hisslər yelləncəyi. O, Bakıya getmək istəyirdi, onun yanında olmaq istəyirdi. Hər şeyi atıb get-

sin. İş üçün yox, sevgi üçün yaşasın. Sərsəm qadın arzuları. Heç vaxt çin olmayacaq arzularla yaşayırdı.

Balaca, çevik, yorulmaq bilməyən diribaş rəfiqəsi Katya zəng vurdu. Hadisələr Taşanın ad günü ərəfəsində baş verirdi.

– Qulaq as, bəsdir yır-yığışla məşğul oldun. Gedək kofe içək, mağazaları gəzək. Bəlkə alış-veriş mərkəzinə gedək? Bəsdir dərd çəkdin.

– Niyə qəmli olduğumu düşünürsən ki? – Taşa özünə bəraət qazanmağa çalışdı.

– Ona görə ki, altı aydı üzün gülmür...

– Heç də elə deyil. Mən sevgi ilə yaşayıram. Bu, tamam fərqlidir.

– Sən özünə işgəncə verərək yaşayırsan. Bu sevgi deyil, özünə əzab verməkdir, – Katerina onu tənbehlədi.

– Əl çək, xahiş edirəm. Hə, mən pisəm. Hə, özümü bərbad hiss edirəm... Məni sevindir.

– Ad gününə nə istəyirsən? – Katya soruşdu.

– Mənə Rəhimovu hədiyyə et, – Taşa cavab verdi.

– Yenə başladıq!.. Hər şeyi unutmaq əvəzinə, yenə onun haqqında danışırsan!

– Sual verdin, mən də cavabladım. Mən onu sevirəm, başa düş. Nə işləyə bilirəm, nə də yaşaya. Onsuz mənə heç nə, heç kim lazım deyil, – Taşa boğuq səslə izah etməyə başladı.

– Yaxşı, gedək kofe içək... – rəfiqəsi telefonun şikayət kitabçasını bağlamaq qərarına gəldi. Amma başa düşürdü ki, qəhvəxanada bu şikayətlər real formatda davam edəcək.

Taşa bilirdi ki, Katya üçün qeyri-mümkün heç nə yoxdur. O, təbiətcə macərapərəstdir. Və yeni macəranı göylərin hədiyyəsi kimi qəbul edirdi. Ona görə də, beş gündən sonra Katya ona Piterə aldığı biletləri hədiyyə edəndə, demək olar ki, Taşa təəccüblənmədi. Ad günü üçün xüsusi heç nə planlaşdırmadığından Taşa böyük

məmnuniyyətlə Neva sahilindəki şəhərə uçmağa razılıq verdi.

Gözlənilən günün axşamı Katerina ilə Leninqrad vağzalında qatara mindilər. Əvvəlcədən qırmızı kəmşirin çaxır, pendir, çips və başqa qastronomik tədbirlər görmüşdülər. Yanlarında oturan gənc oğlan marağını gizlətməyərək rəfiqələrin həyat barədə mühakimələrinə qulaq asırdı. Taşa isə ürəyini boşaldırdı.

– Onun nəsə problemi var. Əks halda belə uzun müddət ayrılmazdıq, –deyə arxada qalan işıqlara pəncərədən baxaraq Natalya dedi.

– Sadəcə, onun üçün bu məsələ sənin üçün ciddi olduğu qədər vacib deyil.

– Sənin həyatında kimsə var... – Taşa rəfiqəsinin inkar edəcəyini bilsə də soruşdu.

– Hə, əlbəttə. Yarım ildir ki, sənə vəfalıdır və digər qadınlar barədə qətiyyən düşünmür, – Katya kinayə ilə dedi.

– Niyə belə deyirsən? Mən ki ona sadiqəm...

– Səni Qırmızı kitaba salmaq lazımdır, İvanova. Camaat bu cür eşq macəralarını on səkkiz il qabaq oynayıb, sən isə hələ indi başlamısan.

– Oynayıb nə deməkdir? Niyə bunu oyun olaraq düşünürsən, – Taşa küskün halda soruşdu.

– Çünki bu heç də münasibət deyil. Bu, müvəqqəti görüşlərdir. Qətiyyən anlaşılmayan əhvalatdır. Vaxt keçir, sən şəxsi həyatını qaydaya salmalısan.

– Bəs şəxsi həyatımı Ruslandan başqa heç kimlə qurmaq istəmirəmsə? Onda nə edim?.. – onun səsində əsəbilik hiss olunurdu.

– Ola bilər ki, dediklərim bir az kobud səslənər, amma məncə sən burada – Rusiyada özünə birini tapmalısan. Belə münasibətin ailə qurmaq perspektivi var. Ruslanı isə burax. Uçmaq üçün həmişə bəhanə tapmaq olar... – Katya sözlərini mümkün qədər yüngül tonda deməyə çalışırdı ki, ideyasının sadəliyini çatdıra bilsin.

– Ağlını tamam itirmisən, – Taşa hiddətlənirdi.

– Yox, ikimiz arasından ağlını itirən sənsən. Hərdən mənə elə gəlir ki, bütün bunlar heç vaxt bitməyəcək, – Katya ciddi tərzdə dedi.

– Yaxşı, bəsdir daha işıqlı hisslərimə görə tənqid eşitdim. Peterburqda nə edəcəyik? Mənim sevimli panoramlı restoranıma gedək?

– Əlbəttə. Mən hətta indidən bizim üçün masa saxlatdırmışam, – Katya göz qırpıb gülümsədi.

Hə, bu, Taşanın ağlına gəlmişdi, amma yenə də uşaqtək sevindi. Perronda Ruslan dayanmışdı. Bu möcüzə, xülya, ən yaxşı ad günü sürprizi idi. Ümumiyyətlə, Ruslanın hər gəlişi Taşa üçün bayram idi. O, özü ilə birlikdə sevgi, ehtiras, ilham, şadlıq gətirirdi. Anarla birlikdə perronda dayanan Ruslanın qəlbi sevinclə dolmuşdu. Ruslan əllərini geniş açıb Taşanı bu doğma qucaqla qarşıladı. Bədəni titrədi, istilik inanılmaz sürətlə bütün bədəninə yayıldı, qəlbini isitdi. Heç nə qəlbi sevgi qədər isidə bilməz. Ürək daha sürətlə döyünür, damarlardan xoşbəxtlik axır. Taşa Moskva vağzalındakı bu görüşü heç vaxt unutmayacaq. Çünki bir daha heç vaxt qəlbini belə riqqətə gətirməyəcək. Bunları ancaq yuxularında görəcək və Taşa nostalji duyğuların gətirdiyi yüngül kədərlə bunları xatırlayacaq. Ruslan onu tanış parfüm ətirli kəşmir paltosuyla qucaqladı. Taşa bu arzular aləminə, istilik dənizinə qərq oldu. Və bu əllərin bir də heç vaxt onu buraxmamasını dilədi.

Ruslan onu mərkəzdəki köhnə Peterburq həyətində yerləşən gözəl apartamentə gətirdi. Taşanın sevdiyi hər şeyi aldığını, soyuducunu doldurduğunu dedi. Belə anda yemək yada düşərmi?... Taşa uçurdu, bir anlıq hər şeyi qaydaya salmaq üçün şans əldə etdiyini düşündü. Peterburq boyu gəzişir, arxitekturanın seyrinə dalır, kiçik kafelərə girirdilər. Hətta dekabrın əvvəlindəki bərbad hava onların əhvalını poza bilmədi. Onları sevgi isidirdi. Kofe içir,

gizlincə öpüşürdülər. Katya və Anarı tamaşaya göndərib özləri evə qayıtdılar.

Qucaqlaşıb divanda oturmuşdular. Taşa Ruslanın əl barmaqlarının uclarını öpürdü.

– Taşa, qərara gəldim ki, bundan sonra seks olmayacaq. Mənə olmaz.

– Niyə? – Taşa onun boynunu öpərək dedi.

– Ona görə ki, daha heç nə olmayacaq. Gəl dost qalaq. Axı bizə dost qalmağı heç kim qadağan etmir, elə deyil?

– Bu nə axmaqlıqdır? Əlbəttə, Uayldın dediyi kimi, kişi və qadın arasındakı dostluq keçmiş ya gələcək sevgililər arasındakı münasibətdir, Taşa onun sözlərinə ciddi yanaşmırdı.

– Mən ciddiyəm. Sən çox xoşuma gəlirsən. Hə, səni çox sevirəm. Amma gələcəkdə heç nə olmayacaq. Bizim gələcəyimiz yoxdur.

– Gəl şərab şüşəsi açaq, – Taşa onun sözünü kəsdi.

Ruslan qırmızı kəmşirin şərab şüşəsini açdı, qədəhləri doldurdu.

– Sənə elə gəlmir ki, biz həmişə zaman və məkan xaricində mövcud olmuşuq?

– Nə demək istəyirsən? – Ruslan qaşlarını çatdı.

– Demək istəyirəm ki, bizim qəribə və müvəqqəti münasibətimiz var. Amma biz birlikdə olanda elə xoşbəxt oluruq ki, bu xoşbəxtlik hər çətinliyə dəyər... Niyə gələcəyimiz ola bilməsin ki? Bu fikir nədən yarandı?

– Ondan ki, Taşa, mən evliyəm. Və arvadım ikinci uşağın yolunu gözləyir.

Taşa əlindəki qədəhi sıxdı, onu bar piştaxtasının arxasındakı divara var-gücü ilə çırpdı. Qədəh parçalandı, içindəki şərab ətrafa töküldü, ağ divarda şərab ləkələri göründü. Hə, o nədənsə şübhələnirdi, amma bu fikrin beynində kök salmasına icazə ver-

mirdi. Ancaq, İlahi, bunları eşitmək necə də çətindir.

- Bu barədə heç nə bilmək istəmirəm. Necə? Necə başqa qadına aid ola-ola mənim yanımda qala bildin?

- Səni sevirdim... Nə edəcəyimi bilmirdim. Sən məni cəlb edirdin. Özümlə, asılılığımla, sənin nəfəsini duymaq hissi ilə mübarizə aparırdım.

- Yox, sən başa düşmürsən ki, təkcə məni yox, bu müddət ərzində onu... Leylanı da incitmisən. Sən həm mənə, həm ona xəyanət edirdin.

- Taşa, həyat ziddiyyətlərlə doludur. Bizim münasibətimizdən necə qurtulmağa çalışdığımı görürdün. Ancaq sən özün məni buraxmırdın. Zənglər, mesajlar, sosial şəbəkələrdəki şəkillər. Bir gün belə, bizim münasibətdən uzaq dura bilmirdim. Sənin səsini eşidən kimi dəli olurdum, başımı itirirdim, sənlə birlikdə uzaqlara qaçmaq istəyirdim. Sən haqda düşünməkdən, sənə toxunmaqdan xoşum gəlirdi.

- Ruslan, bütün bu sözlərin necə də yersizdir. Etirafından sonra bütün təntənəli sözlər çox şit səslənir.

- Bəsdir, xahiş edirəm. Sənə heç nə deməyə bilərdim... Hər şeyi davam edə bilərdik... Amma mən sənin xoşbəxt olmağını istəyirəm. Başa düşürəm ki, səni buraxmalıyam. Nə qədər ağır olsa da. Elə bilirsən mənim üçün asandır? Bir yeşik şərabla evdə qalıb hər kəslə əlaqəmi kəsmək istəyirəm. Mən də bu ayrılığı yaşamalıyam.

Taşa intuitiv olaraq anı tutdu və dodaqlarını onun dodaqlarına yaxınlaşdırdı. Divandan döşəməyə diyirləndilər, bir-birlərini paltarlardan azad etdilər. Ruslan onu elə öpürdü ki, sanki bədəninin hər millimetrini yaddaşına əbədi həkk etmək istəyirdi. Onun hərəkətləri ritmik, cəsur idi, dodaqlarını dişləyir, saçlarını sığallayırdı. Dodaqları ilə Taşanın göz yaşlarını qurutmağa çalışırdı. Onlar başqa dünyada–ehtiras, harmoniya, bütünlük dünyasında idilər. Bu dünyadakı həyat qısa olsa da, ömür boyu kifayət edər.

Sanki son dəfə görüşürlər, havaları çatmırdı, hisslər başlarını gicəlləndirdi, sevgidən və şərabdan sərxoş olmuşdular. Göz yaşlarının duzlu dadı, ətri bir-birinə qarışmışdı...

Dərd yaxınlaşırdı, onlar isə xoşbəxt idilər. Paradoks – həmin an heç vaxt olmadıqları qədər yaxın idilər. Bir-birlərini itirmək üzrə ikən bütün bunların bir daha yaşanmayacağından qorxurdular, buna görə də həyatdan bacardıqca çox şey almağa çalışırdılar.

Xalçada uzanmışdılar, Ruslan sakitcə siqaret yandırdı. Taşa göz yaşlarını silirdi. Emosiyalar yerini şüura buraxırdı. Sakitlik bədənə yayılırdı.

– Biz necə olacağıq, – Taşa ritorik sual verdi.

– Yarım ili necəsə yaşadıq axı...– Ruslan siqaretin tüstüsünü buraxaraq dedi.

– Səni bilmirəm, amma mən görüş ümidi ilə yaşayırdım. Həyat bizlə niyə belə davranır?

– Taşa, həyat biz düşündüyümüzdən daha çətindir... Mən arvadımı və iki uşağımı ata bilmərəm. Hər şeyə davam etmək yenə xəyanət, gizləmək, gizlənmək deməkdir. Tərk eləmək... Bizim yaşayış şəraitimizə və ənənələrimizə uyğun deyil. Təkcə arvadıma və ailəmə deyil, bütün qohumlarıma xəyanət etmək deməkdir. Tənha yaşamaq isə mümkün deyil.

– Bəs mən? Mən necə olacam? – Taşa küskün halda etiraz etdi.

– Taşa, xoşbəxt ol. Sən yaxşı insansan. Genişqəlbli və cazibədarsan. Bir müddət sonra sən yenidən aşiq olacaqsan.

– Nə indi, nə də əlli il sonra başqası ilə olmaq istəmirəm.

– Sən indi belə deyirsən. Bizim münasibətimiz ehtiras üzərində qurulub. Onlar çox kövrəkdirlər. Ən böyük sual, bizim ailə qura bilib-bilməməyimizdədir...

– Ruslan, biz buna heç cəhd etmədik...

Otaq siqaret dumanına qərq olmuşdu. Dumanlı şüur, nitq daha

çox ekpressiyaya bənzəyirdi. Göz yaşları, ağlaşma, şərab, qucaqlaşma... Yenə bir-birinə aid olmaq, bir-birinin ətri, xoşbəxtliyə dalmaq. Bu xoşbəxtliyin ömürünə isə az qalırdı.

– Gəl duraq. Başım ağrıyır. Yəqin ağlamaqdan, siqaret tüstüsündəndir. Həb atmaq lazımdır, yuyunmaq lazımdır...

– Nə edəcəyik? – Ruslan son siqaretini çəkirdi.

– Gəl plov bişirək. Katya ilə Anarı qonaq edərik. Mədə ağırlaşanda ürək yüngülləşir. Hər nə olsa da, biz çoxdan doğmalaşmışıq və bunu kimsə bizdən ala bilməz.

Taşa ayağa qalxıb otağın havasını dəyişmək üçün nəfəslikləri açdı. Paltarlarını geyinib yerə tökdüklərini yığışdırdı. Divardakı şərab ləkəsini silməyə cəhd etdi. Cəhdi boşa çıxdı. Şüşə qırıntılarını zibil yeşiyinə atdı. Pəncərə qarşısında oturdu. Pəncərədən məbədlərin günbəzləri görünürdü. Taşa bildiyi bütün duaları yadına saldı. Ətrafa nəzər saldı. Ruslana baxdı. Ruslan yatmışdı. Taşa onu oyatmadı, qoy yarım saat yatsın. O, özü ilə baş-başa qalmalıdır. Onun üçün çox əhəmiyyətlidir. Qar yağırdı. Taşa yağan qarın kilsənin üstünü ağ rəngə boyadığına baxa-baxa sakitcə ağlayırdı. Niyə hər şey bu cür ədalətsizdir? Niyə o, sevdiyi adamdan əl çəkməlidir? Keçirdikləri xoş günlər yadına düşürdü...

Taşa həbi içdi, üstündən böyük stəkan dolusu su içdi. Çantasında sakitləşdirici damcılar tapıb onları da içdi. Geyindi, isterikanın izlərini silmək üçün soyuq su ilə əl-üzünü yudu. Üzünü boyadı, saçlarını burdu.

– Ruslan, dur, mağazaya gedək, plov üçün lazım olan ərzağı alaq.

– Halım yoxdu, İvanova. Halım heç yoxdur, – Ruslan köks ötürərək dedi.

– Getməliyik. Birazdan Katya ilə Anar gələcəklər, yır-yığış etdim, şam yeməyi hazırlayaq.

Onlar hazırlaşıb qəribə dramatik səsi olan köhnə liftlə aşağı

düşdülər.

Piter axşamlar gəzməyə çıxan və bəzən tələsən adamlarla dolu olurdu. Çoxsaylı kafelərdən musiqi səsi gəlirdi. Səfilə oxşayan saqqallı kişi meyxana deyirdi. Taşaya elə gəlirdi ki, şəhər rəhbərliyi qəsdən belə adamları küçələrdə otuzdururdular ki, onlar atmosfer, şərait yaratsınlar. İçkili şairlər kədərli ilham pəriləri ilə qarşılaşanda ortaya sonetlər və blüzlər çıxır... İnternetdən götürülmüş bu misra şəhərin atmosferini ifadə edən epiqraf ola bilərdi. Şəhərin qəlbi ağlayan musiqiçiyə, bir az içmiş, dərindən analiz aparan və sevgi haqqında ballada oxuyan romantikə oxşayır. Bura gəncdir. Kütlə arasında fikirlər, qəribə melodiyalar və gözəlliklər çoxdur... Onlara hər küncdə, hər binada rast gəlmək olar. Piterdən kofe və bulka qoxusu gəlir. Sıfırdan başlamaq üçün Sankt-Peterburq, bəlkə də, dünyadakı ən ideal şəhərdir. Taşa və Ruslan küçədə yavaş-yavaş özlərinə gəlməyə, vəziyyəti qəbul etməyə, həyatla barışmağa başladılar. Hərçənd... Bu, çox güman ki, xülya və müvəqqəti sakitlik idi.

Ərzaq mağazasından plov üçün lazım olan hər şeyi aldılar: təzə qoyun əti, uzun düyü, kərə yağı. Meyvə və quru meyvə hissəsində quru ərik, şabalıd, qara gavalı qurusu aldılar. Yumurta, baş soğan. Lazımlı hər şeyi əldə edəndən sonra bişirməyə başladılar. Anarla Katya zəng edərək iki saatdan tez gəlməyəcəklərini bildirdilər. Onlar artıq şəhəri gəzib, tamaşaya gediblər. Saatın əqrəbləri doqquzun yarısını göstərirdi, onlar bir az da gəzməyi qərarı almışdılar. Taşa düyünü islatdı, Ruslan əti doğradı.

– Bilirsən, biz səninlə çox şey edə bilərdik. İkimiz də Oxatan bürcündənik, enerjimiz dağları yerindən oynadardı.

– Taşa, nə olmasından, harda olmağımızdan asılı olmayaraq... Fikrən həmişə sənin yanında olacam. Biz hələ ayrılmamışıq, amma mən darıxmağa başlamışam, – Taşaya elə gəldi ki, Ruslan bu sözləri ürəkdən dedi.

– Həyatın nəbzini tuta bilmirəm. Əgər bizi belə ağrılı halda bir-birimizdən ayıracaqdısa, niyə yollarımızı qovuşdurdu?

– Həyatda heç nə boş-boşuna baş vermir, biz nə üçünsə bir-birimizə lazım idik, – Ruslan doğranmış əti kasaya tökdü.

Taşa əti qaynayan suya atdı.

– Məndən sonra evə qayıdanda nə hiss edirdin?

– Niyə soruşursan? Bunu bilmək istədiyinə əmin deyiləm, – Ruslan meyvə qurularını yuyub üzərinə qaynar su tökdü.

– Mən, sözün düzü, bir insanın eyni anda iki qadını nə dərəcədə sevdiyini anlamaq istəyirəm. Lağ eləmirəm. Belə bir şeyin mümkün olub-olmamağı həqiqətən maraqlıdır, – Taşa soğanı doğrayırdı, onun gözündən axan yaşların da səbəbi, çox güman, bu idi.

Ruslan tavanı qızdırdı, kərə yağı əlavə etdi, soğanı da həmin tavaya tökdü.

Taşa meyvə qurularının suyunu atıb onları da tavadakılara əlavə etdi. Ruslan əti də ora qoydu. Mətbəxə inanılmaz qoxu yayıldı. Taşa düyünü qaynamağa qoydu. Düyünü yarım-hazır olanadək qaynatmaq lazım idi. Ayrıca fincan götürdü, onun içinə kərə yağı, zəncəfil və bir az duz atdı, ərimək üçün mikrodalğalı sobaya yerləşdirdi. Taşa kirayələnmiş evin mətbəx rəflərində ən qalın dibli qazanı tapmaq üçün çox axtarış apardı. Qazan kimi onun dibinə kərə yağı sürtdü, yumurta-düyü qarışığını ora qoydu, düyü, zəncəfilli yağ və əti sıra-sıra qazana yığdı. Sonra qazanı dəm alması üçün qazın üstünə qoydu.

– Biz komanda şəklində çox yaxşı işləyirik, İvanova, – Ruslan əllərini yuya-yuya dedi.

– Hə, heç bir mübahisəli məqam, gərginlik olmadı. Biz bir-birimiz üçün yaranmışıq, – Taşa istehza ilə gülümsəyərək onun alnından öpdü.

Ev isti və rahat idi, yemək qoxusu evi bürümüşdü. Taşa radionun qulağını burdu. Loren Kristinin “Gecənin rəngi” mahnısı

eşidildi.

– Səsini artır. Gəl rəqs edək, – Ruslan təklif etdi.

– Olar, – Taşa ona yaxınlaşdı.

Mahnının ritminə uyğun olaraq hərəkət edirdilər. Taşa başını Ruslanın çiyninə qoydu. Ruslan zərif, eyni zamanda güclü qolları ilə onu özünə sıxdı. Yalan, sünilik yox idi, heç biri bundan sonra nə olacağını bilmirdi. Və bu qeyri-müəyyənlik onlara bu günki azadlığı bəxş etmişdi. Ruslan Taşanın saçlarını sığallayır, onun alnından, yanaqlarından, dodaqlarından öpürdü. Dayana bilmirdi. Özlərinə bir dünya yaratmışdılar, indi isə o dünyanı onlardan alırdılar. Onlar isə bununla barışmalı və bu itki ilə yaşamağa davam etməli idilər.

– Həmişə yanında olacam. Birdən lazım olsam, sadəcə çağırmağın kifayətdir, mən dərhal gələcəm.

– Səni narahat etməyəcəm.

Taşa hiylə işlətdi və Peterburqdan sonra bir ay belə, dözə bilmədi. Zəng vurmamaq və yazmamaq üçün özünü güclə saxlayırdı. Sonra Bakıya uçdu. Ruslanla görüşlər qısa və gərgin keçdi. Hər ayrılıq iztirablı idi. Taşanın vəziyyəti düzəltmək ümidi belə görüşlərdən sonra ilahinin hədiyyəsi hesab etdiyi bətnindəki körpəyə idi. Taşa artıq məhv olmuş münasibətləri bərpa etmək üçün ona süni nəfəs verəcəyinə inanırdı. O, dəlicəsinə, qarşısındakı hər şeyi darmadağın edə biləcək ehtirasla sevirdi. Bu cür sevgi, görünür, insana bir dəfə qismət olur. Bu ehtiras yelləncəyi uzun müddət yellədə bilər. Bu yelləncəklər qapalı dairə kənarına heç vaxt çıxmayacaq. Yalnız gözüyumulu atlayış xilas edə bilər. Ehtiras yelləncəyini dayandırmağın yeganə yolu oradan birdəfəlik yerə tullanmaqdır. Əsas məsələ, tullanarkən sağ qala bilməyi bacarmaqdır.

# Quru meyvələrlə hazırlanan Bakı plovu



**İstifadə olunan ərzaqlar:**
*toyuq – 1 ədəd*
*iri baş soğan*
*250 qr. əridilmiş yağ*
*500 qr. quru meyvə (ərik qaxı, üzüm, qara gavalı, incil)*
*3 stəkan basmati düyüsü*
*1 x. q. zirə toxumu*
*1 x.q. zirinc*
*2 ədəd yumurta*

**Hazırlıq mərhələsi**

Düyü tər-təmiz yuyulur və qurudulur. 2 litr suya tökülür, 7–10 dəqiqə ərzində yumuşalana qədər qaynadıqdan sonra aşsüzəndən keçirilir. Mis, yaxud qalın alüminium qazan əridilmiş yağla yağlanır. Yumurtalar sındırılır, qarışdırılır və qazanın dibinə tökülür. Qazana təbəqələrlə düyü səpilir. Hər təbəqəyə təxminən 100 – 150 qram əridilmiş yağ əlavə olunur. Qazan qapaqla örtülür, zəif yanan ocağa qoyulur. 20–25 dəqiqədən sonra qazanın dibində xırçıldayan qazmaq əmələ gəlir. Qazanı ocaqdan götürüb isti parça ilə (odeyalla) bükülür.

Quru meyvələr yuyulur, qurudulur və 3 x.q. əridilmiş yağın içərisində 5 dəqiqə qovrulur. Üstünə 1,5 stəkan qaynanmış su tökülür. Zəif yanan odun üzərində yumuşalıb sous şirəsi alınana qədər qaynadılır. Sonra toyuq tikələrə bölünür, tavanın içərisində kiçik hissələrə doğranmış soğanla birlikdə 30 – 40 dəqiqə ərzində qızardılır, üstünə yumurta sındırıb qarışdırılır və nəticədə toyuq çığırtması alınır. Bütün mərhələlər yerinə yetirildikdən sonra plov iri qablara çəkilir, üstünə toyuq çığırtmasının hissələri qoyulur və süfrəyə verilir. Qurudulmuş meyvə sousu ayrıca qabda süfrəyə gətirilir.

# Qutab
## (epiloq)

Ayrılandan bir il sonra Taşanın işləri yoluna düşdü, həyatında onu qoruyan, qayğısına qalan, sevgi macəralarının ağır yükünü qəbul edən Kiril peyda oldu. Natalya qəti olaraq qərara gəldi ki, heç zaman, hətta güllə altında olsa da belə, Ruslana nə zəng edəcək, nə də zənglərinə cavab verəcək. Yeni ilə az qalanda gizli nömrə ilə ona zəng oldu, Taşa tələsik dəstəyi qaldırdı:

– İvanova, salam, işlərin necədir?

– Qaydasındadır. Danışan kimdir? Mən sizi tanımadım.

Ruslan onu günahlandırırmış kimi:–Taşa, mənəm, doğrudanmı məni unutmusan?

Taşa soyuqqanlı halda: – Yox. Ancaq düşünürəm ki, bizim səninlə danışacağımız elə bir mövzu qalmayıb.

– Mənim vəziyyətim çox pis idi. Mənə hücum etdilər, bıçaqladılar, üç həftə reanimasiyada qalmalı oldum. Həkim dedi ki, mənim

bəxtim gətirib, sağ qalmağa şansım az idi.

Taşanın bədənindən soyuq gizilti keçsə də özünü ələ ala bildi. Sakit səslə:

– Hər şey yaxşı olar...

Ruslan ümidləndi: – Sən indi mənə çox lazımsan...

– İndi mənim həyatımda başqa adam var. Mən onu çox sevirəm.

Ruslan peşman halda, dili dolaşa-dolaşa dedi: – Mən sənə görə şadam...

– Sənin həyatında da hər şey yaxşı olacaq. Kədərlənmə. Özünə fikir ver, tez sağal, – deyib, Taşa dəstəyi yerinə qoydu.

Messengerə (telefona) xəstəxanadan hələ də şəkillər daxil olurdu. Ancaq Taşa  cavab vermədi.

Həmin gecə Taşa gələcək ərinə hər şeyi ətraflı danışdı. O çox səbrlə dinləyirdi. Bayırda qar yağırdı. Texnika qarı təmizləməyə macal tapmırdı. Onların qaldığı  şəhər kənarında bir ailəlik kiçik evin yerləşdiyi qəsəbənin yollarında maşın sürmək mümkün deyildi. Kiril kürəyi götürüb Taşaya verdi. Natalya üç saat cidd-cəhdlə yolu təmizləyirdi. Keçənləri xatırlayaraq təmizləyirdi. Yolun hər on metrliyində onun qəlbində yüngüllük yaranırdı. Xoşbəxt olmaq, gələcəyə təmiz ürəklə, yeni sevgi və məhəbbətlə getmək üçün o, təkcə yolu deyil, öz fikirlərini, öz ağrılarını təmizləyirdi. Yelləncək dayanmalı idi.



# Azərbaycan qutabının hazırlıq mərhələsi

**Hazırlıq mərhələsi**
Lazım olan ərzaqlar:
4–5 stəkan un
1 yumurta
1 ç.q. duz
İlıq su
Zövqə görə sarıkök əlavə etmək olar

Yuxa üçün:
4–5 x.q. un

**İçlik üçün:**

10–15 dəstə göyərti (keşniş, şüyüd, ispanaq, göy soğan, nanə, sarımsaq, cəfəri, turşəng, kəvər, cincilim və s.)
Zövqə görə duz

Qutabın aralarına sürtmək və qızartmaq üçün kərə, ya da bitki yağından istifadə etmək olar.

**Üzərinə tökmək üçün:**

Sumaq (zövqə görə)
Qatıq

**1-ci addım**

Unu qaba ələyirlər. Ortasına yumurta, isti su əlavə edib qaşıqla qarışdırırlar. Sonra normal xəmir yoğrulur. Xəmiri balaca hissələrə bölüb kündələyirlər. Üstünü örtüb qurumaması üçün salofana bükürlər. Sonra içliyi hazırlayırlar. Göyərtiləri təmizləyib yuduqdan sonra xırda-xırda doğrayırlar. Doğranmış göyərtiyə duz səpib qarışdırırlar.

**2-ci addım**

Kündənin birini götürüb un səpib nazik yuxa yayırlar. Yuxanın yarı hissəsinə içlikdən qoyub iki qatlayırlar və yanlarını bərkidirlər. İsti sacın (tavanın) üzərinə qoyub hər iki tərəfini qızardırlar. Bu qayda ilə bütün qutabları bişirirlər.

# Şeirlər

Füsunkar Xəzərin sahillərində
başımıza gələn olaylar
qaçılmaz bir həqiqət,
yaddaşıma hopan
bir röya.
Müxtəlif dillərdə yalvarırdıq,
müxtəlif dill ərdə dua edirdik
 sən Allaha, mən İsaya.

Bir deyildik hələ.
Ömürlük bir olmaq üçün,
                    gözümüzü pərdələyən
                    dumanları dağıtmaq üçün,
tarixən əcdadlarımızın
damarlarında coşan qana
inanmaq üçün
müxtəlif dillərdə dua edirdik,
and içirdik, yalvarırdıq
sən Allaha, mən İsaya.
O zaman, o vaxt bilmirdik,
inanmaq istəmirdik,
iki yarımçıq taleyin
uyğunsuzluğuna.

Sənin ehtiraslı baxışların,
mənim sadəlövh
ehtiyatsız sözlərim
dumanlandırdı
məhəbbətin gözlərini.
O zaman
dönmədən, usanmadan
biz müxtəlif dillərdə
dua edirdik,
sən Allaha, mən İsaya...
Artıq diz çöküb yalvarmağın,
ağlayıb, sıtqamağın yeri deyil...
Gücüm çatsa
elə indidən, elə bu andan
hər şeyi unudacam.
Əlim yetsə,
acı göz yaşlarımı siləcəm,
itilənmiş caynaqlarımla
qoparacam
məni əldən salan,
əzab verən xatirələri...
Füsunkar Xəzərin sahillərində
mənə yalançı ümidlər verən
yay tozunun qalıqlarını,
çəkmələrimdən təmizləyəcəm.
Yaxamdan əl çəkməyən
qorxunu, acı göz yaşlarını
gecələrə saxlayacam...
Artıq bütün məktublar
mənasını itirən külə,
qorxulu kabusa dönür...

Artıq qulaqlarımı dələn
kilsə zəngləri,
minarələrdən ucalan
azan sədaları
mənim üçün yad səslənir...
Fəqət... fəqət... fəqət...
Allaha da,  İsaya da
bir dildə  dua edəcəm.
Hələ də inanıram
məhəbbətin, sədaqətin
müqəddəsliyinə...
Bağışla məni, İlahi,
qanıma, sümüyümə
hopan xatirələri
silib atmağa gücüm çatmadı.
Onu qərarsız qəlbimin
ünyetməz dərinliyində
gizli saxlayacam, ovunduracam...
Füsunkar Xəzərin sahillərində
baş verən həqiqətləri
nağıllaşdırıb
nəvələrimə danışacam.

Pəncərəni yağış damlaları döyür,
səmanı şəffaf yay şimşəyi parçalayır...
Günəş qüruba enəndə,
yollara işıq saçacaq...
Bizim tale ulduzumuztək
getdikcə uzaqlaşan
gəmiləri görürsənmi?
Kimsə deyib:
“ zaman badələrə
süzülən şərab kimi
arzuları müdrikləşdirir”...
Biz də elə ola bilərdik,
Sevgi dolu illərin
əlindən tutub
müdrikləşərdik...
İndi burulğana düşən,
parçalanıb dağılan
sevgi dünyamızın
pəncərəsini döyəcləyən
yağış damlaları
vida “tanqo”sunun
müşayiəti ilə rəqs edir.
Gitaranın qırılmış simləri,
yağışın göz yaşları ilə
arzularımıza yas saxlayır.
Elə bil, yox imişik,
bu dünyada olmamışıq...
Zamanın ədalətli hökmü
bizi qovuşdura bilmədi...

Bundan sonra
 saçlarıma qonan bəyazlığı
 günəşin şəfəqləri oxşayacaq,
çiliklənmiş məhəbbətimiz
pəncərəmizi döyəcləyən
çılğın damlaların altında
yetim körpə kimi
islanacaq, üşüyəcək...

Boynubükük xatirələr
 günahkar uşaq kimi,
üzr diləyir...
O gün-
 bir qədər düşüncəli,
bir qədər qətiyyətli
başqasını sevdiyini deyəndə,
qızmar yay günündə
 vücudum titrəyəndə
 nə sən mənim
 hayımdaydın,
nə mən sənin sorağında.
O gün-

kədər məni
doğma balası kimi
sinəsinə sıxanda,
sevginin göz yaşlarını
acı- acı udanda
nə sən mənim hayımdaydın,
nə mən sənin sorağında...
O gün-
tozlu, əyri küçələrlə
ayaqlarım sürünə-sürünə
hara gedəcəyini bilməyəndə,
nə sən mənim hayımdaydın,
nə mən sənin sorağında...
O gün-
havalanmış dəli kimi
şirin qlyase, ya da
fransız kökəsi istədim.
O gün-
sahildəki bütün evlər
günəş altında qızaran
şirniyyat xonçasına bənzəyirdi.
Pəncərələrdən süzülən şüalar
mənə "əlvida" elegiyasını oxuyurdu...

Maşında canım sıxılır,
saxla düşək...
Bir az təbiətə qovuşaq,
onun lal səsinə
qulaq asaq...
Bayaqdan tələbələr kimi
hey danışırıq...
Başqasını sevir, qoy sevsin,
Ürəyə hökm eləmək
günahdır axı.
Fikir eləmə, keçib gedər
On-onbeş qəmli günlər
keçəndən sonra
xatirələrin sərinliyi
ovunduracaq səni...
Keçmişə qayıtmaq istəməzdim...
Qızmar yay günəşi altında
sahildən əsən sərin meh
ruhumu oxşadı,
yaşıllıqda qəlbim işıqlandı,
aydınlıq gəldi düşüncələrimə...
Burda məni tanıyan yox,
şıltaq uşaqlığıma qayıdacam,
hər şey cəzasız qalacaq.
Qəribədir, deyilmi...
Biz hələ də birlikdəyik.

Ayaqqabımı çıxarıb,
ayaqyalın çəmənlikdə
gəzmək istədim.
Həya zəncirini qırıb
kipriyimlə, nəfəsimlə
sənə toxunacaq qədər
yaxın olmaq istədim...
Amma yox,
O zaman sən yaman tələsirdin.
Keç sükan arxasına- dedim,
artıq vaxtdır.
Görmədiyimiz ölkələri,
şəhərləri gəzmək,
müxtəlif taleli insanlarla
görüşməyin vaxtıdır.
Başqasını sevirsən demişdin,
bəs niyə tələsik uçub gəlmisən?
Bu iyul istisində sərinlik istəmisən?
– Hə... gəl,
kafeyə də baş çəkək...
Qəhvənin ətrinə bax,
bihuş edir adamı...
– Diplomat, getməyə tələsmirsən..?

Doğma prospekt, maşın seli,
Həmin salon, həmin eyvan...
Qəribə yerdir, vallah,
  intersəs filmlərini xatırladır.
Sən başqasının,
 mənsə sənə sarılmış tənək zoğu...
Bəlkə də sən deyəndir,
qısa ətəkdə
 çılğın yeniyetməyə bənzəyirəm...
Sən get, artıq vaxtdır,
 mən sonra  çıxaram.
Yanlış söz-söhbətə,
qonşu qeybətinə
 ehtiyac yoxdur.
Onsuz da həyat mürəkkəbdir:
ailə, iş, uşaqlar...
İndi sən gedirsən,
kafenin pəncərələrini
yağış damlaları yuyur.
Qızmar yay günündə
Vücudum titrədi...
Nə qədər sadəlövhdür sevgimiz!

**SON**

**MARİYA SUVOROVSKAYA**
**XƏZƏR ÜZƏRİNDƏ YELLƏNCƏK**
Bakı – "**APOSTROF-A**" – 2019

**Bədii redaktor**
Fuad Hüseynzadə

**Operator**
Arzu Hüseynova

Çapa imzalanıb 25.04.2019
Formatı 60x84 1/16
Kağız ofset №1
Fiz. çap. vər. 8
Sayı 300

Kitab **"APOSTROF-A"** nəşriyyatında
ofset üsulu ilə çap edilib.
*Bakı, H.Zərdabi 71 A*
*E-mail: apostrof0706@gmail.com*
*Tel.: +99412 432 51 04 / +99450 313 07 06*